Paşa İbiş oğlu Səfərov



# MÜLKİ İŞLƏR ÜZRƏ MƏHKƏMƏ QƏTNAMƏLƏRİ

Paşa İbiş oğlu Səfərov

# MÜLKİ İŞLƏR ÜZRƏ MƏHKƏMƏ QƏTNAMƏLƏRİ

(nümunələrlə)

«OL» MMC
Bakı - 2013

**Kitabda istifadə olunmuş ixtisarlar:**

**AR** – Azərbaycan Respublikası
**Konstitusiya** – Azərbaycan Respublikasının Konstitusiyası
**MM** – Azərbaycan Respublikasının Mülki Məcəlləsi
**MPM** – Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi
**İPM** – Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi
**CPM** – Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi
**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
**AM** – Azərbaycan Respublikasının Ailə Məcəlləsi



# I FƏSİL
## Ümumi müddəalar

MPM-in 15.1-ci maddəsinə əsasən, məhkəmə məhkəmə aktlarını **qətnamə, qərardad, qərar** və **əmr** formasında qəbul edir.

Ümumi olaraq məhkəmə aktları qəbul edildiyi işlər üzrə icraata görə **3 qrupa** bölünür:

1) **bütün növ məhkəmə icraatı üzrə qəbul edilən aktlar;**
2) **konkret növ məhkəmə icraatı üzrə qəbul edilən aktlar;**
3) **bir neçə növ məhkəmə icraatı üzrə qəbul edilən aktlar**[1].

**Məhkəmə qətnamələri** bir neçə növ məhkəmə icraatı üzrə qəbul edilən aktlar qrupuna daxil olaraq **mülki** və **inzibati-iqtisadi** (konkret olaraq iqtisadi işlər üzrə) işlər üzrə məhkəmə icraatlarında qəbul edilirlər.

Mülki işlər üzrə məhkəmə icraatı zamanı qəbul edilən qətnamələr həm digər növ (inzibati-iqtisadi) məhkəmə icraatı üzrə qəbul edilən akta (qətnaməyə) nisbətən, həm də mülki məhkəmə icraatında qəbul edilən digər aktlara (qərardad, qərar və əmr) nisbətən daha çox əhəmiyyət kəsb edən aktlardır.

Beləliklə, **mülki və iqtisadi məhkəmə icraatı üzrə qəbul edilən qətnamə məhkəmə aktının bir forması kimi mülki məhkəmə icraatı zamanı daha çox əhəmiyyətə malik olan və digər aktlara (qərar, qərardad və əmr) nisbətən daha çox prosessual və maddi hüquq münasibətlərini tənzimləyən bir aktdır**.

Başqa sözlə desək, **qətnamə - mülki və iqtisadi işlər üzrə birinci və apellyasiya instansiya məhkəməsi tərəfindən məhkəmə iclasında işə baxıldıqdan sonra yekun məhkəmə aktı kimi müşavirə otağında çıxarılan və işi mahiyyəti üzrə həll edən məhkəmə aktıdır.**

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumunun 24 noyabr 2005-ci il tarixli, 4 saylı Qərarının 1-ci bəndinə əsasən, məhkəmə qətnaməsi mülki və iqtisadi mübahisələrdən irəli gələn işlər üzrə ədalət mühakiməsinin **yekun aktı** olduğu üçün onun qəbul edilməsi ilə mübahisəli hüquq münasibətlərində **müəyyənlik** yaranmalı, pozulmuş

---

[1] Bax: Paşa İbiş oğlu Səfərov. Məhkəmə qərardadları. "Paritet" qəzeti. Bakı, 12-13.09.2012-ci il. Səhifə 14.

və mübahisə edilən hüquqların və qanunla qorunan mənafelərin **real bərpası** təmin olunmalıdır.

Qətnamə məhkəmənin qəbul etdiyi digər aktlardan – qərardad, qərar və əmrdən müəyyən dərəcədə **fərqli xüsusiyyətlərə** malikdir. Bu fərqlilik nəticəsində qətnamə özünə məxsus müstəqil akt statusunu qoruyub saxlayır.

**Birinci növbədə qətnamə digər aktlardan məhkəmədə baxılan işin mahiyyəti üzrə həll edilib-edilməməsi fərqi ilə seçilir**. Belə ki, MPM-in 216.1-ci maddəsinə əsasən, işi mahiyyəti üzrə həll edən birinci instansiya məhkəməsinin aktı qətnamə formasında çıxarılır. Normativ hüquqi aktın sözügedən normasından müəyyən olunur ki, yalnız qətnamə, yalnız birinci instansiya məhkəməsinin qəbul etdiyi aktlar arasında işi mahiyyəti üzrə həll etmək səlahiyyətinə malikdir. Lakin **hesab edirik ki, qətnamə ilə yanaşı qərardad da, məhkəmə əmri də işi mahiyyəti üzrə həll etmək iqtidarına sahibdirlər**.

Hüquq ədəbiyyatında işi mahiyyəti üzrə həll edən məhkəmə aktlarına münasibət bir qədər mübahisəli şəkildə tədqiq edilməkdədir. Belə ki, bu sahədə hüquqşünaslar üç qrupa bölünür:

**Birinci qrup hüquqşünaslar hesab edir ki, işi mahiyyəti üzrə həll edən məhkəmə aktı yalnız qətnamədir**. Məsələn, hüquqşünas **V.Mirkamal** hesab edir ki, qətnamə - məhkəmə iclasında işə baxıldıqdan sonra müşavirə otağında çıxarılan və işi mahiyyəti üzrə həll edən məhkəmə aktıdır[1].

Hüquqşünas **B.Əsədov** da yalnız qətnamənin işi mahiyyəti üzrə həll edən məhkəmə aktı olması fikrindədir. Müəllif göstərir ki, ...işə mahiyyəti üzrə baxılsa da sonda qətnamə qəbul edilməyə bilər (məsələn, işin icraatına xitam verilməsi, ərizənin baxılmamış saxlanılması və s.). İş mahiyyəti üzrə həll edildikdə isə bütün hallarda yekun aktı qətnamə formasında çıxarılır[3].

Bu sahədə hüquqşünas **B.Kərimli**nin də fikri maraqlıdır. Müəllif göstərir ki, işə məhkəmədə baxılması iki növ yekun məhkəmə aktının çıxa-

---

[1] Bax: www.supremecourt.gov.az/?mod=28cat=3015&id=233&c=7&lang=az-&f=1

[2] Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə19.

[3] Bax: Yenə orada. Səhifə 263



rılması ilə nəticələnə bilər: qətnamə və ya qərardadla. Qətnamə işə mahiyyəti üzrə baxılıb həll edilməsinə dair yekun məhkəmə aktıdır. İşə məhkəmədə baxılması iki növ qərardadın çıxarılması ilə yekunlaşa bilər: 1) ərizənin baxılmamış saxlanması haqqında qərardadla (MPM-in 259-cu maddəsi); 2) iş üzrə icraata xitam verilməsi haqqında qərardadla (MPM-in 261-ci maddəsi)[1].

Müəllif hər iki qərardadı işi mahiyyəti üzrə həll etməyən yekun məhkəmə aktı hesab edir.

**İkinci qrup hüquqşünaslar hesab edir ki, işi mahiyyəti üzrə həll edən məhkəmə aktı yalnız qətnaməyə xas olan əlamət deyil**. Məsələn, hüquqşünas **F.Manafov** hesab edir ki, qərardad işi mahiyyəti üzrə həll etmir[2]. Eyni zamanda müəllif göstərir ki, işin mahiyyəti üzrə həll edilməməsi əlaməti məhkəmə qərardadına xas olsa da, lakin bu, onun spesfik əlaməti deyil. Belə ki, qərardadla yanaşı kassasiya instansiya məhkəməsinin qərarı da işi mahiyyəti üzrə həll etmir. Lakin qətnamə ilə yanaşı, məhkəmə əmri də işi mahiyyəti üzrə həll edir[3].

Müəllifin münasibətindən aydın olur ki, qərar və qərardad işi mahiyyəti üzrə həll etməyən, qətnamə və əmr isə işi mahiyyəti üzrə həll edən məhkəmə aktlarıdır.

Doğrudur, MPM-in 216.1-ci maddəsinin tələbinə görə, işi mahiyyəti üzrə həll edən birinci instansiya məhkəməsinin aktı qətnamə formasında çıxarılır. Qanunun bu göstərişi işin mahiyyəti üzrə həll edilməsi zamanı birinci instansiya məhkəməsi tərəfindən qətnamənin qəbul edilməsində ifadə olunur ki, bu göstəriş qətnamənin bütün hallarda işin mahiyyəti üzrə həll edilməsi məsələsində qəbul edilməsini təsdiqləyir. Yəni qətnamə yalnız işin mahiyyəti üzrə həll edən birinci instansiya məhkəməsinin aktıdır.

Əslində normativ hüquqi aktın bu göstərişi imperativ xarakterə malik olaraq yalnız məhkəmə qətnaməsinin hüquqi qüvvəsini nəzərdə tutur. Baxmayaraq ki, **qanunvericilikdə birbaşa nəzərdə tutulmasa da di-**

---

[1] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhifə 176-177.

[2] Bax: Yenə orada. Səhifə 649.

[3] Bax: Yenə orada. Səhifə 649.

gər aktlar da (qərardad, əmr və qərar da) **işi mahiyyəti üzrə həll etmək səlahiyyətinə malikdir**[1].

Eyni zamanda MPM-in 263.1-ci maddəsinə görə iş mahiyyəti üzrə həll edilmədikdə məhkəmə aktları qərardad formasında çıxarılır. Qanunun bu göstərişi isə ondan ibarətdir ki, mülki məhkəmə icraatı zamanı iş mahiyyəti üzrə həll edilmədikdə qəbul olunan məhkəmə aktları qərardad formasında olur. Lakin bu o demək deyil ki, **qərardad yalnız iş mahiyyəti üzrə həll edilmədikdə qəbul olunur, o hətta iş mahiyyəti üzrə həll edildikdə də qəbul olunur**[2].

"AR MPM-in 265.5-ci maddəsinin və "Məhkəmə qərarlarının icrası haqqında" AR Qanununun 82.3-cü maddəsinin şərh edilməsinə dair" AR Konstitusiya Məhkəməsi Plenumunun 15 fevral 2008-ci il tarixli Qərarına görə, **məhkəmə qərardadı işi mahiyyəti üzrə həll etməyən, lakin məhkəmə və ya hakimin iddianı icraata qəbul etmək, iddianı baxılmamış saxlamaq, icraatı dayandırmaq, ona xitam vermək və MPM-də nəzərdə tutulmuş digər hüquq səlahiyyətlərindən istifadə olunmasını rəsmiləşdirən məhkəmə aktıdır**[3].

Həmçinin Qərara görə, işə (iddia və ya digər növ ərizələrə) mahiyyəti üzrə baxılması birinci instansiya məhkəmələrində müvafiq olaraq iddia tələblərinin və ya məhkəməyə ünvanlanmış xahişin əsasında və hədlərində həyata keçirilir. **Birinci instansiya məhkəməsində mülki məhkəmə icraatı məhkəmə baxışı həyata keçirildikdən sonra yekunlaşdırılır. Bu icraat, bir qayda olaraq, işi mahiyyəti üzrə həll edən qətnamənin və ya icraata xitam verilməsi haqqında qərardadın qəbulu ilə sona çatır.** Lakin məhkəmə baxışında həmçinin digər növ məhkəmə aktları – qərardad və ya xüsusi qərardad qəbul oluna bilər[4].

Normativ xarakterli hüquqi aktın məzmunundan müəyyən olunur ki, sözügedən qərar icraata xitam verilməsi haqqında qərardadı konkret olaraq işi mahiyyəti üzrə həll edən akt hesab etməsə də, onu işi mahiyyəti üzrə həll etməyən aktlar kateqoriyasına da daxil etmir.

---

[1] Bax: Paşa İbiş oğlu Səfərov. Mülki işlər üzrə məhkəmə qərardadları (nümunələrlə). Bakı, "Digesta" nəşriyyatı. 2012. Səhifə 4.
[2] Bax: Paşa İbiş oğlu Səfərov. İnzibati xətalara dair işlər üzrə məhkəmə aktları (nümunələrlə). Bakı, "Digesta" nəşriyyatı. 2012. Səhifə 19.
[3] Bax: www.constcourt.gov.az/decisions/146.
[4] Bax: Yenə orada.



Hesab edirik ki, **qətnamə, əmr və qərar yalnız işi mahiyyəti üzrə həll edən məsələlərdə, qərardad isə həm işi mahiyyəti üzrə həll edən məsələlərdə, həm də həll etməyən məsələlərdə qəbul edilən məhkəmə aktıdır**.

Gəldiyimiz nəticənin əyani sübutu üçün bir misal çəkək. A. B.-dən onun xeyrinə 100 manat pulun tutulması barədə iddia ərizəsi ilə birinci instansiya məhkəməsinə müraciət edir. Məhkəmə baxışı zamanı cavabdeh B. iddianı qəbul edir, lakin pulun ödənilməsini 6 aylıq müddətə başa çatdırılmasını bildirir. İddiaçı onunla razılaşır və onlar barışıq sazişi imzalayırlar. Birinci instansiya məhkəməsi isə barışıq sazişini təsdiq edərək qərardadla işin icraatına xitam verir. Buradan müəyyən olunur ki, sözügedən iddia tələbi üzrə birinci instansiya məhkəməsinin qərardadı işi mahiyyəti üzrə həll etmiş məhkəmə aktıdır[1].

**İkinci növbədə qətnamə digər məhkəmə aktlarından həll etdiyi hüquq münasibətlərinə görə fərqlənir.** Belə ki, məhkəmə qətnamələri digər məhkəmə aktlarından (qərardad, əmr və s.) fərqli olaraq **həm prosessual, həm maddi, həm də maddi-prosessual hüquq münasibətlərini (qarışıq münasibətləri) həll edən məhkəmə aktıdır.**

**Üçüncü növbədə qətnamə digər məhkəmə aktlarından onu qəbul edən məhkəmə instansiyasına görə fərqlənir**. Bu sahəyə görə qətnamələr 2 qrupa bölünür:

1) **yalnız birinci instansiya məhkəmə tərəfindən qəbul edilən qətnamələr (birinci dərəcəli qətnamələr)** (misal üçün, MPM-in 316-cı maddəsinə əsasən, birinci instansiya məhkəməsi yeni qətnamə ilə özünün əvvəl çıxarmış olduğu qətnaməni ləğv edir)[2];

2) **yalnız apellyasiya instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamələr (ikinci dərəcəli qətnamələr)** (misal üçün, MPM-in 384.0.4-cü maddəsinə görə, apellyasiya instansiya məhkəməsi qətnaməni (birinci instansiya məhkəməsinin qətnaməsini – müəllif) tamamilə və ya qismən ləğv edə bilər, iş üzrə icraata xitam verə və yaxud ərizəni baxılmamış saxlaya bilər;

---

[1] Bax: Paşa İbiş oğlu Səfərov. Mülki işlər üzrə məhkəmə qərardadları (nümunələrlə). Bakı, "Digesta" nəşriyyatı, 2012. Səhifə 4-5.
[2] Bu əlamət mübahisəli şəkildə tədqiq edilməkdədir. Bəzi müəlliflər hesab edirlər ki, bu əlamət birinci instansiya məhkəməsi ilə yanaşı apellyasiya instansiya məhkəməsinə də aiddir.

3) **həm birinci instansiya məhkəməsi, həm də apellyasiya instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamələr (qarışıq qətnamələr)** (misal üçün, MPM-in 326-cı maddəsinə əsasən, həm birinci instansiya məhkəməsi, həm də apellyasiya instansiya məhkəməsi daşınar əşyanın sahibsiz hesab edilməsi və onun sahiblik etməyə başlamış şəxsin mülkiyyətinə verilməsi barədə qətnamə qəbul edir).

Qeyd edək ki, **birinci və apellyasiya instansiya məhkəmələrində qəbul edilən qətnamələr bütün hallarda işi mahiyyəti üzrə həll edən məhkəmə aktı formasında qəbul edilir.**

**Dördüncü növbədə qətnamələr digər məhkəmə aktlarından adına görə fərqlənirlər.** Bu sahəyə görə qətnamələr 3 qrupa bölünür:

**a) ümumi qətnamələr** (MPM-in 311-ci, 315-ci, 321-ci, 326-cı, 333-cü, 338-ci 341-ci və s. maddələri);

**b) əlavə qətnamələr** (MPM-in 229-cu və 392-1-ci maddələri);

**c) qiyabi qətnamələr** (MPM-in 241-ci və 242-ci maddələri).

Ümumi qətnamələr də 2 qrupa ayrılır:

**a) hissəvi qətnamələr[1] (MPM-in 214.3-cü maddəsi və s.);**

**b) tam qətnamələr** (MPM-in 227.1-ci maddəsi və s.)

**Beşinci növbədə qətnamələr digər məhkəmə aktlarından ləğv edilmə halına və zamanına görə (icraat üzrə) fərqlənirlər.** Bu sahəyə görə qətnamələr 3 qrupa bölünür:

1) **birinci instansiya məhkəməsi tərəfindən ləğv edilən qətnamələr (birinci instansiya icraatı)** (məsələn, MPM-in 316-cı maddəsinə görə xəbərsiz itkin düşmüş hesab edilən və ya ölmüş elan edilən şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə, məhkəmə yeni qətnamə ilə özünün əvvəl çıxarmış olduğu qətnaməsini ləğv edir);

2) **apellyasiya instansiya məhkəməsi tərəfindən ləğv edilən qətnamələr (apellyasiya instansiya icraatı)** (məsələn, MPM-in 387-ci maddəsinə əsasən, işə, buna baxmağa hüququ olmayan hakim tərəfindən baxılmışdırsa; işə, işdə iştirak edən şəxslərdən məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilməmiş hər hansı birinin iştirakı olmadan məhkəmə tərəfindən baxılmışdırsa; işə baxılan zaman icraatın aparıldığı dil haqqında qaydalar pozulmuşdursa; məhkəmə işdə iştirak etməyə cəlb olunmamış şəxslərin hüquqlarının pozulması ilə nəticələnmiş onların hüquq və vəzifələrinə dair məsələni həll etmişsə; qətnamə onda göstərilən hakim tərəfindən imzalanmamışdırsa; qətnamə işə baxan hakim tərəfindən qəbul edilməmişdirsə; işdə məhkəmə iclasının protokolu yoxdursa və ya imzalanmamışdırsa şikayətin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin qətnaməsi apellyasiya instansiya məhkəməsi tərəfindən ləğv edilməlidir);

3) **kassasiya instansiya məhkəməsi tərəfindən ləğv edilən qətnamələr (kassasiya instansiya icraatı)** (məsələn, MPM-in 418.4-cü maddəsinə əsasən, işə məhkəmə tərəfindən qeyri-qanuni tərkibdə baxılmışsa; qətnamə və ya qərardad hər hakim tərəfindən imzalanmamışsa və ya qətnamədə göstərilməyən hakimlər tərəfindən imzalanmışsa; qətnamə və ya qərardad işə baxan məhkəmə tərkibinə daxil olmayan hakimlər tərəfindən çıxarılmışsa; işdə məhkəmə iclasının protokolu yoxdursa və ya protokol bu Məcəllənin (MPM-in) 272.8-ci maddəsində göstərilən şəxslər tərəfindən imzalanmamışsa; işə məhkəmə tərəfindən məhkəmə iclasının vaxtı və yeri barədə lazımi qaydada xəbər verilməmiş işdə iştirak etməli şəxslərdən hər hansı birinin iştirakı olmadan baxılmışsa; məhkəmə işdə iştirak etməyə cəlb edilməmiş şəxslərin hüquq və vəzifələrinə dair onların hüquqlarının pozulmasına səbəb olan qətnamə və ya qərardad qəbul etmişsə; məhkəmənin qəbul etmiş olduğu qətnamədə, qərardadda, məhkəmənin rəhbər tutduğu qanuna və ya digər normativ hüquqi akta istinad olunmamışsa; işə baxılarkən məhkəmə icraatının aparıldığı dil haqqındakı qaydalar pozulmuşsa apellyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadı şikayətin dəlillərindən asılı olmayaraq kassasiya instansiya məhkəməsi tərəfindən ləğv edilməlidir).

**Altıncı növbədə qətnamə nəzərdə tutulduğu normativ hüquqi akta əsasən digər məhkəmə aktlarından fərqlənir.** Bu sahəyə görə qətnamələr 2 qrupa bölünür:

1) **MPM-lə nəzərdə tutulan qətnamələr** (məsələn, MPM-in 315-ci maddəsi və s.);

2) **digər normativ hüquqi aktlarla nəzərdə tutulan qətnamələr** (məsələn, AM-in 22-ci maddəsi və s.).

[1] MPM-də bu tip qətnamələrin adı nəzərdə tutulmasa da qətnamənin nəticə hissəsini əhatə etməsi göstərilmişdir. Bu barədə kitabın II fəslində kifayət qədər məlumat verilmişdir.

**3) Yeddinci növbədə qətnamə əhatə etdiyi maddi norma baxımından digər məhkəmə aktlarından fərqlənir.** Bu sahəyə görə qətnamələr 2 qrupa bölünür:

1) **MPM-lə nəzərdə tutulan maddi normalar** (məsələn, vətəndaşlıq vəziyyəti aktları qeydiyyatının düzgün olmamasının müəyyən edilməsi ilə bağlı ərizə üzrə maddi norma kimi MPM-in 341-ci maddəsi və s.);

2) **digər normativ hüquqi aktlarla nəzərdə tutulan maddi normalar** (məsələn, nikahın etibarsız hesab edilməsinə dair AM-in 25-28-ci maddələri və s.).

**Səkkizinci növbədə qətnamə qəbul edildiyi prosessual norma baxımından digər məhkəmə aktlarından fərqlənir.** Bu sahəyə görə qətnamələr 3 qrupa bölünür:

1) **MPM-lə nəzərdə tutula prosessual normalar** (məsələn, şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi ilə bağlı ərizə üzrə prosessual norma kimi MPM-in 314-cü maddəsi və s.);

2) **digər normativ hüquqi aktlarla nəzərdə tutulan prosessual normalar** (məsələn, nikaha xitam verilməsi ilə bağlı AM-in 20.2-ci maddəsi və s.);

3) **həm MPM-lə, həm də digər normativ hüquqi aktlarla nəzərdə tutulan prosessual normalar** (məsələn, uşağın övladlığa götürülməsi ilə bağlı işlər üzrə prosessual norma kimi həm MPM-in 348.1-ci maddəsi, həm də AM-in 122.4-cü maddəsi və s.).

**Doqquzuncu növbədə qətnamə məhkəmə tərəfindən həll olunan məsələnin məxsusluğuna görə digər məhkəmə aktlarından fərqlənir.** Bu sahəyə görə qətnamələr 2 qrupa bölünür:

a) **yalnız qətnamə ilə həll olunan məsələlər** (məsələn, MPM-in 229.1.1-ci maddəsinin tələbinə görə işdə iştirak edən şəxslər tələblərdən hər hansı biri üzrə sübutlar təqdim etmiş və izahatlar vermişlərsə, bu tələblər barədə qətnamə çıxarılmamışsa iş üzrə qətnamə çıxarmış hakim, işdə iştirak edən şəxslərin ərizəsi ilə və ya onları xəbərdar edərək öz təşəbbüsü ilə əlavə qətnamə çıxara bilər. Demək olar ki, əlavə qətnamə çıxarılmanın bütün halları yalnız qətnamə ilə həll olunan məsələlər toplusuna daxildir);

b) **həm qətnamə, həm də digər məhkəmə aktı ilə həll olunan məsələlər** (məsələn, maddi sübutlar üzərində sərəncam verilməsi məsələləri məhkəmənin qətnaməsində və ya qərardadında göstərilməlidir (MPM-in 94.4-cü maddəsi)).

**Onuncu növbədə qətnamə MPM-də nəzərdə tutulan ümumi və xüsusi hallarına görə digər məhkəmə aktlarından fərqlənir.** Bu sahəyə görə qətnamələr 2 qrupa bölünür:

a) **MPM-də xüsusi hal kimi nəzərdə tutulan qətnamələr** (məsələn, məhkəmə qətnamələri ilə bağlı MPM-də xüsusi "Məhkəmə qətnaməsi" adlı XVI fəsil nəzərdə tutulmuşdur ki, fəsil özündə "Qətnamənin çıxarılması" (**maddə 216**), "Qətnamənin qanuniliyi və əsaslılığı" (**maddə 217**), "Qətnamə çıxarıldıqda həll edilən məsələlər" (**maddə 218**), "Qətnamənin tərtib olunması" (**maddə 219**), "Qətnamənin məzmunu" (**maddə 220**), "Əmlakın alınması və ya pul vəsaitlərinin tutulması haqqında qətnamə" (**maddə 222**), "Cavabdehi müəyyən hərəkətləri etməyə məcbur edən qətnamə" (**maddə 223**), "İcra və ya digər sənədlərin icra edilməməli hesab olunmasına dair qətnamə" (**maddə 224**), "Müqavilənin bağlanması və dəyişdirilməsi haqqında qətnamə" (**maddə 225**), "Bir neçə iddiaçının xeyrinə və ya bir neçə cavabdehə qarşı çıxarılan qətnamə" (**maddə 226**), "Qətnamənin tərtibi" (**maddə 227**), "Qətnamədəki yanlışlıqların və ya açıq hesab səhvlərinin düzəldilməsi" (**maddə 228**), "Əlavə qətnamə" (**maddə 229**), "Qətnamənin izah edilməsi" (**maddə 230**), "Qətnamənin icrasına möhlət verilməsi və ya onun hissə-hissə icra edilməsi, qətnamənin icra üsulunun və qaydasının dəyişdirilməsi" (**maddə 231**), "Ödənilməli pul məbləğlərinin indeksikasiyası" (**maddə 232**), "Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi" (**maddə 233**), "Qətnamənin icra edilməsi" (**maddə 234**), "Qətnamənin icrasının təmini" (**maddə 236**) və "İşdə iştirak edən şəxslərə qətnamələrin surətlərinin göndərilməsi" (**maddə 237**) adlı maddələri nəzərdə tutur);

b) **MPM-də ümumi hal kimi nəzərdə tutulan qətnamələr** (məsələn, xüsusi olaraq MPM-də "Hakimin qətnamə çıxarılması üçün müşavirə otağına getməsi" (**maddə 213**), "Qətnamənin elan edilməsi" (**maddə 214**), "Qətnamənin elan edilməsinin təxirə salınması" (**maddə 215**), "Qiyabi qətnamənin yolverilməzliyi" (**maddə 240**), "Qiyabi qətnamənin məzmunu" (**maddə 242**), "Qiyabi qətnamənin surətinin göndərilməsi" (**maddə 243**), "Qiyabi qətnamədən şikayət verilməsi" (**maddə 244**), "Qiyabi qətnamənin ləğvi haqqında ərizənin məzmunu" (**maddə 245**),

"Qiyabi qətnamənin ləğvi haqqında ərizədən imtina" (**maddə 246**), "Qiyabi qətnamənin ləğvi üçün əsaslar" (**maddə 250**), "Qiyabi qətnamənin qanuni qüvvəyə minməsi" (**maddə 252**), "Qiyabi icraat qaydasında qəbul edilmiş məhkəmə aktlarından şikayət verilməsi" (**maddə 253**), "Məhkəmənin ərizə üzrə qətnaməsi" (**maddə 311**), "Məhkəmənin ərizə üzrə qətnaməsi" (**maddə 315**), "Xəbərsiz itkin düşmüş hesab edilən şəxsin gəlməsinin və ya olduğu yerin aşkar edilməsinin nəticələri" (**maddə 316**), "Məhkəmənin ərizə üzrə qətnaməsi" (**maddə 321**), "Şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasının ləğv edilməsi və onun fəaliyyət qabiliyyətli hesab edilməsi" (**maddə 322**), "Məhkəminin ərizə üzrə qətnaməsi" (**maddə 326**), "Ərizə üzrə məhkəmənin qətnaməsi" (**maddə 333**), "Ərizə üzrə məhkəmənin qətnaməsi" (**maddə 341**), "Ərizə üzrə məhkəmənin qərarı" (**maddə 350**), "Ərizə üzrə məhkəmənin qətnaməsi" (**maddə 353**), "Məhkəmənin ərizə üzrə qətnaməsi" (**maddə 355-4**), "Qətnamənin çıxarılması və elan edilməsi" (**maddə 382**), "Məhkəmə qətnaməsinin apellyasiya qaydasında ləğv olunması üçün əsaslar" (**maddə 385**), "Məhkəmənin qətnamədə göstərdiyi dəlillərin işin hallarına uyğun olmaması" (**maddə 390**), "İcraata xitam verməklə və ya ərizəni baxılmamış saxlamaqla qətnamənin ləğv edilməsi" (**maddə 391**) və "Apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının ləğv edilməsinin əsasları" (**maddə 418**) adlı maddələr nəzərdə tutulmuşdur).

## II FƏSİL
### Qətnamənin çıxarılması və elan edilməsi

**Ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir.** MPM ilə başqa hal nəzərdə tutulmayıbsa, məhkəmədə mübahisəyə işdə iştirak edən şəxslər çağırılıb dindirilmədikdə baxıla bilməz. İşdə iştirak edən şəxslər öz tələblərini əsaslandırdıqları dəlillər, sübutlar və hüquqi nəticələr barədə bir-birlərinə məlumat verməyə borcludur ki, digər tərəf bunlara qarşı özünün müdafiəsini təşkil edə bilsin.

Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi



dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz (MPM-in 9-cu maddəsi).

**MPM-də həm birinci instansiya məhkəməsi tərəfindən qətnamənin çıxarılması və elan edilməsi, həm də apellyasiya instansiya məhkəməsi tərəfindən qətnamənin çıxarılması və elan edilməsi halı müstəqil normalarda öz əksini tapıb.**

Birinci instansiya məhkəməsi tərəfindən həm qətnamənin çıxarılması (maddə 213 və maddə 216), həm də qətnamənin elan edilməsi (maddə 214 və maddə 216) iki norma ilə müxtəlif anlamda müəyyən olunur[1].

Apellyasiya instansiya məhkəməsi tərəfindən qətnamənin çıxarılması və elan edilməsi (maddə 382) bir normada nəzərdə tutulub. Həmin normaya görə məhkəmə çıxışlarından sonra məhkəmə qətnamə çıxarmaq üçün müşavirə otağına gedir.

MPM-in 213-cü maddəsinə əsasən, iclas zalında iştirak edənlərə elan etməklə hakim, məhkəmə çıxışlarından sonra qətnamə çıxarmaq üçün müşavirə otağına gedir.

Həmçinin MPM-in 216.1-ci maddəsinə görə işi mahiyyəti üzrə həll edən birinci instansiya məhkəməsinin aktı qətnamə formasında çıxarılır.

Əslində "**qətnamənin çıxarılması**" termini bir qədər doğru seçilməmiş bir termindir. Hesab edirik ki, bu sözün əvəzinə "**qətnamənin qəbul edilməsi**" termini işlədilsəydi daha düzgün olardı[2].

MPM-in 216.2-ci maddəsinin tələbinə görə, **məhkəmə qətnaməni AR adından çıxarır**. Bu hal Konstitusiyada da öz əksini tapmışdır. Be-

---

[1] Apardığımız tədqiqatr işi ilə əlaqədar biz MPM-də nəzərdə tutulan normaları hər hansı bir xarici ölkənin MPM-i ilə müqayisə etmək qərarına gəldik. Belə bir ölkə kimi **Özbəkistan Respublikasını** seçdik. Müqayisəli tədqiqat üçün bax: **Özbəkistan Respublikasının** 30 avqust 1997-ci il tarixli, 477-I saylı MPM-in 203-cü, 205-ci və s. maddələrinə (www.lex.uz/Pages/GetAct.aspx?lact_id=186098).

[2] Bəzi xarici ölkələrin, o cümlədən **Mərakeş Krallığının** 28 sentyabr 1974-cü il tarixli, 1-74-447 saylı MPM-i "qətnamənin çıxarılması" terminini tanımır və bunun əvəzinə "qətnamənin qəbul edilməsi" terminini işlədir (bu barədə ətraflı məlumat üçün bax: www.wipo.int/wipolex/en/text.jsp?fi-le_id=200316). Lakin bəzi xarici ölkələrin, o cümlədən **Özbəkistan Respublikasının** MPM-də (maddə 203-cü, 205-ci və s.) bu hal məhz "qətnamənin çıxarılması" kimi nəzərdə tutulmuşdur (www.lex.uz/Pages-/GetAct.aspx?lact_id=186098).

lə ki, Konstitusiyanın 129-cu maddəsinin I hissəsinə əsasən, **məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır**.

Həmçinin "Məhkəmələr və hakimlər haqqında" AR Qanununun 5-ci maddəsinin 1-ci hissəsinə görə, **məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir**.

Qətnamənin dövlətin (AR-in) adından çıxarılmasına dair qeyd onun giriş hissəsində "**AR adından**" və yaxud buna yaxın sözün göstərilməsi ilə həyata keçirilə bilər. Lakin qeyd etməyi zəruri hesab edirik ki, MPM-də məhkəmə qətnaməsində onun dövlətin adından çıxarılmasına dair hər hansı bir qeyd nəzərdə tutulmayıb, hətta MPM-in 220-ci maddəsində nəzərdə tutulan qətnamənin giriş, təsviri, əsaslandırıcı və nəticə hissələrində belə bir qeydin aparılması da nəzərdə tutulmamışdır[1]. Apardığımız araşdırmanın nəticəsi kimi bildiririk ki, hazırda təcrübədə həm birinci, həm də apellyasiya instansiya məhkəmələri tərəfindən qəbul edilən qətnamələrin 95%-də "AR adından" sözü göstərilməkdədir. Bununla yanaşı təcrübədə bəzən məhkəmə qətnamələrinin giriş hissəsində onun AR adından çıxarılmasına dair hər hansı bir qeydin göstərilməməsinə də rast gəldik ki, bu da özlüyündə heç də normativ hüquqi aktın pozulması deyildir[2].

---

[1] **Türkiyə, Almaniya Federativ, Özbəkistan, Gürcüstan, Ukrayna Respublikalarının, Mərakeş Krallığının, Meksika** və **Rusiya Federasiyasının** müvafiq mülki prosessual məcəllələrində apardığımız uzun araşdırmanın nəticəsi olaraq müəyyən etdik ki, məhkəmə qətnaməsinin dövlətin adından çıxarılmasına dair qeydin qətnamədə göstərilməsi yalnız **Türkiyə Respublikasının** MPM-nin 297-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuşdur. Həmin normada belə bir ifadə göstərilmişdir: "Qətnamə "**Türk Milləti Adından**" qəbul olunur və bu ifadədən **sonra aşağıdakı** əlamətləri daşıyır:.. (bax: www.tbmm.gov.tr/kanunlar/k6100.html.)".

[2] Bu hal **Mərakeş Krallığının** MPM-in 50-ci **maddəsində də öz əksini** tapıb. **Belə** ki, normaya görə məhkəmə qətnaməsində onun "**Mərakeş krallığının** onun əlahəzrət Kralının adından" sözünün göstərilməsi vacibdir (www.wipo.int/wipolex/en/text.jsp?file_id=200316). Tədqiqat üçün **Almaniya Federativ Respublikasının** MPM-in 311-ci (bax: www.albookerk.ru/-g/vitrum/grazhdanskij_processualnyj_kodeks_frg_.html), **Türkiyə Respublikasının** MPM-in 297-ci maddələrinə diqqət yetirmək tövsiyyə olunur.



Qətnamə məhkəmə iclasında işə baxıldıqdan sonra hakim (hakimlər) tərəfindən ayrıca müşavirə otağında çıxarılır. İşə apellyasiya instansiya məhkəməsində baxıldıqda, qətnamə səs çoxluğu ilə qəbul olunur.

Qətnamə çıxarıldığı zaman müşavirə otağında yalnız işə baxan hakim, yaxud məhkəmə ola bilər. Başqa şəxsin müşavirə otağında olmasına yol verilmir (MPM-in 216.3-cü maddəsi)[1].

MPM-in 216.3-cü maddəsinin mətnindən müəyyən olunur ki, sözügedən maddə həm birinci instansiya məhkəməsi, həm də apellyasiya instansiya məhkəməsi tərəfindən qəbul edilən məhkəmə qətnamələrinə şamil edilir. Belə ki, normativ hüquqi aktın sözügedən normasına görə, qətnamə məhkəmə iclasında işə baxıldıqdan sonra hakimlərin ayrıca müşavirə otağında çıxarılır. İşə kollegial formada baxıldıqda, qətnamə səs çoxluğu ilə qəbul olunur.

**Müşavirə otağı dedikdə, MPM-də nəzərdə tutulduğu halda məhkəmə qərarının (qətnamə, qərardad (yalnız müstəqil akt şəkilində çıxarılanlar), əmr[2]) qəbul edilməsi üçün məhkəmə iclas zalından kənarda ayrıca, müstəqil və qapalı məkan başa düşülür.**

Müşavirə otağı elə bir vəziyyətdə olmalıdır ki, kənardan onun içi görsənməməli, kənardan gələn, eləcə də kənaraçıxan hər hansı bir səs eşidilməməlidir.

Müşavirə otağında yalnız hakim və hakimlər ola bilərlər ki, onların burada olması yalnız məhkəmə qərarının qəbul edilməsi ilə əlaqədar olmalıdır.

MPM-də nəzərdə tutulmasa da "Məhkəmələr və hakimlər haqqında" AR Qanununun 99-cu maddəsinə əsasən, müşavirə otağının sirrini qorumaq hakimin vəzifəsidir[3].

---

[1] Bu hal **Özbəkistan Respublikasının** MPM-in 404-cü maddəsində öz əksini tapıb (bax: www.lex.uz/Pages/GetAct.aspx?lact_id=186098).

[2] Bəzi hüquqşünaslar hesab edir ki, məhkəmə əmri müşavirə otağına getmədən çıxarılır. **Hesab edirik ki, MPM-də tam mənada nəzərdə tutulmasa da bütün hallarda müstəqil akt şəkilində qəbul olunan məhkəmə aktları müşavirə otağında qəbul olunmalıdır**.

[3] Bu barədə **Özbəkistan Respublikasının** MPM-də xüsusi olaraq "Məhkəmə müşavirəsinin sirri" adlı 204-cü maddə nəzərdə tutulmuşdur (bax: www.lex.uz/Pages/GetAct.aspx?lact_id=186098).

**Müşavirə otağının sirri dedikdə - hakimin (işə kollegial qaydada baxıldıqda hakimlərin) qərar qəbul edilməsi üçün müşavirə otağına daxil olmasından başlayaraq onların müşavirə otağından çıxana qədər baş vermiş hər bir hərəkətin, hadisənin qorunması başa düşülür**. Bura həmçinin qətnamə qəbul edilərkən həll edilən məsələlərdən tutmuş səsvermənin nəticələrinə qədər keçən müddətdə baş verən hadisələr də (hərəkətlər, danışıqlar və s.) aid edilir.

Məhkəmə qətnaməsinin elan edilməsindən və ya onun qanuni qüvvəyə minməsindən, yaxud digər hallardan asılı olmayaraq hakimlər müşavirə və səsvermə zamanı, habelə qulluq vəzifələrinin icrası başa çatanadək müşavirənin və səsvermənin gizliliyini saxlamağa borcludurlar (MPM-in 18.3-cü maddəsi).

Əslində biz **müşavirə otağının sirri** ilə **məhkəmə baxışının aşkarlığı** (MPM-in 10-cu maddəsi) arasında müəyyən bir ziddiyyətin olması qənaətindəyik. Belə ki, qanunvericilik özü hakimə müşavirə otağının sirrini qismən yaymaq kimi bir səlahiyyət vermişdir. Diqqət yetirin, müşavirə otağında hakim tərəfindən təkbaşına qəbul edilən hər bir qərar sonda məhkəmə iclasında açıq şəkildə elan olunur (MPM-in 10.11-ci maddəsi) və bununla da hakimin müşavirə otağında hansı fikirdə olması və yaxud hansı nəticəyə gəlməsi istiqamətində araşdırma aparması aydın olur. Eyni zamanda işə kollegial qaydada baxılan zaman bütün hakimlər tərəfindən qəbul edilən qərar da sonda açıq elan olunur ki, burada da müşavirə otağının sirrindən söhbət gedə bilməz. Bundan başqa xüsusi rəydə qalan hakimin xüsusi rəyi iş materiallarına əlavə olunur ki, bu da tərəfin hansı hakimin qərar çıxarılanda hansı fikirdə olmasını, eyni zamanda iş üzrə hansı nəticəyə gəlməsini öyrənməyə imkan yaradır[1]. Lakin bütün bunlara baxmayaraq müşavirə otağının sirrinin yayılmasının məhkəmədə baxılan işə və həmin iş üzrə iştirakçı olan tərəflərə hər hansı bir təsir göstərməməsini nəzərə alaraq **müşavirə otağının sirrini, eyni zamanda həmin sirrin qorunmasını əhəmiyyətsiz hesab edirik**. Onsuz da qanun hakimə iş üzrə əvvəlcədən münasibət bildirməyə icazə

[1] Təəssüflər olsun ki, MPM xüsusi rəyin açıqlanmasına məhdudiyyət qoyur ki, bunun da hansı əhəmiyyətə malik olması barədə bizdə bir məlumat yoxdur. Halbuki, AR Konstitusiya Məhkəməsinin, eləcə də Avropa İnsan Hüquqları Məhkəməsinin qərarların qəbulu zamanı xüsusi rəydə qalan hakimin rəyi qərarla birlikdə dərc olunur və iş üzrə maraqlı şəxslərə təqdim edilir.



vermir. Diqqətə çatdırırıq ki, mülki iş üzrə məhkəmə icraatında yalnız bir halda sirrin qorunmasına icazə verilməlidir ki, bu da MPM-in 10-cu maddəsində nəzərdə tutulan hallarda məhkəmə iclasının qapalı keçirilməsinə aiddir.

MPM-**in qətnamə çıxarıldığı zaman müşavirə otağında yalnız işə baxan hakimin (hakimlərin) olmasını nəzərdə tutmasını (maddə 216.3) düzgün hesab etmirik**[1]. Belə ki, hakim (hakimlər) iş üzrə yekun məhkəmə aktını (qətnaməni) həmin aktın çıxarılmasına qədər davam edən prosessual hərəkətləri rəsmiləşdirən məhkəmə iclas protokollarından istifadə etməklə qəbul edir. Bunun üçün **hakim (hakimlər) müşavirə otağına gedən zaman iş materialları ilə yanaşı iş üzrə məhkəmə iclas protokollarını da özləri ilə götürməlidir**. Lakin müşavirə otağında elə bir vəziyyət yaranması istisna deyil ki, hakim (hakimlər) tərəfindən məhkəmə iclas protokolunda hər hansı bir uyğunsuzluğun və yaxud aydınlaşdırılmalı bir hal aşkar edilməsin. Bu uyğunsuzluğun və yaxud aydınlaşdırılmanın daha dəqiq və daha düzgün həll edilməsi üçün isə həmin məhkəmə iclas protokolunu tərtib etmiş şəxsin (məhkəmə iclas katibinin və s.) iştirakı vacibdir. Bu səbəbdən hesab edirik ki, **hər bir halda müşavirə otağında hakimlə (hakimlərlə) yanaşı məhkəmə iclas protokolunu tərtib etmiş şəxsin (məhkəmə iclas katibinin və s.) iştirakı vacibdir və o, məhkəmənin qətnamə çıxarma prosedurunda məhkəmə iclas protokolunu tərtib etmiş şəxs kimi iştirak etməlidir**.

Müşavirə otağının sirrinin qorunmasına dair hakimin öhdəliyi onun bütün səlahiyyət müddəti ərzində qüvvədədir, yəni onun baxdığı iş üzrə qətnamə qanuni qüvvəyə mindikdən və hətta icra olunduqdan sonra da müşavirə otağının sirrinin yayılmasına səbəb olan hərəkətlərə yol verməsi qadağandır (MPM-in 18.3-cü maddəsi)[2]. Bu qadağa yalnız qanunda nəzərdə tutulduğu hallarda aradan qaldırıla bilər. Belə ki, ədalət mühakiməsini həyata keçirərkən hakimin və ya hakimlərin öz vəzifələrindən sui-istifadə halları və ya ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı onların əməllərində cinayət tərkibinin olması ilə əlaqədar ci-

[1] Baxmayaraq ki, bu hal əksər xarici ölkələrin, o cümlədən **Özbəkistan Respublikası**nın MPM-də nəzərdə tutulmamışdır (www.lex.uz/Pages/GetAct.aspx?lact_id=186098).

[2] Ətraflı məlumat üçün bax: "Məhkəmələr və hakimlər haqqında" AR Qanununun 99-cu maddəsinə.

nayət işinin ibtidai istintaqı və məhkəmə araşdırması zamanı cinayət işi üzrə həqiqəti aşkara çıxarmaqdan ötrü qətnamənin çıxarılmasında iştirak etmiş hakim şahid qismində dindirilə və ona müşavirə otağında həll edilməli olan məsələlər barəsində onun və ya digər hakimlərin hansı mövqedə olduğu haqqında suallar verilə bilər (CPM-in 95.2.4-cü maddəsi)[1].

Müşavirə otağında qətnamə çıxarılarkən həll edilməli olan məsələlər üzrə hakimlərin müzakirəsi protokollaşdırılmır və məhkəmə iclasının protokolunda yalnız qətnamənin çıxarılması üçün məhkəmənin müşavirə otağına getməsi və qətnamənin elan olunması haqqında məlumatlar göstərilir (MPM-in 271.2.4-cü maddəsi). Misal üçün, birinci instansiya məhkəməsinin məhkəmə iclas protokolunda aşağıdakı məzmunda qeyd aparılır:

**"...Sədrlik edən məhkəmə qətnaməsinin çıxarılması üçün müşavirə otağına gedir.**

**Sədrlik edən müşavirə otağından qayıdaraq məhkəmə qətnaməsini elan edir, onun məzmununu, ondan şikayət vermə müddətini və qaydasını izah edir."**

Əksəriyyətin qəbul etdiyi qərarla razılaşmayan hakimin rəyi işə əlavə olunur, lakin məhkəmə iclasında elan edilmir (MPM-in 18.2-ci maddəsi). Lakin xüsusi rəyin məhkəmə iclasında elan edilməməsi tərəflərin həmin rəylə tanış olmaq imkanından məhrum edilməsi anlamına gəlmir. Belə ki, iş üzrə tərəflər istənilən zaman ərizə (vəsatət) verməklə həmin xüsusi rəylə tanış olmaq hüququna malikdirlər[2].

---

[1] Bax: Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. C.H.Mövsümovun, B.C.Kərimovun və Ə.H.Hüseynovun redaktəsi ilə. "Digesta" nəşriyyatı. Bakı, 2010-cu il. Səhifə 270-273.

[2] Ümumiyyətlə xüsusi rəyin məhkəmə iclasında elan edilməməsi özlüyündə **qanunazidd** bir addımdır. Belə ki, iş üzrə hakimin gəldiyi yekun nəticə qəbul olunma forma və məzmunundan asılı olmayaraq məhkəmə qərarına xidmət etmiş bir hərəkətdir ki, bu da sonda rəsmi formada tərtib olunur. Bu isə MPM-in 10.11-ci maddəsinin tələbi çərçivəsində məhkəmə iclasında xüsusi rəydə qalan hakim tərəfindən açıq elan edilməlidir.



MPM-in 216.4-cü maddəsinə əsasən, müşavirədən sonra məhkəmənin iş üzrə qətnaməsi elan edilməlidir. Bu əlamət eyni zamanda MPM-in 214.1-ci maddəsində də öz əksini tapıb. Belə ki, qətnaməni qəbul etdikdən və imzaladıqdan sonra hakim məhkəmə iclası zalına qayıdır, qətnaməni elan edir, qətnamənin məzmununu, ondan şikayət etmə qaydası və müddətini izah edir (MPM-in 214.1-ci maddəsi).

Məhkəmə qətnaməsinin elan edilməsi onun müşavirə otağında qəbul edilməsindən sonra məhkəmə iclasında açıq elan edilməsindən ibarətdir. Bu hal hətta qapalı keçirilən məhkəmə iclasları nəticəsində qəbul olunan məhkəmə qətnaməsinə də şamil edilir.

İclas zalında olan bütün şəxslər (bura tərəflərlə yanaşı, hakim (hakimlər), məhkəmə iclas katibi, icra məmuru və s. şəxslər də daxildir) məhkəmə qətnaməsini ayaq üstə duraraq və sakit halda dinləyirlər[1].

Məhkəmə qətnaməsinin elan olunması zamanı elan edən şəxsin (hakimin) sözünü kəsmək və yaxud ona hər hansı bir şəkildə mane olmaq qadağandır. Lakin qətnamənin elanı zamanı məhkəmə iclasında tərcüməçi iştirak edirsə o zaman hakim qətnaməni hissə-hissə, yəni tərcüməçi tərəfə tərcümə etdikdən sonra elan etməli, hətta tərcüməçinin düzgün və dəqiq tərcümə etməsi üçün elan zamanı onun suallarına cavab verməlidir. Qeyd edək ki, belə bir hal MPM-də nəzərdə tutulmasa da təcrübədə bu haldan geniş istifadə olunur.

Qətnamənin imzalanması hakimin (hakimlərin) qətnamənin nəticə hissəsindən sonra qətnamə üzrə daşıdıqları vəzifə, ad və soyad yazılmış hissədə imza üçün ayrılmış müvafiq yerdə imza atmaqla və həmin imzanın təsdiqi kimi məhkəmənin möhürü ilə möhürlənməsindən sonra tərəfə verilə bilər[2].

Qətnamə işdə iştirak edən şəxslərin bilmədiyi dildə tərtib edildikdə, həmin qətnamə onlara məhkəmə iclasında iştirak edən tərcüməçinin iş-

---

[1] Hüquqşünas **R.Hacıyev** hesab edir ki, sağlamlıq durumu ilə bağlı ayaq üstə durmağa çətinlik çəkənlər, məhkəmənin icazəsi ilə qətnaməni oturub dinləyə bilərlər (Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə 261).

[2] Məhkəmə möhürünün vurulması qaydası AR Ədliyyə Nazirliyi Kollegiyasının 29 noyabr 2011-ci il tarixli, 3-N saylı qərarı ilə təsdiq edilmiş "Məhkəmələrdə kargüzarlığın aparılmasına dair" Təlimatda nəzərdə tutulmuşdur (www.e-qanun.az/print.php?internal=view&target=1&docid=22869&do-ctype=0).

tirakı ilə onların doğma dilində və yaxud onların bildikləri dildə oxunmalıdır (MPM-in 214.2-ci maddəsi).

**Qətnamə elan edildikdən sonra məhkəmə iclasında iştirak edən tərəflər məhkəmə qətnaməsinin məzmunu və yaxud nəticə hissəsi ilə bağlı hakimə sual verə bilərlər.** Bütün hallarda baxılan işin mahiyyətindən kənar olmayan verilən sullara hakim cavab verməlidir. Təcrübədə belə bir müsbət haldan bəzi hakimlərin istifadə etməsinə baxmayaraq təəssüf ki, hər hansı bir normativ hüquqi aktda bu barədə heç bir məlumat nəzərdə tutulmamışdır.

Qətnamədən şikayət vermə müddəti və qaydası ilə bağlı hakim (hakimlər) ilk növbədə qətnamədən şikayət vermə müddətinin başlanma və yaxud bitmə vaxtı barəsində, daha sonra şikayətin veriləbiləcəyi məhkəmə və s. hallar barədə məlumat verməlidir.

Hesab edirik ki, **MPM-də nəzərdə tutulmasa da hakim (hakimlər) məhkəmə qətnaməsinin gələcəkdə icrası edilməsi ilə bağlı onun göndəriləcəyi icra qrumunun adı və digər hallar barədə də tərəflərə məlumat verməsi daha əhəmiyyətli olar.**

Mürəkkəb işlər üzrə hakim ancaq qətnamənin nəticə hissəsini elan edə bilər (MPM-in 214.3-cü maddəsi). Nəticə hissəsini elan etməzdən əvvəl hakim qətnamənin giriş hissəsini mütləq şəkildə elan etməlidir ki, gələcəkdə bu sahədə hər hansı bir çətinlik meydana çıxmasın[1].

MPM-in 214.4-cü maddəsinə əsasən, qətnamənin elan edilmiş nəticə hissəsi yazılı formada tərtib edilməli, hakim və ya hakimlər tərəfindən imzalanmalı və işə əlavə edilməlidir[2]. Qətnamənin nəticə hissəsi elan edildikdən sonra sədrlik edən işdə iştirak edən şəxslərə və nümayəndələrə qətnamənin tam mətni ilə tanış olmanın vaxtını bildirməlidir.

Müstəsna hallarda xüsusilə mürəkkəb işlər üzrə qətnamə qəbul edildikdə, hakim qətnaməni və yaxud onun nəticə hissəsini məhkəmə baxışı qurtardıqdan sonra 3 gündən gec olmayaraq elan edə bilər (MPM-in 215-ci maddəsi).

---

[1] Qətnamənin nəticə hissəsi ilə bağlı bu kitabın V fəslində ətraflı tədqiqat aparmışıq və məsləhət görürük ki, həmin hissə ilə tanış olasınız.

[2] Təəssüf ki, bəzən təcrübədə elə hallara rast gəlinir ki, qətnamə tam tərtib edildikdən sonra iş materiallarına əlavə edilmiş qətnamənin nəticə hissəsi məhkəmə işçisi tərəfindən tam qətnamə ilə əvəz edilir və əvvəl elan edilmiş qətnamənin nəticə hissəsi iş materiallarından kənarda qalır.



Həmin müddəti hakim elə təyin etməlidir ki, təyin olunacaq son müddət iş günü hesab olunmayan günlərə düşməsin. Yəni həmin 3 günlük müddətin birinci, hətta birinci və ikinci günləri iş günü hesab edilməyən günlərə düşsə də sonuncu – üçüncü gün iş gününə düşməlidir. Bu zaman qəbul olunan qətnamənin qəbul olunma tarixi sonuncu gün hesab olunacaqdır.

Qeyd edək ki, MPM-də elə bir hal mövcuddur ki, qətnamə ilə həll olunan məsələ qətnamə əvəzinə "**qərar**" kimi nəzərdə tutulmuşdur. Belə ki, uşağın övladlığa götürülməsi haqqında övladlığa götürənlərin (götürənin) xahişinin təmin və ya rədd edilməsi haqqında birinci instansiya məhkəməsi tərəfindən qətnamə qəbul etdiyi halda bu MPM-in 350.1-ci maddəsində "**qərar**" kimi göstərilmişdir. MPM-in 350.1-ci maddəsinə əsasən, məhkəmə ərizəyə baxaraq, uşağın övladlığa götürülməsi haqqında övladlığa götürənlərin (götürənin) xahişinin təmin və ya rədd edilməsi haqqında **qərar** qəbul edir. Övladlığa götürmə haqqında xahişi təmin edərkən məhkəmə uşağı konkret şəxslər (şəxs) tərəfindən övladlığa götürülmüş hesab edir və qətnamədə övladlığa götürmənin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqanlarda qeyd edilməsi üçün zəruri olan övladlığa götürülən və övladlığa götürənlər (götürən) haqqında bütün məlumatları göstərir.

MPM-lə nəzərdə tutulmuş qətnamənin çıxarıldığı digər hallara aşağıdakılar aiddir:

a) "Əmlakın alınması və ya pul vəsaitlərinin tutulması haqqında qətnamə" (**maddə 222**);

b) "Cavabdehi müəyyən hərəkətləri etməyə məcbur edən qətnamə" (**maddə 223**);

c) "İcra və ya digər sənədlərin icra edilməməli hesab olunmasına dair qətnamə" (**maddə 224**);

ç) "Müqavilənin bağlanması və dəyişdirilməsi haqqında qətnamə" (**maddə 225**);

d) "Bir neçə iddiaçının xeyrinə və ya bir neçə cavabdehə qarşı çıxarılan qətnamə" (**maddə 226**);

e) "Əlavə qətnamə" (**maddə 229**);

ə) "Qiyabi icraat qaydası" (**maddə 241**);

f) hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsinə dair işlər üzrə "Məhkəmənin ərizə üzrə qətnaməsi" (**maddə 311**);

g) şəxsin xəbərsiz itgin düşmüş elan edilməsi və ölmüş elan edilməsinə dair işlər üzrə "Məhkəmənin ərizə üzrə qətnaməsi" (**maddə 315**);

ğ) "Xəbərsiz itkin düşmüş hesab edilən şəxsin gəlməsinin və ya olduğu yerin aşkar edilməsinin nəticələri" (**maddə 316**);

h) şəxsin məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyətli olmayan hesab edilməsinə dair işlər üzrə "Məhkəmənin ərizə üzrə qətnaməsi" (**maddə 321**);

x) "Şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasının ləğv edilməsi və onun fəaliyyət qabiliyyətli hesab edilməsi" (**maddə 322**);

ı) daşınar əşyaların sahibsiz hesab edilməsi və daşınmaz əşyalar üzərində dövlətin mülkiyyət hüququnun tanınmasına dair işlər üzrə "Məhkəminin ərizə üzrə qətnaməsi" (**maddə 326**);

i) itirlimiş sənədlər üzrə onları təqdim edən şəxsin hüquqlarının bərpa edilməsinə (çağırış icraatı) dair işlər üzrə "Ərizə üzrə məhkəmənin qətnaməsi" (**maddə 333**);

j) vətəndaşlıq vəziyyəti aktları qeydiyyatının düzgün olmamasının müəyyən edilməsinə dair işlər üzrə "Ərizə üzrə məhkəmənin qətnaməsi" (**maddə 341**);

k) uşağın övladlığa götürülməsinə dair işlər üzrə "Ərizə üzrə məhkəmənin qərarı" (**maddə 350**);

q) şəxsin narkoloji-tibb müəssisəsində məcburi yerləşdirilməsi barədə işlər üzrə icraata dair işlər üzrə "Ərizə üzrə məhkəmənin qətnaməsi" (**maddə 353**);

l) məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işlər üzrə icraata dair işlər üzrə "Məhkəmənin ərizə üzrə qətnaməsi" (**maddə 355-4**);

m) apellyasiya instansiya məhkəməsində icraat zamanı "Qətnamənin çıxarılması və elan edilməsi" (**maddə 382**);

n) "Məhkəmə qətnaməsinin apellyasiya qaydasında ləğv olunması üçün əsaslar" (**maddə 385**);

o) "Məhkəmənin qətnamədə göstərdiyi dəlillərin işin hallarına uyğun olmaması" (**maddə 390**);

ö) "İcraata xitam verməklə və ya ərizəni baxılmamış saxlamaqla qətnamənin ləğv edilməsi" (**maddə 391**).



## III FƏSİL
### Qətnamənin qanuniliyi və əsaslığı

Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada **məhkəmə müdafiəsindən istifadə etmək hüququ**na malikdir. Məhkəmə müdafiəsindən istifadə etmək istəyən **hər bir şəxs məhkəməyə müraciət hüququna malikdir**[1]. Bu müraciətin hüquqi nəticəsi kimi məhkəmə yekun akt qəbul edir ki, bu akt həm təmin, həm qismən təmin, həm də rədd baxımından mübahisənin mahiyyətini tam şəkildə həll etməlidir. Hər şeydən əvvəl isə bu akt qanuni və əsaslı olmalıdır.

Qətnamənin qanuniliyini və əsaslığı norma baxımından MPM-in 217-ci maddəsində öz əksini tapıb.

MPM-in 217.1-ci maddəsinin tələbinə görə, məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır. Belə bir oxşar müddəa eyni zamanda "Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumu Qərarında da nəzərdə tutulmuşdur. Sözügedən Qərarın 2.1-ci bəndinə əsasən, məhkəmələrin diqqəti AR MPM-in 217-ci maddəsinə əsasən qətnamənin qanuni və əsaslı tərtib olunması zəruriliyinə cəlb edilməsi qərara alınmışdır[2].

Məhkəmə qətnaməsinin qanuniliyi və əsaslılığı tam müxtəlif anlayış olmaqla yanaşı müxtəlif halları xarakterizə edirlər. Bunları birləşdirmək düzgün deyildir. Bu əlamətlərlə bağlı MPM-in özündə müəyyən maraqlı faktlar nəzərdə tutulmaqdadır. Məsələn, MPM-in 274.1-ci maddəsinə görə, protokola dair qeydlərə onu imzalamış hakim və ya iş üzrə sədrlik edən baxır, qeydlərlə razılaşarsa, onların düzgünlüyünü təsdiq edir, razılaşmadıqda isə onların tamamilə və ya qismən rədd edilməsinə dair **əsaslı** qərardad çıxarır.

Göründüyü kimi normativ hüquqi aktın sözügedən maddəsində hakim tərəfindən qəbul edilən qərardadın əsaslı olması vacib hal kimi vurğulanmaqla kifayətlənmişdir.

---

[1] Bax: Paşa Səfərov. Məhkəməyə müraciət hüququ və onun nəzəri problemləri. "Hüquqi dövlət və qanun" jurnalı. Bakı, 2009. Səhifə 22-24.

[2] Bax: www.supremecourt.gov.az/?mod=28cat=3015&id=233&c=7&lang=az-&-f=1.

Bundan başqa MPM-in 278.2.5-ci maddəsinə əsasən, tələbin əsaslılığını təsdiq edən sənədlər məhkəmə əmrinə əlavə edilməlidir. Burada qanunvericilik yalnız **əsaslığı** qəbul edir ki, bunu da ilk növbədə məhkəməyə müraciət etmiş şəxsin diqqətinə çatdırır.

Digər tərəfdən MPM qanunilik ilə əsaslılıq institutunu birgə şəkildə nəzərdə tutur. Belə ki, MPM-in 385.2-ci maddəsinin tələbinə görə, birinci instansiya məhkəməsinin faktlar nöqteyi-nəzərindən qanuni və əsaslı olan və mahiyyəti üzrə düzgün olan qətnaməsi yalnız formal mülahizələrə görə ləğv edilə bilməz.

Qanunvericilik məhkəmə qətnaməsinin qanuni və əsaslı olmasını xüsusilə vurğulayır. Buradan da aydın olur ki, normativ hüquqi akt məhkəmənin üzərinə qərarın qanuniliyini və əsaslılığını yoxlamaq kimi vəzifə qoyur.

Bu sahədə nəzəriyyədə müəyyən fikir ayrılığı mövcuddur. Belə ki, bir qrup hüquqşünaslar (məsələn, hüquqşünas F.Manafov) hesab edir ki, qətnamənin qanuniliyi və əsaslılığı onu xarakterizə edən müxtəlif anlayışlar olsa da, bu iki anlayış arasında sıx əlaqə mövcuddur. Belə ki, qətnamənin qanuniliyi eyni zamanda onun əsaslılığını özündə ehtiva edir, çünki qətnamənin əsaslı olması tələbi şərh olunan maddədə müəyyən edilmişdir. Qətnamənin əsassızlığı MPM-in 217.1-ci maddəsinin tələblərinin pozulması, yəni həmin qətnamənin qanunsuz olması deməkdir. Buradan belə nəticəyə gəlmək olur ki, əsassız qətnamə hər bir halda qanunsuzdur, qanunsuz qətnamə isə əsaslı və ya əsassız ola bilər (məsələn, iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətlərinə uyğun olan qətnamənin işə baxmaq hüququ olmayan hakim tərəfindən qəbul edilməsi və s.). Bu halda məhkəmənin qətnaməsi əsaslı, lakin qanunsuzdur[1].

Digər qrup hüquqşünaslar isə bu iki anlayış arasında müəyyən fikir ayrılığı görürlər.

Birinci qrup hüquqşünasların fikrinə münasibətdə qeyd etmək istəyirik ki, məhkəmə qətnaməsi əsaslı deyilsə demək qanuni də deyil, eyni zamanda qanuni olmayan qətnamə əsaslı da deyil. Hər bir halda bu iki

[1] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhifə 376-377.



haldan birinin pozulması yuxarı instansiya məhkəməsi tərəfindən həmin qətnamənin ləğvi deməkdir.

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumunun Qərarının 2.2-ci bəndinə əsasən, **məhkəmə qətnaməsi maddi və prosessual hüquq normalarına dəqiq əməl edilməklə qəbul edilməklə qəbul edildikdə qanuni hesab edilir**. AR MPM-in 13.4-cü maddəsinə müvafiq olaraq mübahisə edilən münasibəti tənzimləyən hüquq norması olmadıqda, məhkəmə oxşar münasibətləri tənzimləyən hüquq normalarını tətbiq edir. Belə normalar da olmadıqda, məhkəmə Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinə[1], presedent hüququna, mülki qanunvericiliyin prinsiplərinə istinad etməklə qətnamə qəbul etməyə haqlıdır[2].

Hüquqşünas **B.Əsədov**un fikrincə qətnamənin qanuniliyi onun maddi və prosessual hüquq normalarına əsasən qəbul edilməsi deməkdir[3].

MPM-in 217.2-ci maddəsinin tələbinə görə qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır[4].

**Beləliklə, qətnamənin qanuniliyi dedikdə, mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun olaraq qəbul olunmasıdır.**

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumu Qərarının 2.4-cü bəndinə əsasən, qətnamə o vaxt əsaslı hesab edilir ki, onda

[1] Bəzən məhkəmələr tərəfindən ölkədaxili qanunvericilikdə mübahisə edilən münasibəti tənzimləyən hüquq normasının olmasına baxmayaraq qətnamədə həmin hüquq norması ilə yanaşı Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsindən, qərarlarından sitat göstərirlər ki, bu da bəzi hü-quqşünaslar tərəfindən müsbət qarşılanmır. Hesab edirik ki, belə hallar əslində məhkəmə qətnaməsinin daha dolğun, daha əsaslı olmasına xidmət edir.

[2] Bax: www.echr.coe.int/ECHR/Homepage_EN.

[3] Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə 264.

[4] Əslində bu müddəa ilk dəfə olaraq "Qətnamə işin baxılması və həll olunması zamanı qüvvədə olan maddi və prosessual hüquq normalarına uyğun çıxarılmalıdır" kimi redaksiyada verilmiş, lakin sonradan AR-in 17 aprel 2007-ci il tarixli, 319-IIIQD saylı Qanunu ilə hazırki dəyişikliyə məruz qalmışdı.

baxılan iş üçün əhəmiyyətli olan, qanunun tələblərinə uyğun olaraq işə aid edilən və mötəbər sübutlarla təsdiq olunan faktlar əks etdirilmiş olsun, məhkəmənin iş üzrə müəyyən edilən faktlardan irəli gələn qəti nəticəsi onda şərh edilsin, habelə qətnamədə göstərilən hallar işin materiallarına uyğun olsun.

Məhkəmə icraatı işə baxılan və ayrı-ayrı prosessual hərəkətlər həyata keçirilən və yaxud məhkəmə aktı icra edilən zaman qüvvədə olan mülki prosessual qanuna (MPM - müəllif) əsasən aparılır (MPM-in 3.1-ci maddəsi).

Məhkəmə qətnamə çıxararkən MPM-in 217.2-ci maddəsinin tələblərinə mütləq şəkildə əməl etməklə, maddi və prosessual hüquq normalarının birgə şəkildə, eyni zamanda düzgün tətbiq etməlidir. Əks təqdirdə həmin birinci instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamə MPM-in 386-cı və 387-ci maddələrində nəzərdə tutulmuş hallarda apellyasiya instansiya məhkəmə tərəfindən, apellyasiya instansiya məhkəmə tərəfindən qəbul edilən qətnamə isə MPM-in 418-ci maddəsində nəzərdə tutulmuş hallarda kassasiya instansiya məhkəməsi tərəfindən ləğv edilə bilmək təhlükəsi ilə üzləşər.

MPM-in 217.3-cü maddəsinə əsasən, qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Biz qətnamənin əsaslığını aşağıdakı halların birgə şəkildə olması ilə əlaqələndiririk:

1) məhkəmənin iş üzrə gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki hallar aydınlaşdırılsın;

2) məhkəmə tərəfindən müəyyən edilmiş və iş üçün əhəmiyyətli olan hallar sübut olunsun;

3) qətnamədə göstərilən nəticələr işin faktiki hallarına uyğun gəlsin.

Beləliklə, **qətnamənin əsaslılığı dedikdə, iş üzrə müəyyən edilmiş halların, eləcə də tərəflərin irəli sürdükləri tələblərin hüquqi əsası kimi normativ hüquqi aktlara əsaslanması başa düşülür.**

Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır (MPM-in 217.4-cü maddəsi).



Məhkəmə qətnaməsinin qanuni və əsaslı olması ilk öncə onun gəldiyi nəticənin xeyrinə həll olunmuş tərəfin tələbinin və onun əsasını sübuta yetirilməsindən ibarətdir[1].

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumu Qərarının 3.1-ci bəndində AR MPM-in 217.4-cü maddəsində təsbit edilmiş bilavasitəlik prinsipi nəzərə alınmaqla qətnamə yalnız məhkəmə iclasında tədqiq edilmiş sübutlara əsaslanması məhkəmələrə izah edilmişdir.

Həmçinin Qərarın 3.2-ci maddəsinə görə, qətnamədə AR MPM-də göstərilən qaydalarda araşdırılmayan məlumatlara istinad edilməsinə yol verilmir.

MPM-in sözügedən (maddə 217.4) normasından müəyyən olunur ki, qətnamə qəbul edilərkən məhkəmə iclasında MPM-də göstərilən qaydalara əməl olunmaqla araşdırılmayan məlumatlara istinad edilməsinə yol verilmir.

**Məhkəmədən kənar baş vermiş hallar və toplanmış sübutlar işə baxan məhkəmə üçün həm məcburi xarakter, həm də tövsiyyə xarakteri daşıyır.**

**Məcburi xarakterli sübutlara** Konstitusiya Məhkəməsinin qərarında verilmiş AR-in Konstitusiyasının və qanunlarının şərhi (MPM-in 13.7-ci maddəsi) və cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü bu hərəkətlərin olub-olmaması və bu hərəkətlərin kim tərəfindən edilməsi məsələləri (MPM-in 82.4-cü maddəsi) və s. aiddir.

Məhkəmə tapşırığı əsasında toplanmış sübutlar (MPM-in 83-cü və 85-ci maddəsi), şahidin olduğu yerdə dindirilməsi ilə əlaqədar toplanmış sübutlar (MPM-in 105.2-ci maddəsi), yerində müayinə aparılması yolu ilə və ya işə baxılması təxirə salındıqda toplanan sübutlar (MPM-in 202-ci maddəsi), ekspertiza əsasında toplanmış sübutlar (MPM-in 97-103-cü maddələri), müvafiq icra hakimiyyəti orqanının məhkəmənin müraciəti əsasında verdiyi rəy üzrə toplanmış sübutlar (MPM-in 208-ci maddəsi), məhkəmədən kənar barışıq sazişinin təsdiq edilməsi ilə əlaqədar olaraq barışıq sazişi (MPM-in 52.5-ci maddəsi) işə baxan məhkəmə üçün **tövsiyyə xarakterli sübutlardır**.

[1] Lakin məhkəmə bu tələbdən kənara da çıxa bilər. Məsələn, nikahın pozulması tələbi ilə bağlı iddianı təmin edən hakim tələbdən asılı olmayaraq AM-in 22.2-ci maddəsində nəzərdə tutulan məsələləri qətnamədə həll etməli, onlar barədə gəldiyi nəticəni qanuna uyğun olaraq əsaslandırmalıdır.

Tövsiyyə xarakterli sübutlarla bağlı nəticəyə gələn hakim ilk növ-bədə həmin sübutları məhkəmə iclasında tərəflərin iştirakı ilə təd-qiq etməli, həmin sübutlarla bağlı tərəflərin münasibətini və irə-sürdükləri tələbləri araşdırmalıdır.

## IV FƏSİL
### Qətnamə çıxarıldıqda həll edilən məsələlər

MPM-in 218-ci maddəsi **qətnamə çıxarıldıqda həll edilən məsələlə-ri** əhatə edir[1]. Belə ki, MPM-in 218.1-ci maddəsinə əsasən, qətnamə çı-xarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyi-ni, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadı-ğını müəyyən edir.

Sözügedən normadan müəyyən olunur ki, **qətnamə çıxarılan zaman həll olunan məsələlərin əhatə dairəsi aşağıdakı mərhələlərdən iba-rətdir:**

**a) hakim tərəfindən sübutların qiymətləndirilməsi;**

**b) iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edilməsi;**

**c) iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edilməməsi**[2]**;**

**ç) tərəflərin hansı hüquqi münasibətdə olması;**

**d) həmin iş üzrə hansı qanunun tətbiq edilməli olmasını;**

**e) iddianın təmin olunub-olunmamasını.**

Sübutların qiymətləndirilməsi MPM-in 88-ci maddəsində nəzərdə tu-tulmuşdur. Normaya görə məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtə-rəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq nor-malarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

---

[1] Bu müddəa **Özbəkistan Respublikasının** MPM-in 205-ci maddəsində və "Məhkəmə qətnaməsi haqqında" **Özbəkistan Respublikasının** Ali Məhkəməsi Plenumunun 17 aprel 1998-ci il tarixli Qərarında da nəzərdə tutulub (www.lex.uz-/Pages/GetAct.aspx?lact_id=186098).

[2] Hüquq ədəbiyyatında çox zaman 2-ci və 3-cü hallar birgə nəzərdə tutulur.



Burada söhbət məhkəmədə baxılan iş üçün əhəmiyyətli olub-olmama-sından asılı olmayaraq tərəflər tərəfindən təqdim edilmiş, eləcə də məh-kəmənin öz təşəbbüsü ilə toplanmış sübutların qiymətləndirilməsindən gedir ki, məhkəmə həmin sübutları ilk növbədə məhkəmə iclasında tə-rəflərin iştirakı ilə tədqiq etməli və qiymətləndirməlidir. Qiymətləndir-mənin nəticəsi hakim tərəfindən açıqlanmır bu, hakimin (hakimlərin) is-təyindən asılı olaraq tam və qismən[1] məhkəmə qətnaməsində açıqlana bilər.

**Sübutların dairəsi** MPM-in 76.1-ci və 76.2-ci maddələrində, onların istifadəsinə qadağa qoyulmasıisə MPM-in 76.3-cü maddəsində nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, **sübutların qiymətləndirilməsi zamanı məhkəmə aşağıdakı hallara diqqət yetirməlidir:**

**a) qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə olunmasına yol verilmir (MPM-in 76.3-cü maddəsi);**

**b) hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir (MPM-in 77.1-ci maddəsi);**

**c) məhkəmə tərəfindən sübutların müayinəsi və tədqiqi işdə işti-rak edən şəxslərə məlumat verilməklə aparılır. Onların gəlməməsi müayinə və tədqiqatın aparılmasına mane olmur (MPM-in 79.2-ci maddəsi);**

**ç) məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qə-bul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır (MPM-in 80-ci maddəsi);**

**d) qanuna və ya digər normativ hüquqi aktlara əsasən müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübut-larla təsdiq oluna bilməz (MPM-in 81-ci maddəsi);**

**e) hamıya bəlli olan hallar və ya faktlar mübahisə edilə bilməz və onların sübuta ehtiyacı yoxdur (MPM-in 82.1-ci maddəsi);**

**ə) bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfin-dən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sü-but edilmir (MPM-in 82.3-cü maddəsi);**

---

[1] Hüquq ədəbiyyatında bəzi müəlliflər sübutların qiymətləndirilməsinin məh-kəmə qətnaməsində qismən açıqlanmasının əleyhinədirlər.

**f) cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü bu hərəkətlərin olub-olmaması və bu hərəkətlərin kim tərəfindən edilməsi məsələlərində mülki işə baxan məhkəmə və ya hakim üçün məcburidir (MPM-in 82.4-cü maddəsi).**

Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur dedikdə, bura məhkəmə iclasında tədqiq olunmamış sübuta tədqiqdən və qiymətləndirmədən öncə məhkəmə tərəfindən qiymət verilməsi başa düşülür.

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumu Qərarının 3.3-cü bəndinə görə, AR MPM-in 103.1-ci maddəsinə əsasən, digər sübutlar kimi ekspert rəyinin də əvvəlcədən müəyyən edilmiş heç bir məcburi qüvvəsi yoxdur. Ona görə də ekspert rəyində digər sübutlarla bərabər qiymət verilməli, ekspert rəyinin məhkəmə tərəfindən qəbul edilib-edilməməsi səbəbləri qətnamədə öz əksini tapmalıdır.

Sübutlar işdə iştirak edən şəxslər tərəfindən birinci instansiya məhkəməsinə təqdim edilir (MPM-in 78.1-ci maddəsi). Hakim iş üzrə toplanmış sübutları hər birinə ayrı-ayrılıqda, bəzən bir neçəsinə birlikdə və ya məcmu halında qiymətləndirərək həmin sübutlarda iş üçün nə dərəcədə əhəmiyyətli olan halları müəyyən edir. Bu hal apellyasiya instansiya məhkəməsinə də aiddir. "AR MPM-in 372-ci maddəsinin apellyasiya baxışının hədləri barədə müddəalarının həmin Məcəllənin 372.1 və 372.7-ci maddələrinin tələbləri baxımından şərh edilməsinə dair" AR Konstitusiya Məhkəməsinin 20 may 2011-ci il tarixli Qərarında göstərilir ki, apellyasiya instansiyasında işin faktiki halları tam həcmdə tədqiq olunur, birinci instansiya məhkəməsində olduğu kimi sübutların qiymətləndirilməsi üzrə eyni hərəkətlər aparılır.

İş üçün əhəmiyyətli olan hallar dedikdə nə başa düşülür?

Hüquqşünas **F.Manafov**un gəldiyi qənaətə görə iş üçün əhəmiyyətli olan hallar dedikdə, hər bir tərəfin öz tələblərinin və ya etirazlarının əsası kimi istinad etdiyi və məhkəmə iclasında tədqiq olunmuş sübutlarla təsdiq və ya rədd olunan hallar başa düşülməlidir[1].

[1] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı. "Digesta" nəşriyyatı. 2010. Səhifə 381.



Digər hüquqşünas **B.Əsədov** isə hesab edir ki, ...iş üçün əhəmiyyəti olan və sübutetmə predmetinə daxil olan hallar maddi hüquq normalarına əsaslandığı üçün ilk növbədə mübahisəyə tətbiq edilməli qanun dürüst seçilməli, məhz onun normalarına müvafiq olaraq işin halları və sübutetmə predmeti müəyyənləşdirilməlidir[1].

Beləliklə, iş üçün əhəmiyyətli olan hallar dedikdə, iş üzrə tərəflər öz tələblərinin, xahişlərinin və ya etirazlarının hüquqi əsası kimi istinad etdikləri və qiymətləndirilməsi üçün məhkəməyə təqdim etdikləri sübutların məhkəmə tərəfindən tədqiqindən sonra iş üçün əhəmiyyətli hesab olunan detallar başa düşülür.

İş üçün əhəmiyyətli halların araşdırılaraq müəyyən edilməsi üçün məhkəmə tək tərəflərin məhkəməyə təqdim etdikləri sübutlarla kifayətlənməməlidir. Əslində MPM-in 14.2-ci maddəsinə əsasən, məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir. Lakin MPM-in 218.3-cü maddəsinin tələbi baxımından hakim iddia tələblərindən kənara çıxdığı hallarda həmin halların hüquqi əsası kimi öz təşəbbüsü və ya tapşırığı ilə əlavə sübutlar toplaya bilər.

Məhkəmə iş materiallarına əlavə edilmiş sübutları qiymətləndirdikdən sonra iş üçün əhəmiyyətli olan nə kimi halları müəyyən edir, digər qalan sübutlar isə iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edilməməsinə xidmət etmiş olur. Həmin sübutları tədqiq edən hakim həmin sübutları iş üçün əhəmiyyətli olan nə kimi halları müəyyən edilməyən hesab etdiyinə dair məhkəmə qətnaməsində ətraflı izah verməlidir.

Məhkəmə iş üzrə toplanmış sübutları qiymətləndirərək, iş üzrə əhəmiyyət kəsb edən nə kimi halların müəyyən edilib-edilmədiyini dəqiqləşdirməklə tərəflərin hansı hüquq münasibətində olduğunu müəyyən edir. Tərəflər arasındakı mübahisəli hüquq münasibətinin və onun ayrı-ayrı elementlərinin – hüquq münasibətinin predmetinin, subyektlərinin, məzmununun və s. müəyyən olunması isə həmin mübahisənin həll edilməsi üçün məhz hansı qanunun tətbiq edilməli olmasının müəyyənləşdirilməsini asanlaşdırır. Belə ki, tərəflər arasındakı mübahisəli hüquq münasibətləri mülki hüquq münasibəti olduqda mülki qanunvericilik, əmək hüquq münasibəti olduqda əmək qanunvericiliyi tətbiq olunur və s. Ya-

[1] Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı. "Patronat-S" şirkəti. 2003-cü il. Səhifə 265.

xud aralarında mübahisəli hüquq münasibəti mövcud olan subyektlər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar yaranmışdırsa, onda bu fəaliyyəti tənzim edən xüsusi qrup qanunvericilik aktları tətbiq edilir və s.[1].

Məhkəmə iş üzrə tərəflərin hansı növ hüquq münasibətdə olduğunu müəyyən, eyni zamanda onların məhkəməyə tələblərinin hüquqi əsası kimi təqdim etdikləri sübutarı tədqiq etdikdən sonra iş üzrə tərəflərin tələbləri, xahişləri və ya etirazları ilə bağlı hansı qanunun tətbiq edilməli olduğu haqqında məsələni həll etməlidir.

MPM-in 218.1-ci maddəsində nəzərdə tutulan "həmin iş üzrə hansı qanun tətbiq edilməli olduğunu" sözündəki qanun əslində ümumi anlamda verilmişdir. Yəni həmin "qanun" terminində qanunla yanaşı digər normativ hüquqi aktlar və normativ xarakterli hüquqi aktlar da başa düşülməlidir.

Tələb, xahiş və ya etirazla bağlı qanunun tətbiq edilməsi həmin sahə üzrə əhəmiyyətli və ya əhəmiyyətli olmayan halların hüquqi tövsifini nəzərdə tutur.

Məhkəmə qətnaməsində MPM-in 220-ci maddəsində müəyyən xüsusiyyətlər öz əksini tapmışdır ki, bununla bağlı bu kitabın IV fəsildə kifayət qədər məlumat vermişik. Lakin bildirməyi vacib hesab edirik ki, hüquqi tövsif zamanı məhkəmə iş üçün lazımi olan halların əsaslandırılması üçün istifadə olunan qanunun (normativ və normativ xarakterli hüquqi aktın) müvafiq normalarını (maddələrinin, bəndlərinin və s.) düzgün və dəqiq seçməli, seçilən hissəyə istinad etməli, yaranmış vəziyyətlə əlaqədar olaraq qanunun və hüququn analogiyasından, eyni zamanda xarici dövlətin qanununun tətbiqindən istifadə etməlidir[2].

Qeyd edək ki, təcrübədə hüququn və qanunun analogiyasından istifadə zamanı müəyyən uyğunsuzluqlar meydana çıxır ki, bu da hüquqi tövsifin düzgün olmamasına gətirib çıxarır[1]. Ümumiyyətlə hüquq ədəbiyyatında hansı hüquq sahəsi ilə bağlı analogiyadan istifadə olunması nəzərdə tutulursa o sahədə məhkəmə tövsif zamanı heç bir çətinliklə qarşılaşmamalıdır. Hətta qanunvericilik müəyyən hüquq sahəsində analogiyadan istifadəni nəzərdə tutmasa da (məsələn, CPM) və yaxud belə istifadəni qadağan etsə də (məsələn, İXM) yenə də prosessual və digər istisna hallarda hüququn və qanunun analogiyasından istifadə mümkündür. Məsələn, hüquqşünas **P.Səfərov** göstərir ki, ..."Normativ hüquqi aktlar haqqında" AR Konstitusiya Qanununun 13.5-ci maddəsinə əsasən, cinayət, inzibati xətalar və vergi qanunvericiliyində, məsuliyyətə cəlb olunma, hüquqların məhdudlaşdırılması və vəzifələrin müəyyən edilməsi hallarında hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilməz. Hesab edirik ki, inzibati xətalara dair işlər üzrə məhkəmə icraatı zamanı maddi və prosessual məsələlər baxımından məsuliyyətə cəlb olunma, hüquqların məhdudlaşdırılması və vəzifələrin müəyyən edilməsi halları istisna olunmaqla analogiyadan istifadə oluna bilər[2].

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumu Qərarının 6.5-ci bəndinə əsasən, qətnamənin əsaslandırıcı hissəsində məhkəmənin mübahisə edilən hüquq münasibəti barədə gəldiyi nəticə üçün əsas götürdüyü maddi hüquq normaları, istinad etdiyi qanun və ya digər normativ aktın adı, maddəsi, abzası, bəndi zəruri hallarda məsələlər barədə qərarları da göstərilməlidir.

MPM-in 13.1-ci maddəsinə əsasən, məhkəmə mübahisələri AR-in Konstitusiyasına, referendumla qəbul edilən hüquqi aktlara, qanunlara, AR Prezidentinin fərmanlarına, AR NK-in qərarlarına, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına, habelə AR-in tərəfdar olduğu beynəlxalq müqavilələrə əsasən həll edir.

AR Konstitusiyasının 151-ci maddəsinin tələbinə görə, tətbiq edilməli olan normativ hüquqi aktlarla (AR Konstitusiyası və referendumla qəbul edilmiş digər aktlar istisna olunmaqla) AR-in tərəfdar çıxdığı bey-

---

[1] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhifə 382.

[2] Bax: Paşa İbiş oğlu Səfərov. Qanunun və hüququn analogiyası (məhkəmə təcrübəsi: qanunun və hüququn analogiyasının məhkəmələr tərəfindən tətbiqi). "Paritet" qəzeti, 24-25 noyabr 2011-ci il, №124 (1706). Səhifə 13.

[1] Bax: Paşa İbiş oğlu Səfərov. Qanunun və hüququn analogiyası (məhkəmə təcrübəsi: qanunun və hüququn analogiyasının məhkəmələr tərəfindən tətbiqi). "Paritet" qəzeti, 24-25 noyabr 2011-ci il, №124 (1706). Səhifə 13.

[2] Ətraflı məlumat üçün bax: Paşa İbiş oğlu Səfərov. İnzibati xətalara dair işlər ... (şərhlər). Bakı, "Digesta" nəşriyyatı, 2012. Səhifə 62.

nəlxalq dövlətlərarası müqavilələr arasında ziddiyyət olduqda, məhkəmə işin həll edilməsi üçün beynəlxalq müqavilələri tətbiq etməlidir (əlavə olaraq bax: MPM-in 13.3-cü maddəsinə).

AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə prosessual qanunvericilikdən fərqli qaydalar müəyyən edilərsə, beynəlxalq müqavilənin qaydaları tətbiq edilir (MPM-in 1.5-ci maddəsi).

Məhkəmə işə baxarkən normativ hüquqi aktlar arasında ziddiyyət aşkar edərsə, o, daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi akt əsasında qərar qəbul edir (MPM-in 13.2-ci maddəsi).

Həmçinin məhkəmə yaranmış vəziyyələ əlaqədar olaraq "Normativ hüquqi aktlar haqqında" AR-in Konstitusiya Qanununun 2-ci maddəsinin tələblərini də nəzərə almalıdır.

MPM-in 218.1-ci maddəsinə görə, qətnamə çıxarıldıqda həll edilən məsələlərdən sonuncusu iddianın təmin olunub-olunmamasıdır.

Əslində sözügedən normada "iddianın təmin olunub-olunmaması" sözü əvəzinə "iddianın təmin və ya qismən təmin, yaxud rədd olunması" sözü işlənsəydi daha düzgün olardı[1].

İddianın təmin və ya qismən təmin, yaxud rədd olunması qətnamənin nəticə hissəsinə birbaşa göstərilir. Belə ki, MPM-in 220.5-ci maddəsinə əsasən, qətnamənin nəticə hissəsində iddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin hansı nəticəyə gəldiyi göstərilməlidir[2].

Bəzi hüquqşünaslar hesab edir ki, MPM-in 213-cü maddəsinə görə, hakim məhkəmə çıxışlarından sonra qətnamə çıxarmaq üçün müşavirə otağına getsə də, bu, o demək deyil ki, hakim müşavirə otağından qayıtdıqdan sonra qətnaməni elan etməlidir. Qətnamə çıxarıldıqdan həll edilməli olan məsələlərin müşavirə otağında müzakirəsi (nəzərdən keçirilməsi) nəticəsində hakim və ya məhkəmə tərkibinə daxil olan hakimlər işin mahiyyəti üzrə yekun nəticəyə gəlmək üçün: a) iş üzrə əhəmiyyətli olan yeni halların aydınlaşdırılmasının və ya b) əlavə sübutların tədqiq edilməsinin zəruri olduğu qənaətinə gəldikdə müşavirə otağındakı müzakirənin nəticəsi üzrə qətnamə deyil, məhkəmə iclasının təzələnməsi haqqında qərardad çıxarılır (MPM-in 218.2-ci maddəsi)[1].

Hüquqşünas **B.Əsədov** da eyni mövqedədir. Müəllifə görə, məhkəmənin müşavirə otağına getməsi heç də o demək deyildir ki, o, hökmən qətnamə qəbul etməklə oradan geri qayıtmalıdır. Müşavirə otağında elə suallar meydana çıxa bilər ki, həmin suallara məhkəmə iclasında əlavə araşdırmalar aparmaqla cavablar almaq olar. Bu baxımdan mülki-prosessual qanunvericilikdə məhkəmə iclasının təzələnməsi institutu müəyyən edilmişdir. Belə zərurət yarandıqda məhkəmə müşavirə otağında məhkəmə iclasının təzələnməsi haqqında qərardad qəbul edir[2].

Doğrusu MPM-də belə bir qayda və ya müddəa nəzərdə tutulmamışdır. Lakin 218.2-cü maddənin məhz MPM-in 218-ci maddəsinin tərkibində yerləşməsi və maddənin "Qətnamə çıxarılarkən həll edilən məsələlər" adlanması özlüyündə hakimə qətnamə çıxarmaq üçün müşavirə otağında işin təzələnməsi barədə qərardad qəbul etməyə imkan verir.

Hesab edirik ki, bu doğru nəticə deyil. Çünki hakim sübutları məhz məhkəmə iclasında tədqiq etməli və qiymətləndirməlidir. Məhkəmə iclasından kənarda, eləcədə məhkəmə istintaqı qurtardıqdan və tərəflər çıxış etdikdən sonra məhkəmənin belə bir fikrə düşməsi hesab edirik ki, düzgün yanaşma deyil.

Müşavirə otağında hakimə müəyən hallar məlum olsa da o, məhkəmə iclasını təzələməməli və bu səlahiyyət, eləcə də yenidən araşdırma hüququ yuxarı instansiya məhkəməsinə aid edilməlidir.

MPM-in 218.2-ci maddəsinə əsasən, hakim, işə əhəmiyyəti olan yeni halları aydınlaşdırmağı və ya əlavə sübutları tədqiq etməyi zəruri hesab edərsə, məhkəmə iclasının təzələnməsi haqqında qərardad çıxarır. İşə mahiyyəti üzrə baxılması başa çatdıqdan sonra hakim yenidən tərəflərin çıxışlarını dinləyir[3].

---

[1] Hesab edirik ki, yaxın zamanda qanunvericilikdə belə bir dəyişikliyin olması zəruridir.

[2] Bu barədə biz kitabın IV Fəslində qətnamənin nəticə hissəsi ilə bağlı araşdırmamızda kifayət qədər məlumat vermişik.

[1] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhifə 383.

[2] Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə 265.

[3] Bu əlamət **Özbəkistan Respublikasının** MPM-in 205-ci maddəsinin 3-cü abzasında öz əksini tapıb.

Doğrusu MPM-də müşavirə otağında işə baxılmanın təzələnməsinə dair qərardad qəbul edilməsi ilə bağlı bir qayda və ya müddəa nəzərdə tutulmamışdır. Lakin 218.2-ci maddənin məhz MPM-in 218-ci ("Qətnamə çıxarıldıqda həll edilən məsələlər") maddənin tərkibində yerləşməsi və həmin maddənin "Qətnamə çıxarılarkən həll edilən məsələlər" adlanması özlüyündə hakimə qətnamə çıxarmaq üçün müşavirə otağında işin təzələnməsi barədə qərardad qəbul etməyə imkan verir. Bundan əlavə MPM (maddə 212) hakimə bir səlahiyyət də verir ki, bu da məhkəmə çıxışları zamanı və bundan sonra mahiyyəti üzrə işə baxılmasının təzələnməsi ilə bağlıdır.

Hesab edirik ki, bu şəxsin məhkəməyə müraciət hüququnun araşdırılmasında şəxsin məhkəmə müdafiəsi hüququndan istifadənin ləngidilməsidir. Çünki hakim sübutları məhz məhkəmə iclasında tədqiq etməli və qiymətləndirməlidir. Məhkəmə iclasından kənarda, eləcədə məhkəmə istintaqı qurtardıqdan və tərəflər çıxış etdikdən sonra məhkəmənin belə bir fikrə düşməsi hesab edirik ki, düzgün yanaşma deyil.

Müşavirə otağında hakimə müəyyən hallar məlum olsa da o, məhkəmə iclasını təzələməməli və bu səlahiyyət, eləcə də yenidən araşdırma hüququ yuxarı instansiya məhkəməsinə aid edilməlidir.

Bəzi hüquqşünaslar hesab edirlər ki, əgər hakim yekun məhkəmə aktını çıxarmaq üçün müşavirə otağına gedənə qədər hesab edərsə ki, iş… əhəmiyyəti olan yeni halları aydınlaşdırmağa və ya əlavə sübutları tədqiq etməyi zəruri hesab edərsə o zaman "işin təzələnməsi haqqında" qərardad növünü qəbul edir. Həmin qərardad müstəqil akt şəklində tərtib olunmayan qərardad növünə aid olub müşavirə otağına getmədən məhkəmə iclasında çıxarılır və həmin qərardadın qəbul edilməsinin zəruriliyi və həmin qərardaddan sonra ediləcək prosessual hərəkətlər məhkəmə iclas protokolunda əhatəli şəkildə göstərilməlidir[1].

Hesab edirik ki, bu düzgün nəticədir.

Hüquqşünas **F.Manafov** da hesab edir ki, MPM-in 218.2-ci maddəsində göstərilən əsaslardan hər hansı biri mövcud olduqda məhkəmə iclasının təzələnməsi haqqında qərardad çıxarılır. Həmin qərardadda iş üçün əhəmiyyəti olan məhz hansı yeni halların aydınlaşdırılmasının və

[1] Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə 265.



ya hansı əlavə sübutların tədqiq olunmasının zəruriliyi əsaslandırılmalıdır. Bu qərardaddan şikayət verilə bilməz[1].

Əfsuslar olsun ki, müəllifin bu nəticəsi ilə razılaşmaq niyyətində deyilik. Belə ki, MPM-də nəzərdə tutulan qərardadlar, ya müstəqil akt şəklində tərtib olunan, ya da ki, müstəqil akt şəkilində tərtib olunmayan (məhkəmə iclas protokoluna qeyd olunan) kateqoriyasına bölünürlər. Müstəqil akt şəkilində tərtib olunan qərardadlar müşavirə otağında qəbul olunan qərardadlardır ki, bunlardan da qanuna uyğun şəkildə şikayət müddəti və qaydası nəzərdə tutulur (məsələn, MPM-in 226-cı maddəsinə görə, etiraz etmə və ya öz-özünə etiraz etmə məsələləri barədə məhkəmə qərardad çıxarır ki, bundan da şikayət verilməsinə yol verilmir). Qalan bütün hallarda müşavirə otağında qəbul olunan qərardadlardan şikayət hüququ mövcud olur (baxmayaraq ki, hakim nüşavirə otağına məhz qərardad çıxarmaq üçün getməyib, lakin o, gələcəkdə belə bir halın baş verməsini mümkün hesab etməli və çıxışlar bitdikdən sonra müşavirə otağına getməmişdən əvvəl son dəfə iş materiallarını araşdırıb belə bir ehtimalın olub-olmamasına əmin olmalıdır).

Şikayət hüququnun mövcud olması isə həmin işin uzanması və digər gecikmələrə və buna bənzər hallara şərait yaratması deməkdir[2].

Məhkəmə işə mahiyyəti üzrə baxmağı qurtardıqdan sonra MPM-in 209-211-ci maddələrində nəzərdə tutulmuş qaydada məhkəmə çıxışlarını yenidən dinləyir və çıxışlardan sonra iclas zalında iştirak edənlərə elan etməklə qətnamə çıxarmaq üçün yenidən müşavirə otağına gedir. Müşavirə otağında MPM-in 218.1-ci maddəsində göstərilən məsələlər bir daha müzakirə olunmalı, zərurət yaranarsa məhkəmə yenidən MPM-in 218.2-ci maddəsində nəzərdə tutulan halda məhkəmə iclasının təzələnməsi barədə qərardad qəbul etməlidir[3].

[1] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhifə 384.

[2] Ətraflı məlumat üçün bax: Paşa İbiş oğlu Səfərov. Mülki işlər üzrə məhkəmə qərardadları (nümunələrlə). Bakı, "Digesta" nəşriyyatı, 2012. 152 səhifə.

[3] MPM-də bu prosesin neçə dəfə baş verməsinə dair məhdudiyyət nəzərdə tutulmadığından hakim istədiyi qədər müşavirə otağında məhkəmə iclasının təzələnməsi barədə qərardad qəbul edə bilər.

İddiaçının (ərizəçinin) iddia ərizəsi (ərizəsi) məhkəmənin icraatına daxil olduqda ilkin mərhələ kimi məhkəmədə ərizə ilə bağlı iş açılır, lakin bu hələ tam işin başlanması deyil. Doğrudur, qanunvericiliyin 5.1-ci maddənin tələbinə görə, hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır. Lakin buna baxmayaraq qeyd etməliyik ki, məhkəmənin dəftərxanası tərəfindən müvafiq nömrə verilmiş və iş açılmış iddia ərizəsi (ərizə) iki həftə ərzində hakim tərəfindən geri qaytarıla (MPM-in 152-ci və 153-cü maddələri) bilər. Əgər hakim onun icraatına verilmiş iddia ərizəsi (ərizə) üzrə icraata qəbul edilmə barədə qərardad (MPM-in 151-ci maddəsin) qəbul edib, iş üzrə müvafiq hazırlıq iclasının vaxtı və yerini təyin edib və bu barədə tərəflərə məhkəmə bildirişi göndərdikdən sonra məhkəmədə iş başlamış olur.

Təbii ki, hakim həmin işin yekun nəticəsi kimi iddianın (MPM-in 5.1-ci maddəsi), eyni zamanda əlavə iddianın (MPM-in 53-cü maddəsi) həmçinin qarşılıqlı iddianın (MPM-in 155-ci maddəsi) əsasında yekun məhkəmə aktı kimi qətnamə qəbul edir (MPM-in 218.3-cü maddəsi).

**MPM-in 218.3-cü maddəsinə əsasən, hakim işdə iştirak edən şəxslərin verdiyi tələblər üzrə qətnamə çıxarır. Lakin hakim qanunda göstərilən müstəsna hallarda iddia tələblərindən kənara çıxa bilər.**

Qanunda göstərilən müstəsna hallarda iddia tələblərindən kənara çıxa bilmə hüquqşünaslar tərəfindən müxtəlif anlamlarda qəbul edilir. Məsələn hüquqşünas **F.Manafov** hesab edir ki, bu normanın (MPM-in 218.3-cü maddəsinin) mahiyyəti ondan ibarətdir ki, məhkəmə iddianı əsaslı hesab etdikdə onu məhz iddiaçının iddia ərizəsində göstərdiyi həcmdə yəni ondan kənara çıxmamaqla təmin etməlidir[1].

Hüquqşünas **B.Əsədov** isə belə qənaətdədir ki, məhkəmə iddia tələbindən bu şərtlə kənara çıxa bilər ki, bu iddianın predmetinin dəyişməsinə səbəb olmasın[2].

---

[1] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhifə 384.

[2] Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə 266.

İddia tələbindən kənara çıxmaq heç də həmişə iddianın həcminin artırılması ilə ifadə olunmur. Məsələn, "Aztelekom" İB-nin şikayəti ilə əlaqədar AR Konstitusiya Məhkəməsinin 12 iyul 2004-cü il tarixli qərarında göstərilmişdir ki, **apellyasiya instansiya məhkəməsinin iddia ərizəsində göstərilməyən predmet üzrə qətnamə çıxarması iddia tələblərindən kənara çıxma kimi qiymətləndirilməlidir[1].**

Həmçinin sözügedən Qərarda müəyyən edilmişdir ki, birinci instansiya məhkəməsi iddiadan kənara çıxaraq qətnamə çıxarmışdır.

Məhkəmə daha sonra Qərarında müəyyən etmişdir ki, ...apellyasiya instansiyası məhkəməsi iş üzrə qərar qəbul edərkən öz təşəbbüsü əsasında iddianın predmetini dəyişdirmiş və bununla da Konstitusiyanın 60-cı maddəsində təsbir olunmuş hüquq və azadlıqların məhkəmə müdafiəsi hüququnun təmin edilməsinin əsas prinsiplərindən olan çəkişmə prinsipini pozmuş, MPM-də müəyyən edilən işə baxılmanın həddini aşmışdır. Bu isə Konstitusiyanın 127-ci maddəsinin VII hissəsinin, MPM-in 9-cu və 372-ci maddəsinin tələblərinə cavab verməyən qətnamənin qəbul edilməsinə səbəb olmuşdur.

Əslində hakim iddia tələbindən kənara çıxmaqla iddia tələbini tam və ya qismən təmin edə bilər. "AR MPM-in 372-ci maddəsinin apellyasiya baxışının hədləri barədə müddəalarının həmin Məcəllənin 372.1 və 372.7-ci maddələrinin tələbləri baxımından şərh edilməsinə dair" AR Konstitusiya Məhkəməsinin 20 may 2011-ci il tarixli Qərarında göstərilmişdir ki, apellyasiya instansiyası məhkəməsi qanunçuluğun maraqlarına uyğun olaraq şikayətin dəlillərindən kənara çıxa bilər. Qanunçuluğun maraqları dedikdə, baxılan iş üzrə maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunması başa düşülməlidir.

Əslində qanunvericilikdə məhkəmənin iddia tələbindən kənara çıxması halını tanıyaraq hakimə qanunda göstərilən müstəsna hallarda iddia tələblərindən kənara çıxa bilmək kimi bir səlahiyyət verir. Qanunvericilikdə elə məsələlər var ki, məhz o məsələlər üzrə qərar qəbul edilməsi hakimi istəyindən asılı olmayaraq iddia tələbindən kənara çıxmağa məcbur edir. Bu səlahiyyətindən istifadə edərək hakim iddia tələbindən kənara çıxır. Hakimin iddia tələbindən kənara çıxması o halda əsaslı və

---

[1] Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin (Konstitusiya Məhkəməsinin Plenumunun) qərarları. Bakı, "Digesta" nəşriyyatı. 2010. Səhifə 478; www.constcourt.gov.az/decisions/.

qanuni hesab oluna bilər ki, bu çıxma nəticəsində qəbul olunan nəti iddiaçının xeyrinə olsun. İddiaçının xeyrinə olmasa belə iddia tələbini tamlığına və gələcəkdə iddianın hansısa bir hissəsini və ona yaxın halla rı mübahisələndirilməməsinə xidmət etməlidir.

Müstəsna hallar həm qanunda göstərilən, həm də qanunda göstərilmə yən ola bilər. Qanunda göstərilən müstəsna hala misal üçün nikahın po zulması ilə bağlı iddia tələbini göstərə bilərik. Belə ki, nikahın pozul ması haqqında iddia ərizələrinə baxarkən iddia ərizəsinin tələb hissəsin də göstərilib-göstərilməməsindən asılı olmayaraq məhkəmə öz qətnə məsində nikahın pozulmasından sonra yetkinlik yaşına çatmayan uşağın (uşaqların) valideynlərindən hansının yanında qalmasına və ya uşaqla üçün alimentin kimdən və hansı miqdarda tutulmasını və s. məsələlər həll etməlidir (AM-in 22-ci maddəsi).

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumu Qərarının 3.5-ci bəndinə görə MPM-in 218.3-cü maddəsinə əsasən, hakim (məhkəmə tərkibi) işdə iştirak edən şəxslərin verdiyi tələblər üzrə qət namə çıxarır. Lakin hakim (məhkəmə tərkibi) qanunda göstərilən müs təsna hallarda iddia tələblərindən kənara çıxa bilər. Bu zaman hakim qətnamədə istinad etdiyi qanunu göstərməli və müstəsnalığın nədən ibarət olmasını əsaslandırmalıdır.

Məhkəmə qəbul etdiyi qərarları tərəfləri müzakirəyə dəvət etmədən öz mövqeyini sərbəst şəkildə irəli sürdüyü hüquqi dəlillərə və ya hakimlərin hüquq düşüncəsi ilə əsaslandıra bilməz ("Aztelekom" İB-nin şikayəti ilə əlaqədar AR Konstitusiya Məhkəməsinin 12 iyul 2004-cü il tarixli qərarı).

Müstəsna hal kimi nəzərdə tutulmasa belə işə baxan hakim (hakimlər) hesab edərsə ki, iş üzrə yekun məhkəmə qərarının çıxarılması üçün və iş üzrə təqdim olunan sübutların tədqiq və qiymətləndirilməsinin nəticəsi kimi iddia tələbindən kənara çıxmağa ehtiyac var, o halda bu kənara çıxmanı qanuni və əsaslı şəkildə əsalandırmaqla həyata keçirə bilər.



## V FƏSİL
### Qətnamənin tərtib olunması və məzmunu

Hər bir fiziki və ya hüquqi şəxsin digər şəxslər tərəfindən hüquqları pozulduğu hallarda və ya bu hüquqların gələcəkdə pozulmasına təhlükə yarandığı və pozulmuş hüququn könüllü olaraq bərpa olunmasından imtina edildiyi hallarda vəzifəli tərəfə (cavabdehə) qarşı, yaxud bu hüququn gələcəkdə müdafiəsi və qorunması naminə müəyyən **müdafiə tədbirlərinin tətbiqi** zərurəti yaranır[1].

Bu müdafiə tədbirlərindən biri də **ədalətli məhkəmə araşdırması hüququnun** əsas elementlərindən biri olan **məhkəməyə müraciət hüququdur**[2].

**Məhkəmə müraciət hüququnun yekun nəticəsi kimi məhkəmə tərəfindən qəbul edilən aktlardan biri olan qətnamənin tərtibi və onun məzmunu gələcəkdə şəxsin təkrar məhkəməyə müraciət hüququndan istifadə etməsinə zərurət yaranmaması üçün olduqca mühüm əlamətə malikdir.**

MPM-də qətnamənin tərtib olunması halı əsaslandırılmış qətnaməyə nisbətdə yalnız birinci instansiya məhkəməsi üçün (MPM-in 219-cu maddəsi), hissəvi qətnaməyə (qətnamənin nəticə hissəsinə) nisbətdə həm birinci, həm də apellyasiya instansiya məhkəməsi üçün (MPM-in 214.4-cü maddəsi), qətnamənin məzmunu isə həm birinci (MPM-in 220-ci maddəsi), həm də apellyasiya instansiya məhkəməsi üçün (MPM-in 392-ci maddəsi) müstəqil norma kimi nəzərdə tutulmuşdur.

Qətnamə sədrlik edən (birinci instansiya məhkəməsində məhkəmə iclasına sədrlik edən hakim) və yaxud işə kollegial qaydada baxıldıqda

---

[1] Bax: Paşa Səfərov. Məhkəməyə müraciət hüququ və onun nəzəri problemləri. "Hüquqi dövlət və qanun" jurnalı. 2009-cu il, №9. Səhifə 22; Paşa Səfərov. Məhkəməyə müraciət hüququ və onun nəzəri problemləri. "Paritet" qəzeti. 28-29 iyul 2009-cu il, №80. Səhifə 14-15; Paşa Səfərov. Məhkəməyə müraciət hüququ və onun nəzəri problemləri. "Korrupsiya və bəşəriyyət" qəzeti. 6-13 oktyabr 2009-cu il, №03 (03). Səhifə 14-15; Pasha Safarov. Right to petition the court and its theoretical problems in Azerbaijan Republic. 120.126.142.101/lawrojs/index.php/main/authot/sub-missionReview/104.

[2] "**Delkurin Belçikaya qarşı**" işi üzrə Avropa İnsan Hüquqları Məhkəməsi qərara almışdır ki, "müvafiq şəxsin məhkəməyə müraciət hüququnun (və imkanının) olması", "ədalətli məhkəmə araşdırması hüququ"nun elementlərindən biridir.

(apellyasiya instansiya məhkəməsində) hakimlərin biri tərəfindən ya suratdə tərtib edilir (MPM-in 219.1-ci maddəsi).

İşə hansı məhkəmə tərəfindən (rayon (şəhər), inzibati-iqtisadi, apellyasiya) baxılmağından, hansı tərkib (bir və ya üç hakim) tərəfindən baxılmağından asılı olmayaraq qəbul edilən **qətnamə yazılı formada tərtib olunmalıdır**.

MPM-də məhkəmə qətnaməsinin hansı yazılı formada (əlyazma, kompyuter və s.) tərtib olunmasına dair hər hansı bir göstəriş nəzərdə tutulmamışdır.

Hesab edirik ki, məhkəmə qətnaməsi tərtib edilmə şəraitindən və imkanından asılı olmayaraq yalnız yazılı formada hazırlanmalıdır. Bu mənada məhkəmə qətnaməsi həm əlyazma ilə, həm də kompyuterdən və ya digər köməkçi vasitələrdən (yazı makinası və s.) istifadə etməklə tərtib oluna bilər.

Əslində qətnamənin yazılı formada tərtib olunması dedikdə, tək onun kağız üzərində mümkün olması deyil, eyni zamanda onun **maqnit vasitələrin**ə yazılması (məsələn, CD və s.) da başa düşülməlidir. Doğrudur, bəzi xarici ölkələrdən fərqli olaraq belə bir üsuldan hələ ki, respublika məhkəmələrindən istifadə olunmur, lakin gələcəkdə belə bir üsulun mövcudluğuna əminik.

Qətnamənin yazılı formada tərtib olunması tələbi bütün qətnamə formalarına (hissəvi, tam, əlavə və qiyabi) şamil olunur.

MPM-in 219.2-ci maddəsinə əsasən, məhkəmənin qətnaməsi təkbaşına işə baxdıqda hakim (birinci instansiya məhkəməsi), kollegial qaydada baxıldıqda isə bütün hakimlər (apellyasiya instansiya məhkəməsi) tərəfindən imzalanır.

Normadan aydın olur ki, məhkəmə qətnaməsi birinci instansiya məhkəməsi tərəfindən baxılqıda işə təkbaşına baxan hakim (sədrlik edən), apellyasiya instansiya məhkəməsində baxıldıqda isə kollegial tərkibə daxil olan bütün hakimlər (sədrlik edən, məruzə edən və digər hakim (hakimlər)) tərəfindən imzalanmalıdır.

Əksəriyyətin qəbul etdiyi qərarla razılaşmayan hakim həmin qərarı imza etməyə borcludur. O, öz rəyini yazılı şəkildə şərh edə bilər və rəy işə əlavə olunur, lakin məhkəmə iclasında elan edilmir (MPM-in 18.2-ci maddəsi).



**Hesab edirik ki, rəyin məhkəmə iclasında elan edilməməsi və yaxud onun iş üzrə tərəfə təqdim edilməməsi şəxsin konstitusion (Konstitusiyanın 127-ci maddəsi) və qanunla verilmiş hüququnun (MPM-in 10.11-ci maddəsi) pozulmasına dəlalət edir**.

Reallıqdan doğan məntiqlə düşünəndə rəyin tərəfdən gizlədilməsinin mahiyyətini dərk etmək çətinliyi ilə qarşılaşırıq. Nəzərə alaq ki, belə bir qadağa İPM-də nəzərdə tutulmamışdır. Qanunvericilik azlıqda qalan hakimə öz xüsusi rəyini yazılı şəkildə tərtib edə bilməsi və həmin rəyin işə əlavə edilməsini nəzərdə tutur.

Halbuki "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsinin I hissəsinə əsasən, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Həmin normaya görə məhkəmə qərarı açıq elan edilməlidir[1].

**Məhkəmə hakimləri unutmamalıdırlar ki, qanunvericilikdə nəzərdə tutulub-tutulmamasından, həmçinin məhdudlaşdırılmasından asılı olmayaraq bütün hallarda xüsusi rəy açıq elan edilməli və tərəfə təqdim olunmalıdır[2].**

Qeyd edək ki, Avropa İnsan Hüquqları Məhkəməsinin, eyni zamanda Konstitusiya Məhkəməsinin xüsusi rəyi əsas rəylə birlikdə dərc olunur və tərəfə təqdim edilir. İPM üzrə isə bu hüquq apellyasiya və kassasiya instansiya məhkəmələrinə verilib (İPM-in 4.3-cü maddəsi).

**Sədrlik edən və işə kollegial qaydada baxılan zaman məhkəmə tərkibinə daxil olan bütün hakimlər tərəfindən imzalanan qətnamə qanuni qətnamə hesab olunur.** Qətnamənin bir əsli və onun əsasında bir neçə surəti hazırlanır. Əsl olan qətnamə iş materiallarına sonuncu məhkəmə iclasından sonra (qətnamənin elan olunduğu tarixdə), əgər iş üzrə məhkəmə qətnaməsinin haçansa nəticə hissəsi elan edilmişsə (his-

---

[1] Bax: Avropa İnsan Hüquqları Konvensiyası (11 nömrəli Protokola uyğun olaraq düzəliş edilən mətn). Avropa Şurası, Müqavilələr seriyası (CE-TS). №5. Səhifə 8.

[2] Hesab edirik ki, gələcəkdə MPM-in 18.2-ci maddəsinin "lakin məhkəmə iclasında elan edilmir" sözü Konstitusiyanın müvafiq maddələrinə zidd olaraq qüvvədən düşmüş hesab ediləcəkdir.

səvi qətnamə) o zaman qətnamənin nəticə hissəsindən sonra əlavə edili (tikilir). Qətnamənin surətində onun surət olunmasına və əsli ilə eyni ol masına dair müvafiq qeyd (məsələn, qətamənin giriş hissəsindən yuxa rıda vərəqin sağ küncündə "surət" və yaxud qətnaməni imzalayan ha kimlərin imzasından sonra "əsli ilə düzdür" və s.) edilir və bu qeydd sonra məhkəmə iclasına sədrlik edən və hakimlər tərfindən imza atılır Qətnamənin surətləri məhkəmənin möhürü ilə təsdiq olunduqdan sonra müvafiq olaraq işdə iştirak edən şəxslərə rəsmi qaydada (MPM-in 135 ci maddəsi) verilir (təqdim edilir).

İş materiallarında məhkəmə **qətnaməsinin imzalanmaması** (MPM-i 387.2.5-ci və 418.4.2-ci maddələri) və yaxud **məhkəmə qətnaməsini əslinin olmaması** (MPM-in 387.2-ci və 418.4-cü maddələri) qətnamə dən verilmiş apellyasiya və kassasiya şikayətlərinin əsaslılığından asıl olmayaraq məhkəmə tərəfindən prosessual hüquq normalarının kobu şəkildə pozulması kimi qiymətləndirilərək müvafiq olaraq qətnamənin apellyasiya və kassasiya qaydasında ləğv edilməsi üçün əsasdır.

**Çox təəssüf ki, MPM məhkəmə qətnaməsinin imzalanması məsə ləsində məhkəmə iclas katibinə münasibətdə kənarda qalır.** Təsəv vür edin, məhkəmə iclasında baş verən prosessual hərəkətləri olduğu ki mi məhkəmə iclas protokoluna köçürən və məhkəmə iclas katibinin im zası ilə təsdiq olunan məhkəmə iclas protokolu əsasında hakim qətnam çıxarır. Lakin bu qətnamənin imzalanmasını qətnamənin əsasını təşki edən məhkəmə iclas protokolunu tərtib etmiş şəxsə həvalə etmir[1].

Qeyd edək ki, təcrübədə bununla bağlı müəyyən fikir ayrılığı mövcu olmuşdur. Apardığımız uzun və çətin araşdırmanın nəticəsi olaraq mü əyyən etdik ki, 2008-ci ilə qədər məhkəmə təcrübəsində məhkəmə qət naməsinin hakim (sədrlik edən) və məhkəmə iclas katibi tərəfindən im zalanması halı demək olar ki, kütləvi xarakter daşımışdır. Lakin sonra dan, müəyyən edə bilmədiyimiz səbəblərə görə (apardığımız araşdırm nəticəsində bəzi hakimlər bildirmişdilər ki, onlar MPM-in 219.2-c maddəsini rəhbər tutaraq bu addımı atmışlar) məhkəmələrin (hakimlə rin) böyük bir qismi məhkəmə qətnaməsini imzalamaqdan məhkəmə iclas katibini kənarlaşdırmışdılar[1]. Bütün bunlara baxmayaraq bu gün öl kəmizin çox az sayda məhkəmələri tərəfindən qəbul edilən nəinki məh kəmə qətnamələri, eyni zamanda məhkəmə aktlarını da hakimlə yanaşı məhkəmə iclas katibinin imzalanmasının şahidi oluruq.

Qeyd edək ki, bu qayda bəzi xarici ölkələrin təcrübəsində də tətbiq olunmaqdadır. Bundan başqa Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına diqqət yetirsək görərik ki, bütün qərarlar hakim və məhkəmə iclas katibi tərəfindən imzalanır[2]. Hətta bəzi hallarda katibin əvəzinə katib müavini[3], hüquq müdafiəçisi[4] də bu səlahiyyətdən yararlanır.

**Beləliklə, hesab edirik ki, MPM-in 219.2-ci maddəsi aşağıdakı redaksiyada verilməlidir:**

**"219.2. Məhkəmənin qətnaməsi təkbaşına işə baxdıqda hakim və məhkəmə iclas protokolunu tərtib etmiş şəxs, kollegial qaydada baxıldıqda isə bütün hakimlər və məhkəmə iclas protokolunu tərtib etmiş şəxs tərəfindən imzalanır."**

Bəzən elə hallar olur ki, məhkəmə iclas protokolu hakim tərəfindən tərtib olunur ki, bu halda həmin hakimin tək imzası (birinci instansiya məhkəməsi tərəfindən işə baxılarkən) qətnamənin əsaslı və qanuni olması üçün kifayətdir.

MPM-in 219.3-cü maddəsinə əsasən, qətnamədə düzəlişlər hakimlərin, yaxud hakimin imzası ilə təsdiq edilməlidir.

Ümimilikdə MPM-də məhkəmə aktlarında yol verilmiş yanlışlığın düzəldilməsinə dair iki norma mövcuddur:

1) MPM-in 219.3-cü maddəsi;

---

[1] Burada məhkəmə bildirişinin imzalanmasını məhkəmə iclas katibindən alınaraq hakimə verilməsi də az rol oynamamışdır.

[2] Məlumat üçün Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına baxmaq tövsiyyə olunur (www.coe.int).

[3] Bax: "**Qurepka Ukraynaya qarşı**" iş üzrə 6 sentyabr 2005-ci il tarixli, 61406/00 saylı və "**Siorap Moldovaya qarşı**" iş üzrə 19 iyun 2007-ci il tarixli, 12066/02 saylı Qərarlara (Avropa İnsan Hüquqları Məhkəməsinin seçilmiş qərarları. Bakı, "Şərq-Qərb", 2009. Səhifə 368, 584.).

[4] Bax: "Saadi İtaliyaya qarşı" iş üzrə 28 fevral 2008-ci il tarixli, 37201/06

2) MPM-in 228-ci maddəsi.

Hər iki müddəa məhkəmə aktının bir növü kimi yalnız məhkəmə q namələrinə həsr edilmişdir. Lakin təcrübədə məhkəmə əmr, qərarda qərarda olan yanlışlığın düzəldilməsi ilə bağlı analogiya qaydasın (MPM-in 13.4-cü maddəsi) istifadə etmək olar[1].

Birinci halda (**MPM-in 219.3-cü maddəsi) məhkəmə qətnaməsi t rəfə təqdim edilməmiş, yəni imzalanmış, hətta möhürlənmiş, lak tərəfə təqdim edilməmiş vəziyyətində həyata keçirilir ki, bu zama qətnamənin müəyyən bir hissəsində (daha geniş ərazidə), ayd (oxunacaq) tərzdə yazılmalı, bundan sonra yazının altından müv fiq qaydada hakim (hakimlər) imza atmalıdır (atmalıdırlar). İm (imzalar) məhkəmənin möhürü ilə təsdiq olunmalıdır. Bu zama ikinci halda (MPM-in 228-ci maddəsi) fərqli olaraq məhkəmə h hansı bir iclas təyin etmir və keçirmir, tərəfləri məhkəmə iclası dəvət etmir və ən əsası hər hansı bir məhkəmə aktı qəbul etmir.**

Tərəflər hakim (hakimlər) tərəfindən məhkəmə qətnaməsinə edilm düzəlişlə bağlı hər hansı bir irad bildirə və yaxud yeni tərtib olunma mi qətnamə tələb edə bilməzlər. Tərəflər yalnız hakimə (hakimlərə) y zının forması və məzmunu ilə bağlı təklif verə bilərlər.

İkinci halda (**MPM-in 228-ci maddəsi) məhkəmə qətnaməsi tərə təqdim edildikdən sonra məhkəmə qətnaməsi qanuni qüvvəsini a mamış və yaxud ondan şikayət verilməmiş, həm öz təşəbbüsü il həm də tərəflərin vəsatəti əsasında (MPM-in 219.3-cü maddəsind**

[1] Bəzi müəlliflər hesab edirlər ki, mülki prosessual qanunvericilikdə yanlış ğın düzəldilməsi institutu yalnız məhkəmə qətnamələri üçün nəzərdə tutulub bu digər məhkəmə aktlarında baş verən yanlışlıqların düzəldilməsi məsələsinə edilə bilməz. Məsələn, hüquqşünas **Ə.Hüseynov** hesab edir ki, ...məhkəmə əmri əlavə əmr çıxarmaq, ondakı yanlışlıq və hesab səhvlərini düzəltmək kimi üsullar tamamlamaq mümkün deyildir (məlumat üçün bax: F.S.Manafov, Ə.H.Hüseyno B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbö mə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhi 745). Biz müəllifin bu mövqeyi ilə razılaşmaq niyyətində deyilk və göstəririk k istər məhkəmə əmri, istər məhkəmə qərardadı, istərsə də məhkəmə qərarı ols onlarda yaranmış yanlışlıqların düzəldilməsi məsələsi MPM-də nəzərdə tutulma da məhkəmə analogiya qaydasında həmin aktlarda baş vermiş yanlışlıqların düzə dilməsini MPM-in 13.4-cü və 228-ci maddələrinə istinad...

**fərqli olaraq) məhkəmə iclası təyin etməklə, tərəfləri məhkəmə iclasına çağırmaqla, müstəqil məhkəmə aktı forması olan – qərardad qəbul edir.**

**Birinci haldan fərqli olaraq MPM ikinci halda məhkəmə qətnaməsinə ediləcək düzəlişlərin dairəsini müəyyən edir. Bu buraxılmış yanlışlıqların və açıq hesab səhvlərinin düzəldilməsidir.**

Qeyd edək ki, hakimin tək imzası həmin düzəlişin təsdiq edilməsi üçün kifayət deyildir. Bundan sonra həmin düzəlişi təsdiq etmiş hakim imzasını təsdiq etmək üçün məhkəmənin möhürü lazımdır.

Əslində MPM-in 219.3-cü maddəsi kifayət qədər lazım olmayan bir normadır. Belə ki, əgər məhkəmə qətnaməsində baş vermiş yanlışların düzəldilməsini MPM xüsusi olaraq norma ilə müəyyən edirsə bu yanlışlığın düzəldilməsi ilə bağlı həm maddi, həm də prosessual tələb nəzərdə tutursa, o zaman belə bir düzəlişə, özüdə ki, tək imza ilə düzəlişə ehtiyac qalmır.

Təcrübəyə yanaşsaq görərik ki, MPM-in 219.3-cü maddəsinin tətbiqi hazır ki, dövr üçün demək olar ki, yox dərəcəsindədir. Əlavə olaraq qeyd edək ki, çox zaman belə hallarla qarşılaşan tərəflər məhz yanlışlığın hakim tərəfindən imzalanması ilə düzəldilməsinin əleyhinə olurlar ki, buna da səbəb kimi gələcəkdə müxtəlif orqanlarda, eləcə də yuxarı instansiyalarda hər hansı bir mübahisənin yaranmasıdır.

**Hesab edirik ki, MPM-in 219.3-cü maddəsi ləğv edilməlidir**[1].

Məhkəmə qətnaməsi elan edilənədək tərtib olunmalıdır (MPM-in 227.1-ci maddəsi).

MPM-in 214.1-ci maddəsinə görə, qətnaməni qəbul etdikdən və imzaladıqdan sonra hakim(lər) məhkəmə iclası zalına qayıdır, qətnaməni elan edir, qətnamənin məzmununu, ondan şikayət etmə qaydasını və müddətini izah edir. Bu normanın məzmunundan görünür ki, hakim(lər)in müşavirə otağından məhkəmə iclası zalına qayıdaraq qətnaməni elan etməsi qətnamənin qəbul olunmasından və imzalanmasından sonrakı mərhələyə aid edilir. Buna görə də MPM-in 227.1-ci maddəsi belə bir tələb müəyyən edir ki, məhkəmə qətnaməsi elan edilənədək tərtib olunmalıdır.

[1]Məlumat üçün bildirək ki, **İtaliya Respublikasının** MPM-də məhkəmə qətnaməsində yol verilmiş yanlışlıqların düzəldilməsinə dair (287-289-cu maddələr) ...

Məhkəmə qətnaməsinin elan olunması məhkəmə qətnaməsinin elan edilənədək MPM-in 226-cı maddəsinin tələblərinə uyğun olaraq tərtib edilməsi başa düşülür. Yəni qətnamənin giriş, təsviri, əsaslandırıcı və nəticə hissələrinin tam təmin olunması vacibliyini təzahür edir. Lakin normativ hüquqi aktın xüsusi tələbi kimi müstəsna hallarda, yəni xüsusi mürəkkəb işlər üzrə qəbul olunan məhkəmə qətnaməsi onun elan olunmasına qədər tam şəkildə tərtib olunmaya bilər. Belə hallarda məhkəmə qətnaməsinin ən azından giriş və nəticə hissəsi (təcrübədə buna "qətnamədən çıxarış" da deyilir, biz isə buna "hissəvi qətnamə" adı veririk) tam, təsviri və əsaslandırıcı hissəsi qismən elan edilir (doğrudur MPM-in 214.3-cü və 227.2-ci maddələrində qətnamənin yalnız nəticə hissəsinin elan edilməsi nəzərdə tutulmuşdur, həmçinin təcrübədə bəzən elə hallara rast gəlinir ki, məhkəmə qətnaməsinin yalnız nəticə hissəsi elan edilir ki, bu da doğru istinad deyildir. Belə ki, ən azından həmin işin tərəflərinin kim olması barədə qətnamədən çıxarış alan şəxsdə məlumat olmalıdır.) və əsaslandırılmış, yəni qətnamənin təsviri və əsaslandırıcı hissələrinin qətnamədə tam şəkildə işlənməsi MPM-in 227.2-ci maddəsində nəzərdə tutulmuş 10 günlük müddət çərçivəsində həyata keçirilməlidir[1].

[1] Qeyd edək ki, məhkəmə qətnaməsinin nəticə hissəsinin elan edilməsi (məhkəmə qətnaməsinin qismən elan edilməsi) ilə bağlı hüquqşünas **H.Nəsibov** "Məhkəmə qətnaməsinin qismən elan edilməsi Avropa Məhkəməsi tərəfindən açıq və ədalətli məhkəmə araşdırması hüququna verilən təfsir kontekstində" adlı dəyərli araşdırma aparmışdır (ətraflı məlumat üçün bax: www.supremecourt.nakhchivan.-az/huquqtecrubesi_20081.html.).

Həmçinin məhkəmə qətnaməsinin nəticə hissəsinin tərtibi və elan edilməsi ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin **"Biryukov Rusiya-ya qarşı"** işi üzrə qəbul etdiyi 17 yanvar 2008-ci il tarixli qərarında olduqca maraqlı xüsusiyyətlər öz əksini tapmışdır. Həmin qərarda məhkəmə Nikolayevski Rayon Məhkəməsinin elan etdiyi qətnaməni əsaslı hesab etməmişdir. Məlumat üçün bildirək ki, mübahisəli qətnamə aşağıdakı məzmunda elan edilmişdir:

"Nikolayevski Rayon Məhkəməsi... ibarət tərkibdə, açıq məhkəmə iclasında Biryukov Rakib İsmayıloviçin Nikolayevski Xəstəxanasına qarşı sağlamlığına vurulan zərərə görə kompensasiyanın ödənilməsi haqqında iddiası üzrə mülki işə baxaraq, Rusiya Federasiyasının Mülki Məcəlləsinin 1064-cü maddəsinə əsaslanıb və RSFSR-in Mülki Prosessual Məcəlləsinin 14, 50, 191, 194-197-ci maddələrini rəhbər tutub, qət etdi:



Xüsusilə mürəkkəb işlər üzrə əsaslandırılmış qətnamənin tərtibinin təxirə salınmağı müstəsna hallara işdə bir neçə iddiaçının və cavabdehin iştirak etməsi, tədqiq edilən sübutların həcminin böyük olması və s. aiddir ("Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumu Qərarının 6.13-cü bəndi).

MPM-in 227.2-ci maddəsinə əsasən, müstəsna hallarda, xüsusilə mürəkkəb işlər üzrə qətnamənin nəticə hissəsi elan edildikdən sonra əsaslandırılmış qətnamənin tərtib edilməsi 10 gün müddətinədək başa çatdırılmalıdır. Bu halda məhkəmə qətnamənin nəticə hissəsinin elan olunduğu gün onun təsdiq olunmuş surətini işdə iştirak edən şəxslərə rəsmi qaydada verməlidir. Sədrlik edən eyni zamanda işdə iştirak edən şəxslərin əsaslandırılmış qətnaməni nə vaxt ala biləcəklərini elan edir.

Normativ hüququ aktın sözügedən normasında müəyyən bir boşluq nəzərə çarpmaqdadır. Belə ki, qanun məhkəmə qarşısında müəyyən bir şərt qoyur ki, əgər müstəsna hal hesab edib məhkəmə qətnaməsinin tərtibini təxirə salınarsa o zaman qətnamənin nəticə hissəsinin təsdiq olunmuş surəti həmin gün işdə iştirak edən şəxslərə verilməlidir. Hesab edirik ki, bu hal öz növbəsində şəxsin təkrar məhkəməyə müraciət hüququnu məhdudlaşdırır. Belə ki, **şəxsin məhkəmə qətnaməsindən gələcəkdə şikayət vermək hüququ həmin gündən (qətnamənin nəticə hissəsini aldığı gündən) hesablanmağa başlayır, lakin o məhkəmə qətnaməsindən şikayət vermək üçün mütləq onun əsaslandırılmış nüsxəsini əldə etməlidir ki, bu da öz növbəsində onun şikayət verm müddətinin bir hissəsinin itirilməsinə səbəb olur.**

Qətnamənin nəticə hissəsini rəsmi qaydada vermək şəxsə bu barədə məhkəmə qəbzinə imza etməklə verilmə kimi başa düşülür.

**Şəxs elandan sonra məhkəmə qətnaməsinin nəticə hissəsini almaqdan imtina etmək hüququna malikdir.** Bu barədə qətnamənin nəticə hissəsini tərəfə təqdim etmiş şəxs qeydiyyat aparmalı və həmin

Sağlamlığın itirilməsinə görə kompensasiyanın ödənilməsi barədə Biryukov Rakib İsmayıloviçin Nikolayevsk vilayətinin Nikolayevski Rayon Xəstəxanasına qarşı iddiası rədd edilsin.

Qətnamədən 10 gün müddətində Nikolayevski Rayon Məhkəməsi vasitəsi ilə Ulyanovsk Vilayət Məhkəməsinə şikayət və yaxud protest verilə bilər." (bax: www.sutyajnik.ru/documents/2271.html).

qeydiyyat iş materiallarına əlavə olunmalıdır. Şəxsin şikayət vermə müddəti isə qətnamə elan edildiyi andan hesablanır.

Əslində MPM-in 227.2-ci maddəsinin mövcudluğuna heç bir lüzum yoxdur. Belə ki, **istənilən halda şəxsə məhkəmə qətnaməsi tam vəziyyətdə gərəkdir.** Bunun üçün əvvəlcədən qətnamədən çıxarış, sonra isə tam qətnamə qəbul etmək artıq prosessual hərəkətlərdir. **Hesab edirik ki, hakim 10 günlük müddət ərzində vaxt müəyyən etməklə müşavirə otağına getməli və həmin müddət başa çatdığı zaman məhkəmə qətnaməsini tam şəkildə tərəflərə təqdim etməsi daha düzgün və məqsədəmüvafiq hesab olunmalıdır.**

Qətnamənin nəticə hissəsi formasına görə MPM-in 214.4-cü maddəsinin, məzmununa görə isə MPM-in 220.5-ci, 220.6-cı və 392.1-ci maddələrinin tələblərinə uyğun olmalı, yəni qətnamənin nəticə hissəsi yazılı formada tərtib olunmalı, birinci instansiya məhkəməsində işə baxan hakim və ya apellyasiya instansiyası məhkəməsində işə kollegial qaydada baxan hakimlər tərəfindən imzalanmalı və işə əlavə edilməlidir.

Məhkəmə iclasında qətnamənin yalnız nəticə hissəsi elan edildikdə və əsaslandırılmış qətnamənin tərtib olunması təxirə salındıqda məhkəmə iclasının protokolunda bu barədə müvafiq qeyd aparılmalı və qətnamənin nəticə hissəsinin əsli protokoldan sonra işə əlavə edilməlidir.

Hissəvi qətnamədə göstərilən hissələr əsaslandırılmış qətnamədə olduğu kimi öz əksini tapması mütləqdir.

MPM-in 227.3-cü maddəsinə əsasən, məhkəmənin qətnaməsi işdə iştirak edən şəxslərə tərtib edildikdən sonra 3 gün ərzində rəsmi qaydada verilməlidir.

Sözügedən maddədə nəzərdə tutulan 3 günlük müddət onunla ehtiva olunur ki, hakim məhkəmə qətnaməsinin tam mətni hazır olandan sonra 3 gün ərzində həmin qətnamənin işdə iştirak edən tərəflərə çatdırılmasını təmin etməlidir.

Qətnamənin işdə iştirak edən şəxslərə verilməsinin rəsmi qaydası MPM-in 135-ci maddəsində nəzərdə tutulmuşdur.

Məhkəmə qətnaməsinin məzmunu MPM-in 220-ci və 392-ci maddələrində nəzərdə tutulmuşdur. Normativ hüquqi akta əsasən, məhkəmə qətnamələri forma və məzmununa görə MPM-də 2 növə ayrılır:

1) **birbaşa norma şəkilində (MPM-in 220-ci və 392-ci maddələri)**;

2) **normadaxili şəkildə (MPM-in 222.1-ci və s. maddəsi)**.



Birbaşa norma şəkilində qətnamənin forma və məzmunu MPM-in 220-ci və 392-ci maddələrində nəzərdə tutulmuşdur.

Normadaxili şəkildə MPM-in müvafiq normalarında qətnaməyə dair hansısa tələb öz əksini tapır. Misal üçün, MPM-in 223.1-ci maddəsinə əsasən, məhkəmə əmlakın və ya pul məbləğlərinin verilməsi ilə əlaqədar olmayan müəyyən hərəkətləri etməyə cavabdehi məcbur edən qətnamə çıxardıqda, qətnamənin nəticə hissəsində kimin, harada, nə vaxt və ya hansı müddətdə həmin hərəkəti etməyə borclu olmasını göstərir.

Birinci instansiya məhkəməsi tərəfindən çıxarılan məhkəmə qətnaməsinin məzmunu MPM-in 220-ci maddəsi ilə müəyyən edir.

Normativ hüquqi aktın sözügedın normasının I hissəsindən müəyyən olunur ki, qətnamə anlaşılan ifadələrdən istifadə etməklə tərtib olunmalıdır. Anlaşılan ifadələr dedikdə, hazırda dilimizdə işlədilən və ümumişlək sözlər başa düşülür. Köhnəlmiş və dialekt sözlərdən qətnamədən istifadə edilməsi düzgün deyil. Məsələn, "doqqaz" sözünün mənasını anlamaqda müəyən çətinlik meydana çıxa bilər, lakin onun əvəzinə "küçə" sözünün işlənməsi yaranacaq çətinliyin vaxtında qarşısını almış olar.

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 5-ci bəndinə görə, məhkəmə qətnaməsi savadlı, hüquqi cəhətdən düzgün tərtib edilməli, onda anlaşılmayan ifadələr yazılmamalı, hüquqi ifadələr yerində və dəqiq işlədilməlidir.

MPM-in 220.2-ci maddəsinə əsasən, **qətnamə giriş, təsviri, əsaslandırıcı və nəticə hissələrindən ibarətdir**[1]. Bu hal öz əksini həmçinin

---

[1] **Özbəkistan Respublikasının** MPM-in 206-cı maddəsi "qətnamənin məzmunu" adlanır. Normanın I bəndinə əsasən, qətnamə giriş, təsviri, əsaslandırıcı və nəticə hissələrindən ibarətdir. Oxuculara tövsiyyə olunur ki, **Özbəkistan Respublikasının** MPM-in 206-cı maddəsinin I bəndi ilə əlaqədar "Hüquqi faktların müəyyən olunmasına dair" Ali Məhkəmənin 20 dekabr 1991-ci il tarixli, 5-PL-91 saylı Qərarının 21-ci bəndinə, "Məhkəmə qətnaməsi haqqında" Ali Məhkəmənin 17 aprel 1998-ci il tarixli, 13 saylı Qərarının 4-cü, 5-ci, 8-ci, 11-ci, 12-ci,13-cü bəndlərinə diqqət yetirsinlər (www.oliysud.uz).

**Almaniya Federativ Respublikasının** mülki prosessual qanunvericiliyində məhkəmə qətnaməsinin tərkibi bir qədər fərqli xüsusiyyətə malikdir. Belə ki, MPM-in 313-cü maddəsinin I hissəsinə əsasən, məhkəmə qətnaməsi ibarətdir:

1) tərəflərin adları, qanuni nümayəndələri və onları təmsil etmək səlahiyyətinə malik olan şəxslər;

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarında da tapıb. Belə ki, qərarın 6.1-ci bəndinə görə, qətnamənin məzmunu giriş, təsviri, əsaslandırıcı və nəticə hissələrindən ibarət olub, həmin ardıcıllıqla AR MPM-in 220-ci maddəsində göstərilən məlumatları əks etdirməlidir.

**Beləliklə, məhkəmə qətnaməsi aşağıdakı hissələrdən ibarətdir:**

**a) giriş hissə (MPM-in 220.3-cü maddəsi);**

**b) təsviri hissə (MPM-in 220.3-cü maddəsi);**

**c) əsaslandırıcı hissə (MPM-in 220.4-cü maddəsi);**

**ç) nəticə hissə (MPM-in 220.5-ci və 220.6-cı maddələri).**

Göstərilən normadan (MPM-in 220.2-ci maddəsindən) fərqli olaraq apellyasiya instansiya məhkəməsi qətnaməsinin məzmununu müəyyən edən MPM-in 392-ci maddəsində qətnamənin konkret olaraq hansı hissələrdən ibarət olması göstərilməmişdir. Norma ümumu olaraq müəyyən edir ki, apellyasiya instansiya məhkəməsinin qətnaməsində aşağıdakılar göstərilməlidir:

**1) qətnamənin çıxarılma vaxtı və yeri;**

**2) qətnaməni çıxarmış məhkəmənin adı və tərkibi;**

**3) apellyasiya şikayətini vermiş şəxs;**

**4) şikayət verilən qətnamənin, apellyasiya şikayətinin, təqdim edilmiş sübutların, işə apellyasiya instansiyasında baxılarkən iştirak etmiş şəxslərin izahatlarının qısa məzmunu;**

**5) məhkəmənin nəticəyə gəlməsi barədə motivlər və məhkəmənin rəhbər tutduğu qanunlar;**

**6) apellyasiya şikayətinə baxılması üzrə məhkəmənin nəticələri[1].**

---

2) məhkəmənin adı, hakimlərin adları, araşdırma iştirak edənlər;

3) şifahi araşdırmanın qurtardığı gün;

4) giriş hissə;

5) təsviri hissə;

6) əsaslandırıcı hissə (bax: www.albookerk.ru/g/vitrum/grazhdanskij_processualnyj_kodeks_frg_.html).

[1] **Türkiyə Respublikasının** MPM-in 359-cu maddəsinin birinci hissəsinə görə, yuxarı instansiya məhkəməsinin qərarında aşağıdakılar göstərilir:

a) qərarı çıxarmış yuxarı instansiya məhkəməsinin məhkəmə tərkibi, sədrlik edən, üzvlər və katibin ad və soyadları, vəzifə nömrələri;

b) tərəflərin və mübahisəyə birinci dərəcə məhkəmədə (birinci instan-siya məhkəməsi – müəllif) baxılan zaman iştirak etmiş şəxslərin şəxsiyyəti və Türkiyə



MPM-in 220.3-cü maddəsinə əsasən, qətnamənin giriş hissəsində onun çıxarılma vaxtı və yeri, qətnamə çıxaran məhkəmənin adı, hakim, məhkəmə iclası katibi, tərəflər, işdə iştirak edən digər şəxslər və nümayəndələr, mübahisənin predmeti və ya irəli sürülən tələb göstərilməlidir.

Normativ hüquqi akta görə qətnamənin giriş hissəsində aşağıdakılar göstərilməlidir:

**a) çıxarılma vaxtı və yeri (MPM-in 220.3-cü və 392.1.1-ci maddələri);**

**b) qətnamə çıxaran məhkəmənin adı (MPM-in 220.3-cü və 392.1.2-ci maddələri);**

**c) hakim (MPM-in 220.3-cü və 392.1.2-ci maddələri);**

**ç) məhkəmə iclası katibi (MPM-in 220.3-cü və 392.1.2-ci maddələri);**

**d) tərəflər (MPM-in 220.3-cü və 392.1.3-cü maddələri);**

**e) işdə iştirak edən digər şəxslər və nümayəndələr (MPM-in 220.3-cü və 392.1.3-cü maddələri);**

**ə) mübahisənin predmeti və ya irəli sürülən tələb (MPM-in 220.3-cü və 392.1.4-cü maddələri).**

**Qətnamənin çıxarılma vaxtı dedikdə, qətnamənin məhkəmə iclası zalında elan edildiyi təqvim günü, ayı və ili nəzərdə tutulur** (məsələn, "17 may 2012-ci il", "11 noyabr 2012-ci il" və s.). **Tarix və il rəqəmlərlə, ay isə hərflərlə yazılır.**

**Məhkəmə qətnaməsinin çıxarılması nəzərdə tutulan məhkəmə iclasının keçirildiyi yerin müvafiq inzibati vahidi (şəhər, həmçinin rayon tabeli şəhər və rayon) qətnamənin çıxarılma yeri hesab olunur** (məsələn, "Bakı şəhəri", "Qaradağ rayonu" və s.).

---

Respublikası şəxsiyyət vəsiqəsi nömrəsi, varsa qanuni nümayəndəsi və vəkillərin adı, soyadı və ünvanları;

c) tərəflərin iddia və etirazlarına dair qısa xülasə;

ç) birinci dərəcəli məhkəmə qərarının qısa xülasəsi;

d) irəli sürülən şikayətin səbəbləri;

e) tərəflər arasında mübahisəli olan və ya olmayan məsələlər, bunlara aid sübutların, onların müzakirəsi, rədd və müdafiə etmə səbəbləri, mübahisə edilən məsələlərə dair nəticə və hüquqi səbəb;

ə) mübahisənin həllinin qanuni yolu və qaydası;

f) qərarın verildiyi tarix, sədrlik edən, üzvlər və katibi imzaları;

g) əsaslı qərarın yazıldığı tarix (bax: www.tbmm.gov.tr/kanunlar/k6100.html).

**Qətnamə çıxaran məhkəmənin adı məhkəmə qətnaməsini qəbul edən hakimin (hakimlərin) hakimi olduğu məhkəmə başa düşülür** (məsələn, "Bakı şəhəri, Yasamal Rayon Məhkəməsi"[1], "Gəncə Apellyasiya Məhkəməsi" və s.).

**Məhkəmə qətnaməsini qəbul edən hakimin soyadı, adı və atasının adı qətnamənin giriş hissəsində mütləq göstərilməlidir** (məsələn, "hakim Məmmədov Səfər Əli oğlu", "hakim Əhmədov Səməd Hüseyn oğlu" və s.).

**İşə apellyasiya instansiya məhkəməsində qəbul olunması ilə əlaqədar məhkəmə tərkibinin hər birinin ayrılıqda soyadı, adı, atasının adı göstərilməlidir** (məsələn, "hakim (sədrlik edən) Əliyev Vəli Həsən oğlu, hakim Məmmədov Səfər Əli oğlu, hakim (məruzə edən) Əhmədov Səməd Hüseyn oğlu" və s.).

**Hakimdən (hakimlərdən) sonra məhkəmə qətnaməsinin giriş hissəsində məhkəmə iclas katibinin soyadı, adı və atasının adı göstərilməlidir** (məsələn, "məhkəmə iclas katibi Məmmədov Əhməd Əli oğlu", "məsləhətçi Səfərov Elnur Araz oğlu" və s.).

**Daha sonra məhkəmə qətnaməsində tərəflərin (iddiaçı, cavabdeh, müstəqil tələb irəli sürən üçüncü şəxs, müstəqil tələb irəli sürməyən üçüncü şəxs, maraqlı şəxs) soyadı, adı və atasının adı nəzərdə tutulur** (məsələn, "iddiaçı Məhərrəmov Sabit Əli oğlunun", "cavabdeh Adilov Qalib Səməd oğlunun" və s.). **İşdə iştirak edən şəxslər nümayəndə vasitəsilə təmsil olunduqları halda nümayəndənin soyadı, adı, atasının adı qətnamənin giriş hissəsində göstərilməlidir** (məsələn, "iddiaçı Məmmədov Səfər Əli oğlunun nümayəndəsi Əliyev Həsən Məmməd oğlunun", müstəqil tələb irəli sürən üçüncü şəxs Vəliyev Sabir Qulam oğlunun nümayəndəsi Əhmədzadə Kamil Oqtay oğlunun" və s.).

**İşdə iştirak edən digər şəxslər və nümayəndələrin də soyadı, adı, atasının adının (əgər vəkillə təmsil olunurlarsa vəkilin işlədiyi qurum və onun adı, soyadı, atasının adı)** (məsələn, "iddiaçının nümayəndəsi

[1] AR Ədliyyə Nazirliyi Kollegiyasının 29 noyabr 2011-ci il tarixli, 3-N saylı qərarı ilə təsdiq edilmiş "Məhkəmələrdə kargüzarlığın aparılmasına dair" Təlimatın 19-cu bəndinə görə, təşkilatın (məhkəmənin) adlarında köməkçi sözlərdən başqa, bütün sözlərin və onların tərkibinə daxil olan xüsusi isimlərin baş hərfləri böyük yazılır.



Məmmədov Səfər Əli oğlunun", "cavabdehin vəkili 1 saylı hüquq məsləhətxanasının vəkili Əliyev Həsən Məmməd oğlunun", "tərcüməçi Vəliyev Sabir Qulam oğlunun" və s.) **göstərilməsi də qətnamənin giriş hissəsinə aiddir.**

Mübahisənin predmeti və ya irəli sürülən tələb barədə məlumatın qətnamənin giriş hissəsində göstərilməsi məhkəmədə baxılan mülki iş üzrə məhkəmə tədqiqatının predmeti olan mübahisəli hüquq münasibətlərinin sahəvi aidiyyətini müəyyən etməyə imkan verir (işə bərpa tələbi - əmək hüquq münasibətlərinin məhkəmədə mübahisələndirildiyini göstərir və s.) və baxılan mülki işin xarakteri haqqında ilkin təsəvvür yaradır. Bu baxımdan qətnamənin giriş hissəsində mübahisənin predmeti və ya irəli sürülən tələb qısa, konkret və hüquqi cəhətdən aydın ifadə olunmalıdır[1].

Əgər baxılan mülki iş üzrə qarşılıqlı iddia və ya mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürən üçüncü şəxslər tərəfindən iddia verilmişdirsə, bu halda da qətnamənin giriş hissəsində qarşılıqlı iddia verən cavabdehin və müstəqil tələblər irəli sürən üçüncü şəxsin irəli sürdüyü tələb də eyni qaydada göstərilməlidir[2].

Göstərilənlərlə yanaşı məhkəmə qətnaməsinin giriş hissəsində MPM-in 220.3-cü maddəsində göstərilməyən məlumatlar da göstərilə bilər (məsələn, baxılan işin açıq və ya qapalı məhkəmə iclasında baxılması və s.).

Qeyd edək ki, dünya praktikasında qətnamənin giriş hissəsi qanunvericilikdə nəzərdə tutulub-tutulmamasından asılı olmayaraq müxtəlif əlamətlərlə fərqlənir. Biz bir neçə xarici ölkələrin (**Türkiyə, Belarus, Almaniya Federativ Respublikalarının, Rusiya Federasiyasının, Amerika Birləşmiş Ştatlarının**) məhkəmə qətnamələri üzrə tədqiqat aparıb müəyyən etdik ki, nəinki ölkəmizdə, hətta xarici ölkələrin məhkəmə qətnamələrində də qanunvericilikdə nəzərdə tutulmayan hallar öz əksini tapmaqdadır. Misal üçün, qətnamənin giriş hissəsində baxılan işin nömrəsinin qeyd edilməsi MPM-də nəzərdə tutulmamışdır. Lakin buna bax-

[1] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhifə 393.

[2] Bax: Yenə orada. Səhifə 393.

mayaraq demək olar ki, bütün məhkəmə aktlarında iş nömrələri göstərilir. Bu nəinki ölkədaxili məhkəmə aktlarında eyni zaman xarici ölkələrin də qətnamələrində nəzərdə tutulmuşdur. Məsələn, Türkiyə Respublikasının Əsliyə Hüquq Məhkəməsi**nin 13 aprel 2011-ci il tarixli qərarında**[1] **iş nömrəsi əsas "2010/775" və qərar "2011/245" nömrələri kimi,** Belarusiya Respublikasının Moqilevski Əyalət Ailə Məhkəməsi**nin 11 may 2011-ci il tarixli qətnaməsində iş nömrəsi "220-8/2010" kimi,** Rusiya Federasiyasının Arxangelsk əyalətinin Ustyanskovo rayon Məhkəməsi**nin 02 noyabr 2012-ci il tarixli qətnaməsində iş nömrəsi "2-170/12" kimi,** Amerika Birləşmiş Ştatlarının Arkansas Ştatının Aşley Əyalətinin Dairə Məhkəməsi**nin 30 oktyabr 2009-cu il tarixli qətnaməsində iş nömrəsi "DR-2008-363-2" kimi,** Almaniya Federativ Respublikasının Karlsruhe rayon Məhkəməsi**nin 28 dekabr 2010-cu il tarixli qətnaməsində iş nömrəsi "...7/09" kimi göstərilmişdir. Lakin buna baxmayaraq bəzi xarici ölkələrin bəzi qətnamələrində (məsələn,** Rusiya Federasiyasının Levoberejnıy rayon Məhkəməsi**nin 19 oktyabr 2005-ci il tarixli qətnaməsi və s.) iş nömrələri göstərilməmişdir.**

Hesab edirik ki, məhkəmə qətnaməsinin nəinki giriş hisəsində, ümumiyyətlə onda iş nömrəsinin göstərilməsinə ehtiyac yoxdur.

Bundan başqa təcrübədə istər ölkədaxili məhkəmə qətnamələrində, istərsə də bəzi xarici ölkələrin qətnamələrində qətnamənin giriş hissəsində onun dövlət adından çıxarılması qeydi nəzərdə tutulmuşdur. Məsələn, **Türkiyə Respublikasının Əsliyə Hüquq Məhkəməsi**nin 13 aprel 2011-ci il tarixli qərarında "**T.C.**" ("Türkiye Cumhuriyeti" – müəllif) kimi, **Belarusiya Respublikasının Moqilevski Əyalət Ailə Məhkəməsi**nin 11 may 2011-ci il tarixli qətnaməsində "**Belarusiya Respublikası adından**", **Rusiya Federasiyasının Levoberejnıy rayon Məhkəməsi**nin 19 oktyabr 2005-ci il tarixli qətnaməsində "**Rusiya Federasiyası adından**" ifadəsi göstərilmişdir. Buna baxmayaraq bəzi xarici ölkə qətnamələrində (məsələn, **Amerika Birləşmiş Ştatlarının Arkansas Ştatının Aşley Əyalətinin Dairə Məhkəməsi**nin 30 oktyabr 2009-cu il tarixli qətnaməsində, **Almaniya Federativ Respublikasının Karlsruhe**

[1] **Türkiyə Respublikası**nın mülki prosessual qanunvericiliyində "qətnamə" anlayışı nəzərdə tutulmur və onun daşıdığı statusu "qərar" daşıyır (bax: www.tbmm.gov.tr/kanunlar/k6100.html).



**rayon Məhkəməsi**nin 28 dekabr 2010-cu il tarixli qətnaməsində) onun dövlət adından çıxarılmasına dair hər hansı bir qeyd aparılmamışdır.

Hesab edirik ki, məhkəmə qətnaməsinin dövlətin adından çıxarılmasına dair normativ hüquqi aktda birbaşa göstəriş olduğundan məhkəmə qətnaməsində belə bir qeydin aparılmasına ehtiyac yoxdur.

Bəzən həm ölkədaxili məhkəmə qətnamələrində, həm də xarici ölkə məhkəmə qətnamələrinin əksəriyyətindən həmin dövlətin gerbinin təsviri ilə rastlaşırıq. Belə ki, **Belarusiya Respublikasının Moqilevski Əyalət Ailə Məhkəməsi**nin 11 may 2011-ci il tarixli qətnaməsində, **Almaniya Federativ Respublikasının Karlsruhe rayon Məhkəməsi**nin 28 dekabr 2010-cu il tarixli qətnaməsində müvafiq olaraq təmsil etdikləri dövlətin gerbi qətnamənin giriş hissəsində öz əksini tapmışdır. Lakin, **Türkiyə Respublikasının Əsliyə Hüquq Məhkəməsi**nin 13 aprel 2011-ci il qərarında, **Rusiya Federasiyasının Levoberejnıy rayon Məhkəməsi**nin 19 oktyabr 2005-ci il tarixli qətnaməsində və **Arxangelsk əyalətinin Ustyanskovo rayon Məhkəməsi**nin 02 noyabr 2012-ci il tarixli qətnaməsində, **Amerika Birləşmiş Ştatlarının Arkansas Ştatının Aşley Əyalətinin Dairə Məhkəməsi**nin 30 oktyabr 2009-cu il tarixli qətnaməsində **dövlətin gerbi** təsvir olunmamışdır.

Bəs ölkədaxili məhkəmə qətnamələrində bu vəziyyət necədir?

Məhkəmələrdə apardığımız uzun araşdırmanın nəticəsi kimi qeyd edirik ki, **məhkəmə qətnaməsində dövlət gerbindən istifadə edilməsi iki əsasla həyata keçirilir**:

**a) MPM-in 216.2-ci maddəsinə əsasən (məhkəmə qətnaməni AR adından çıxarır);**

**b) AR-in 1993-cü il 23 fevral tarixli Qanunu il təsdiq edilmiş "AR-in Dövlət gerbi haqqında Əsasnamə"nin 3-cü (AR-in bütün məhkəmələrinin, hərbi tribunallarının binalarına, məhkəmə iclaslarının salonlarına, AR Konstitusiya Məhkəməsi, Ali Məhkəməsi və Ali Arbitraj Məhkəməsi sədrlərinin xidməti kabinetlərinə) və 4-cü bəndinə uyğun olaraq (bu Əsasnamənin 3-cü maddəsində göstərilən dövlət orqanlarının sənədlərinin blanklarında (binalarının lövhələrində)).**

Ötən illərə (2002-ci, 2003-cü, 2004-cü və s.) nisbətdə indi demək olar ki, ölkədaxili məhkəmə qətnamələrinin böyük əksəriyyətində AR-in gerbi təsvir olunur[1].

Hesab edirik ki, məhkəmə qətnaməsində dövlət gerbinin təsvirindən istifadə olunması düzgün deyildir. Birinci halda, bu barədə, yəni AR-in dövlət gerbinin məhkəmə qətnaməsinin giriş hissəsində, eləcə də onun hər hansı hissəsində MPM-də xüsusi olaraq hər hansı bir göstəriş yoxdur. Bu o demək deyil ki, hüquq qadağanedici norma nəzərdə tutmamışdır və bu hal qətnaməni tərtib edən şəxsə bu hüquqdan (gerbin təsvirindən istifadə etmək) istifadə edib-etməməsinə dair hər hansı bir məhdudiyyət qoymur. Əslində analogiyanın və yaxud boşluğun doldurulması o halda mümkün olur ki, normativ hüquqi akt bu analogiyadan və ya boşluğun doldurulmasında istifadə etməyə icazə versin. Lakin belə bir icazənin verilməsi barədə hər hansı bir norma qanunvericilikdə nəzərdə tutulmur.

İkinci halda isə, bu bir qədər diqqətdən doğan məsələdir. Belə ki, AR-in 1993-cü il 23 fevral tarixli Qanunu ilə təsdiq edilmiş "AR-in Dövlət gerbi haqqında Əsasnamə"nin 3-cü bəndinin "v" abzasına əsasən, AR-in bütün məhkəmələrinin, hərbi tribunallarının binalarına, məhkəmə iclaslarının salonlarına, AR Konstitusiya Məhkəməsi, Ali Məhkəməsi və Ali Arbitraj Məhkəməsi sədrlərinin xidməti kabinetlərinə AR Dövlət gerbinin qabarıq təsviri vurulur.

Həmçinin Əsasnamənin 4-cü bəndinin "v" abzasına görə bu Əsasnamənin 3-cü maddəsində göstərilən dövlət orqanlarının sənədlərinin blanklarında (binalarının lövhələrində) Azərbaycan Respublikası Dövlət gerbinin təsvirindən istifadə olunur[2].

Əsasnamənin 6-cı bəndinə əsasən, bu Əsasnamədə göstərilən hallardan başqa AR Dövlət gerbinin təsvirindən istifadə etmək hüququ AR-in parlamenti tərəfindən verilə bilər.

---

[1] Lakin hazırda bəzi məhkəmə qətnamələri var ki, onlarda dövlətin gerbinin təsviri öz əksini tapmır. Məsələn, Şabran Rayon Məhkəməsinin 01 mart 2013-cü il tarixli, 2(031)-52/2013 saylı qətnaməsi (bax: Şabran Rayon Məhkəməsinin arxivi. İş № 2(031)-52/2013).

[2] Bax: www.e-qanun.az/print.php?internal+view&target=1&docid=8175&doctype=0.



**Hesab edirik ki, sərəncamverici sənədlər kateqoriyasına aid olan məhkəmə qətnaməsində AR-in dövlət gerbinin təsvirindən istifadə edilməməlidir və bu istifadədən yalnız məhkəmə qətnamələrinin təqdim edilməsi üçün nəzərdə tutulan müşayətedici məktublarda nəzərdə tutulan blanklarda olunmalıdır.**

Qətnamənin təsviri hissəsində iddiaçının tələbi, cavabdehin etirazları və ya mülahizələri və işdə iştirak edən digər şəxslərin izahatları göstərilməlidir (MPM-in 220.3-cü maddəsi).

**Normativ hüquqi akta görə qətnamənin təsviri hissəsində aşağıdakılar göstərilməlidir:**

**a) iddiaçının tələbi (MPM-in 220.3-cü və 392.1.4-cü maddələri);**

**b) cavabdehin etirazları və mülahizələri (MPM-in 220.3-cü və 392.1.4-cü maddələri);**

**c) işdə iştirak edən şəxslərin izahatları (MPM-in 220.3-cü və 392.1.4-cü maddələri).**

Məhkəmə qətnaməsinin təsviri hissəsində iddiaçının tələbi iddia ərizəsində (iddia ərizəsinə əlavə, iddia tələbinin dəqiqləşdirilməsinə dair ərizə və yaxud bu yönümlü ərizələr varsa onlarda) olduğu kimi göstərilməli, heç nə kəsilməməli, dəyişdirilməməlidir. Əgər iddiaçı anlaşılmayan, yaxud başqa dildə, yaxud səhv sözlər və yaxud işlədilməyən sözlərdən istifadə etmişdirsə o zaman qətnaməni tərtib edən şəxs həmin sözlərin mahiyyəti və məzmunu qalmaq şərti ilə həmin sözləri dəyişikliyə məruz qoya bilər.

Normada "iddiaçı" yalnız iddiaçı üçün deyil, eyni zamanda bu istiqamətdə qərarlaşan şəxslər (müstəqil tələb irəli sürən şəxslər, iddiaçının qanuni mənafeyini müdafiə edən şəxs (MPM-in 50.2-ci maddəsinə müvafiq olaraq) və s.) üçün nəzərdə tutulmuşdur.

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 6.1-ci bəndinə görə, məhkəmə qətnaməsi savadlı, hüquqi cəhətdən düzgün tərtib edilməli, onda anlaşılmayan ifadələr yazılmamalı, hüquqi ifadələr yerində və dəqiq işlədilməlidir.

Cavabdehin etirazları və mülahizələri ona qarşı sürülən tələblə əlaqədar olaraq həm yazılı (MPM-in 154-cü maddəsi), həm də şifahi formada (MPM-in 167.1.2-ci maddəsi) olmaqla məhkəmə qətnaməsinin təsviri hissəsində göstərilməlidir. Normada "cavabdeh" anlamı yalnız cavabdeh üçün deyil, eyni zamanda bu istiqamətdə qərarlaşan şəxslər (müstə-

qil tələb irəli sürməyən şəxslər, maraqlı şəxslər və s.) üçün nəzərdə tutulmuşdur.

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 6.6-cı bəndinə görə, iddiaçı məhkəmə iclasında iddianın predmetini və yaxud əsasını dəyişdirdikdə, iddianın həcmini artırıb-azaltdıqda, cavabdeh iddianı tam və ya qismən etiraf etdikdə bu barədə qətnamədə qeyd edilməli, məhkəmənin bununla razılaşıb-razılaşmamasının səbəbləri qətnamənin əsaslandırıcı hissəsində şərh edilməlidir.

İşdə iştirak edən şəxslərin, hər bir tərəfə ayrılıqda ilk olaraq iddiaçı tərəfin, sonra cavabdeh tərəfin iddiaya və ya qarşılıqlı iddiaya dair izahatları da qətnamənin təsviri hissəsində verilir. İzahatlar həm yazılı (MPM-in 192.1-ci maddəsi), həm də şifahi (MPM-in 192.2-ci maddəsi) formada məhkəməyə verilə bilər və məhkəmə bunu öz qətnaməsində hansı formada verilməsini mütləq göstərməlidir.

MPM-in 220.4-cü maddəsinə əsasən, qətnamənin əsaslandırıcı hissəsində işin məhkəmə tərəfindən müəyyən edilən halları, işin halları barədə məhkəmənin əsaslandırdığı sübutlar və məhkəmənin bu və ya digər sübutları və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər, habelə məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və normativ-hüquqi aktlar göstərilməlidir. Cavabdeh tərəfindən iddia tələbi etiraf edildikdə qətnamənin əsaslandırıcı hissəsində yalnız iddianın etiraf edilməsi və onun məhkəmə tərəfindən qəbul edilməsi göstərilə bilər.

Normativ hüquqi akta görə **qətnamənin əsaslandırıcı hissəsində aşağıdakılar göstərilməlidir:**

**a) işin məhkəmə tərəfindən müəyyən edilən halları (MPM-in 220.4-cü və 392.1.5-ci maddələri);**

**b) işin halları barədə məhkəmənin əsaslandırdığı sübutlar (MPM-in 220.4-cü və 392.1.5-ci maddələri);**

**c) məhkəmənin bu və ya digər sübutları və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər (MPM-in 220.4-cü və 392.1.5-ci maddələri);**

**ç) məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və normativ-hüquqi aktlar (MPM-in 220.4-cü və 392.1.5-ci maddələri);**



**d) cavabdeh tərəfindən iddia tələbinin etiraf edilməsi (MPM-in 220.4-cü və 392.1.5-ci maddələri).**

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 6.2-ci bəndinə görə, qətnamənin əsaslandırıcı hissəsinə xüsusi diqqət verilməlidir. Qətnamənin həmin hissəsində işin məhkəmə tərəfindən müəyyən olunmuş halları, məhkəmənin nəticələrini əsaslandırdığı sübutlar, bu və ya digər sübutları rədd və ya qəbul etmək üçün istinad etdiyi dəlillər, rəhbər tutduğu qanunlar və ya digər normativ aktlar göstərilməlidir.

İşin məhkəmə tərəfindən müəyyən edilən halları iş materiallarına əlavə edilmiş tərəflərin, eləcə də digər yazılı sübutlardır ki, məhkəmə bu sübutların tədqiq nəticəsində işin hallarını müəyən edir.

İddiaçı məhkəmə iclasında iddianın predmetini və yaxud əsasını dəyişdirdikdə, iddianın həcmini artırıb-azaltdıqda, cavabdeh iddianı tam və ya qismən etiraf etdikdə bu barədə qətnamədə qətnamədə qeyd edilməli, məhkəmənin bununla razılaşıb-razılaşmamasının səbəbləri qətnamənin əsaslandırıcı hissəsində şərh edilməlidir ("Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 6.6-cı bəndi).

İşin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar iş üçün əhəmiyyətli olan elə sübutlardır ki, məhkəmə bu sübutlardan istifadə etməklə gəldiyi nəticəni qanuni əsaslandırır.

Həmçinin "Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 6.3-cü bəndinə görə, məhkəmə qətnaməsinin əsaslandırıcı hissəsində sübutlar əlaqəli şəkildə şərh edilməli, bu və ya digər sübutun qəbul edilib-edilməməsinin səbəbləri orada aydın izah edilməlidir.

Qanunvericiliklə müəyyən edilmiş prosessual qaydaların pozulması ilə əldə edilmiş sübutlar məhkəmə qətnaməsinin əsasını təşkil edə bilməz ("Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 6.4-cü bəndi).

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 6.5-ci bəndinə görə, qətnamənin əsaslandırıcı hissəsində məhkəmənin mübahisə edilən hüquq münasibəti barədə gəldiyi nəticə üçün əsas götürdüyü maddi hüquq normaları, istinad etdiyi qanun və ya digər normativ aktın adı, maddəsi, abzası, bəndi, zəruri hallarda məsələlər barədə qərarları da göstərilməlidir.

Məhkəmə qətnamələrinə dair apardığımız araşdırma nəticəsində maraqlı bir faktla rastlaşdıq. Belə ki, birinci instansiya məhkəməsi öz qətnaməsində MPM-in 217.2-ci maddəsinə istinad edərək hüquq münasibətinin yarandığı zaman (1987-ci il) qüvvədə olan normativ hüquqi aktın normalarına istinad etmişdir. Lakin qətnamədə eyni zamanda qüvvədə olan Konstitusiyanın bəzi müddəalarını, həmçinin Avropa Məhkəməsinin 2008-ci il tarixli qərarından da nümunələr (bəndlər) göstərilmişdir. Hesab edirik ki, MPM-in 217.2-ci maddəsinə bu cür yanaşma düzgün deyildir və məhkəmə öz qətnaməsində yalnız mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan və hüquqi qüvvəsindən asılı olmayaraq maddi hüquq normalarından istifadə edilməlidir.

Məhkəmə mübahisəni hüquqin analogiyası qaydasında həll edərkən qətnamənin əsaslandırıcı hissəsində Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinə və presedent hüququna da istinad edə bilər ("Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 2.2-ci bəndi).

Müasir dövrdə hüquqda natamamlığın olması mübahisənin həll edilmədən kənarda qalması qeyri-mümkündür. Belə ki, ölkədaxili qanunvericilikdə nəzərdə tutulmayan qanun və ya hüquq bəzən beynəlxalq sənədlərdə öz əksini tapır. Bu zaman dövlət beynəlxalq sənədin normalarını tətbiq edərək həm yaranmış boşluğu aradan qaldırır, həm də mübahisənin ədalətli həll olunmasına nail olur. Bunun üçün çox hallarda biz **Avropa İnsan Hüquqları Məhkəməsinin** qərarlarına və presedent hüququna müraciət edirik.

Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkil edilməsi və onun məhkəmə təcrübəsində nəzərə alınması AR Ali Məhkəməsinə, AR apellyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə tövsiyə edilmişdir[1].

Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Kovensiyasının müddəalarının və İnsan hüquqları üzrə Avropa məhkəməsinin presedentlərinin tətbiqi haqqında" AR Ali Məhkəməsinin 30 mart 2006-cı il tarixli 5

[1] Bax: "AR-da məhkəmə sisteminin müasirləşdirilməsi və "AR-in bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" AR Qanununun tətbiq edilməsi barədə" AR Prezidentinin 19 yanvar 2006-cı il tarixli, 352 saylı Fərmanının 6-cı bəndi.



saylı Qərarının 2-ci bəndinə görə, AR "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının iştirakçısı və onu 2002-ci ilin aprel ayının 15-də ratifikasiya etmiş dövlət kimi Konvensiya və onun Protokollarını təfsiri və tətbiqi məsələləri üzrə İnsan Hüquqları və onun Protokollarının təfsiri və tətbiqi məsələləri üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasının məcburiliyini tanıyır.

AR Konvensiyanı ratifikasiya etdiyi dövrdən sonra yurisdiksiyası altında olan insanların Konvensiyada nəzərdə tutulan hüquqlarını təmin etməlidir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq, o cümlədən Avropa İnsan Hüquqları Məhkəməsinin həmin hüquqların təmininə yönəlmiş qərarlarının icrası qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsidir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericiliklə yanaşı, Konvensiya müddəalarını da rəhbər tutmalı və bu zaman Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər.

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyaya dair 20 mart 1952-ci il tarixli Paris Protokolun 1-ci maddəsinə görə hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən dinc istifadə hüququna malikdir[1]. Heç kəs, cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz. Yuxarıdakı müddəalar dövlətin ümumi maraqlara müvafiq olaraq, mülkiyyətdən istifadəyə nəzarəti həyata keçirmək üçün, yaxud vergilərin və ya digər rüsum və ya cərimələrin ödənilməsinin təmin etmək üçün zəruri olan qanunları yerinə yetirmək hüququnu məhdudlaşdırmır.

1 saylı Protokolun 1-ci maddəsi yalnız şəxsin hal-hazırda mövcud olan mülkiyyət barəsindəki tələblərinə şamil olunur. Başqa sözlə, 1-ci maddə gələcəkdə mülkiyyət əldə etmək hüququna təminat vermir.

İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsinə (ədalətli məhkəmə araşdırması hüququ) əsasən, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittiha-

[1] Bax: "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası. "Qanun" nəşriyyatı. Bakı, 2008. Səhifə 26.

mı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Göstərilən maddəni şərh edən zaman müəyyən olunur ki, hər kəs ədalətli məhkəmə araşdırması hüququna malikdir. Bu ifadə lazımi qaydada həyata keçirilən məhkəmə araşdırmasının bir çox aspektlərini: məsələn, məhkəməyə müraciət hüququ və sair məsələləri əhatə edir.

Avropa Məhkəməsinin mövqeyinə görə, 6-cı maddənin 1-ci bəndinin mülki işlərdə tərəflərə verilən prosessual təminatları ətraflı təsvir etməli olduğunu düşünmək və ilk növbədə həmin təminatlardan praktiki olaraq istifadə etmək hüququnu, yəni məhkəməyə müraciət hüququnu qorumadığını düşünmək ağlasığmaz olardı. Lakin göründüyü kimi, məhkəməyə müraciət hüququ, tam şəkildə Konvensiya tərəfindən məhdudlaşdırılır. Bu, məhkəməyə müraciət hüququnun funksiyalarının böyük bir hissəsinin inkişafını qanunlar vasitəsi ilə dayandırmaq deməkdir.

Yuxarıdakı müddəalar dövlətin ümumi maraqlara müvafiq olaraq, mülkiyyətdən istifadəyə nəzarəti həyata keçirmək üçün, yaxud vergilərin və ya digər rüsum və ya cərimələrin ödənilməsini təmin etmək üçün zəruri hesab etdiyi qanunlar yerinə yetirmək hüququnu məhdudlaşdırmır[1]. Bu hüququn bəzən beynəlxalq sənədlərdə müəyyən dərəcədə yer edərək özünü göstərməsi çox mühüm bir əlamət kimi dəyərləndirilməlidir[2].

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 7-ci bəndinə görə, apellyasiya instansiyası məhkəməsi şikayəti təmin etmədikdə və ya birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirdikdə hansı dəlillərə əsasən şikayətin təmin edilmədiyini və yaxud qətnamənin dəyişdirildiyini göstərməyə borcludur.

[1] Bax: Avropa İnsan Hüquqları Konvensiyası. 11 nömrəli Protokola uyğun olaraq düzəliş edilən mətn. Avropa Şurası Müqavilələr Seriyası (CE-TS) No.5. Səfihə 34; Ajda Grigic, Zvonimir Matağa, Matija Longar və Ana Vilfan. Avropa İnsan Hüquqları Konvensiyası Çərçivəsində Mülkiyyət Hüququ. Avropa İnsan Hüquqları Konvensiyasi və Əlavə Protokolların Tətbiqinə dair Məlumat Kitabçası, sayı 10. "Avropa Şurası". Bakı, 2008. 48 səhifə.

[2] Ətraflı məlumat üçün bax: Paşa İbiş oğlu Səfərov. Ləyaqətsiz vərəsə hüququ. Bakı. "Digesta" nəşriyyatı, 2012. Səhifə 63-65.



Məhkəmə qətnaməsinin sonuncu hissəsi onun nəticə hissəsidir (MPM-in 220.5-ci, 220.6-cı və 392.1.6-cı maddələri).

MPM-in 220.5-ci maddəsinə əsasən, qətnamənin nəticə hissəsində iddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin hansı nəticəyə gəldiyi, məhkəmə xərclərinin bölüşdürülməsi, qətnamədən şikayət vermə müddəti və qaydası göstərilməlidir; işə qiyabi baxıldığı halda qətnamənin nəticə hissəsində cavabdehin qətnamənin ləğvi üçün ərizə vermə qaydası da əks olunmalıdır.

Normativ hüquqi aktın normasına görə **qətnamənin nəticə hissəsi aşağıdakılar göstərilməlidir:**

**a) iddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin hansı nəticəyə gəldiyi (MPM-in 220.5-ci və 392.1.6-cı maddələri);**

**b) məhkəmə xərclərinin bölüşdürülməsi (MPM-in 220.5-ci və 392.1.6-cı maddələri);**

**c) qətnamədən şikayət vermə müddəti və qaydası (MPM-in 220.5-ci və 392.1.6-cı maddələri);**

**ç) işə qiyabi baxıldığı halda qətnamənin nəticə hissəsində cavabdehin qətnamənin ləğvi üçün ərizə vermə qaydası (MPM-in 220.5-ci maddəsi);**

**d) əlavə qətnamə çıxarıldığı halda onun çıxarılmasına səbəb olan hal (MPM-in 229-cu və 392-1-ci maddəsi);**

**e) apellyasiya instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamə üzrə birinci instansiya məhkəməsinin qətnaməsinə dair mövqe (MPM-in 392.1.6-cı maddəsi).**

**ə) məhkəmə qətnaməsinin icra qaydası və müddətinin müəyyən edilməsi (MPM-in 220.6-cı maddəsi).**

Əslində MPM-ə uyğun olaraq bəzi işlər üzrə qəbul olunan məhkəmə qətnaməsi üzrə müəyyən tələblərin məhkəmənin nəticə hissəsində öz əksini tapması labüddür. Bu hal nəinki MPM-lə, hətta başqa məcəllələrlə nəzərdə tutulduğu halda da həyata keçirilməlidir ki, bu gələcəkdə qətnamənin icrasında hər hansı bir problem yaratmasın.

İddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin hansı nəticəyə gəldiyi əsas hissə olub məhkəmə qətnaməsinin nəticə hissəsində birinci və mütləq tam şəkildə tələb tam əhatə olunmaqla göstərilməlidir (**məsələn, "İddiaçı Əliyev Əhliman Səməd**

**oğlunun cavabdeh Musayev Qalib Habil oğluna qarşı pul tələbinə dair iddiası təmin edilsin" və s.).**

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 8.1-ci bəndinə görə, işdən qarşılıqlı iddia verildikdə qətnamənin əsaslandırıcı hissəsində həm ilkin, həm də qarşılıqlı iddia ayrı-ayrılıqda əsaslandırılmalı və qətnamənin nəticə hissəsində hər bir iddianın hansı qaydada həll olunması aydın göstərilməlidir. Bir icraata bir neçə tələb birləşdirildikdə və yaxın işdə müstəqil tələb irəli sürən 3-cü şəxslər iştirak etdikdə qətnamənin nəticə hissəsində bütün tələblər üzrə qərar qəbul edilməlidir.

Həmçinin Qərarın 8.2-ci bəndinə əsasən, məhkəmə bir neçə cavabdeh barədə qətnamə çıxardıqda, cavabdehlərin hər birinin qətnaməni hansı hissədə yerinə yetirməli olmasını və ya onların məsuliyyətlərinin müştərək olmasını göstərməlidir.

İddia tələbi qismən təmin edildikdə qətnamədə əvvəl iddianın təmin olunan hissəsi, sonra isə təmin olunmayan hissəsi əsaslandırılmalı, qətnamənin nəticə hissəsində iddianın kimin haqqında hansı hissəsində təmin və yaxud rədd olunması konkretləşdirilməlidir.

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 6.12-ci bəndinin tələbinə görə, işə qiyabi icraat qaydasında baxıldıqda qəbul edilən qətnamə "qiyabi qətnamə" adlandırılmalı, qətnamənin nəticə hissəsində qətnaməyə yenidən baxılması üçün ərizənin verilməsi vaxtı və qaydası qeyd edilməlidir.

Əmək tələbi barədə idddialar təmin olunduqda gələcəkdə qətnamənin icrasının müəyyənliyini və mümkünlüyünü təmin etmək məqsədilə qət edilən əşyaların hər birinin ayrı-ayrılıqda dəyəri və qət olunan əmlakın cavabdehdən naturada alınması mümkün olmadığı hallarda həmin əmlakın dəyətinin pulla ödənilməsi də qətnamədə həll olunmalıdır ("Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 9.2-ci bəndi).

MPM-in 222.1-ci maddəsinə əsasən, məhkəmə əmlakın natura şəklində alınmasını qət etdikdə onun adını, alınmalı əmlak qətnamə icra olunan vaxt mövcud olmasa, cavabdehdən alınmalı əmlakın dəyərini, habelə alınmalı əmlakın yerləşdiyi yeri və ya əmlaka görə iddiaçıya verilməsi qət olunmuş məbləğin **cavabdehin bankdakı hansı hesabından silinməli olması**nı qətnamənin nəticə hissəsində göstərir.



Pul vəsaitlərinin tutulması haqqında iddianı təmin edərkən hakim əsas borcu, ziyan və dəbbə pulunu (cərimə, penya) ayrı-ayrılıqda müəyyən etməklə, **alınmalı olan ümumi məbləği** qətnamədə göstərir (MPM-in 222.2-ci maddəsi)[1].

Qətnamədə alınması və yaxud ödənilməsi müəyyən edilən məbləğlər Azərbaycan Respublikasının milli pul vahidi ilə ifadə olunmalıdır. Əgər iddia tələbi xarici valyuta ilə göstərilərsə, alınan və ya ödənilən məbləğin **qətnamənin icra olunduğu günə olan manat məzənnəsi ilə hesablanması** göstərilməlidir ("Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumunun Qərarının 10-cu bəndinə).

Məhkəmə əmlakın və ya pul məbləğlərinin verilməsi ilə əlaqədar olmayan müəyyən hərəkətləri etməyə cavabdehi məcbur edən qətnamə çıxardıqda, **qətnamənin nəticə hissəsində kimin, harada, nə vaxt və ya hansı müddətdə həmin hərəkəti etməyə borclu olması**nı göstərir.

Cavabdeh müəyyən edilmiş vaxt ərzində qətnaməni icra etməsə, məhkəmə zəruri hesab etdikdə iddiaçının cavabdehdən zəruri xərcləri almaqla, həmin **hərəkətləri cavabdehin hesabına etməyə haqlı olması**nı qətnamədə göstərə bilər.

Həmin hərəkətlər yalnız cavabdeh tərəfindən edilə bilərsə, məhkəmə **qətnamənin icra edilmə müddəti**ni qətnamədə göstərir (MPM-in 223-cü maddəsi).

MPM-in 224-cü maddəsinə əsasən, notariusun icra qeydi əsasında ödənilmə daxil olmaqla, ödənilməsi mübahisəsiz (akseptsiz) qaydada həyata keçirilən icra və ya digər sənədlərin icra edilməməli hesab olunmasına dair mübahisələri həll edərkən qətnamənin nəticə hissəsində **icra edilməli olmayan sənədin adı, sıra sayı və tarixi, habelə silinməli olmayan məbləğ** göstərilməlidir.

Müqavilənin bağlanması və dəyişdirilməsi zamanı yaranan mübahisələr üzrə qətnamənin nəticə hissəsində müqavilənin hər bir mübahisəli şərti üzrə qərar göstərilməlidir, müqavilənin bağlanmasını məcbur edən mübahisə üzrə isə **tərəflərin bağlamağa borclu olduqları müqavilənin şərtləri** göstərilir (MPM-in 225-ci maddəsi).

[1] Belə bir müddəa eyni zamanda "Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 9.3-cü bəndində nəzərdə tutulub.

Məhkəmə bir neçə iddiaçının xeyrinə qətnamə çıxardıqda, onlardan hər birinə aid olan hissəni və ya tələb hüququnun **müştərək olmasını** göstərir.

Məhkəmə bir neçə cavabdehin əleyhinə qətnamə çıxardıqda, cavabdehlərdən hər birinin qətnaməni hansı hissədə yerinə yetirməli olmasını və ya **onların məsuliyyətlərinin müştərək olmasını** göstərir (MPM-in 226-ci maddəsi).

Bundan başqa məhkəmə qətnaməsinin nəticə hissəsində hər bir tələbə uyğun olaraq müəyyən hallar göstərilə bilər. Məsələn, hüquqşünas **B.Kərimli** göstərir ki, hüquqi əhəmiyyətli faktın müəəyən edilməsində ərizəçinin məqsədi qətnamənin həm əsaslandırıcı, həm də nəticə hissəsində göstərilə bilər... MPM-in 307.2.1-307.2.11-ci maddələrində göstərilən hüquqi əhəmiyyətli faktların hər birinin öz xüsusiyyəti olduğuna görə qətnamənin nəticə hissəsində həmin faktlara dair müəyyən edilən hallar da bir-birindən fərqlənəcəkdir, lakin hüquqi faktın müəyyən edilməsinə dair bütün qətnamələrin nəticə hissəsində ərizəçinin müəyyən edilməsini xahiş etdiyi hüquqi faktın mövcud olması, yaxud olmaması birmənalı şəkildə göstərilməlidir[1].

**Məhkəmənin nəticə hissəsində məhkəmə xərclərinin bölüşdürülməsi məsələsi MPM-in 107-124-cü maddələrinə əsasən həyata keçirilir.**

Qətnamədən şikayət vermə müddəti və qaydası birinci instansiya məhkəməsi tərəfindən qəbul olunan qətnamə üzrə MPM-in 358-ci, 360-cı, 362-ci maddələrinə, apellyasiya instansiya məhkəməsi tərəfindən qəbul olunan qətnamə üzrə MPM-in 402-406-cı maddələrinə, işə qiyabi icraat qaydasında baxıldığı halda qətnamənin ləğvi üçün ərizə vermə müddəti və qaydası MPM-in 244-cü maddəsinə, iş üzrə əlavə qətnamə çıxarıldığı halda MPM-in 229-cu və 392-1-ci maddələrinə uyğun olaraq həyata keçirilir. Məhkəmə qətnaməsinin nəticə hissəsində ondan şikayət verilmə müddəti və qaydası tərəfin başa düşəcəyi tərzdə mümkün qədər aydın yazılmalıdır. Məsələn, birinci instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamədə **"Qətnamədən onun rəsmi qaydada verildiyi (alındığı) gündən 1 (bir) ay müddətində Bakı şəhəri Xəzər Rayon**

[1] Ətraflı məlumat üçün bax: B.C.Kərimli (h.e.f.d.). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. III Yarımbölmə. Xüsusi icraat (305-355-ci maddələr). Bakı. "Digesta" nəşriyyatı. 2010. Səhifə 97-99.



**Məhkəməsi vasitəsilə Bakı Apellyasiya Məhkəməsinin mülki işlər üzrə kollegiyasına apellyasiya şikayəti verilə bilər."** kimi, apellyasiya instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamədə isə **"Qətnamədən onun rəsmi qaydada verildiyi (alındığı) gündən 2 (iki) ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsilə Ali Məhkəmənin mülki işlər üzrə kollegiyasına kassasiya şikayəti verilə bilər."** kimi göstərmək olar.

Əlavə qətnamə üzrə də eyni qaydanı tətbiq edilir, lakin bu zaman **"qətnamə"** əvəzinə **"əlavə qətnamə"** sözü göstərilməlidir. Məsələn, **"Əlavə qətnamədən onun rəsmi qaydada verildiyi (alındığı) gündən 1 (bir) ay müddətində Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi vasitəsilə Bakı Apellyasiya Məhkəməsinin mülki işlər üzrə kollegiyasına apellyasiya şikayəti verilə bilər."**

Qiyabi qətnamənin nəticə hissəsində onun həm MPM-in 244-cü maddəsində, həm də 252-ci maddəsində göstərilən şikayət verilmə müddəti və qaydası göstərilməlidir. Misal üçün, **"Cavabdeh qətnamənin ona rəsmi qaydada verilməsindən (alınmasından) sonra 10 (on) gün müddətində Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə onun ləğvi haqqında ərizə verə bilər. Qətnamədən onun rəsmi qaydada verildiyi (alındığı) gündən 1 (bir) ay müddətində Bakı şəhəri Yasamal Rayon Məhkəməsi vasitəsilə Bakı Apellyasiya Məhkəməsinin mülki işlər üzrə kollegiyasına apellyasiya şikayəti verilə bilər."** və s.

MPM-in 220.6-ci maddəsinə əsasən, məhkəmə qətnamənin icra qaydası və müddətini müəyyən etdiyi və ya onun icrasının təmin edilməsi üçün tədbirlər gördüyü hallarda, bunu qətnamənin nəticə hissəsində göstərməlidir.

Məhkəmə tərəfindən qətnamənin icra qaydası qanunun tələbindən və işin hallarından asılı olaraq müəyyən olunur. Əgər məhkəmə öz qətnaməsinin icrası üçün bu və ya digər qaydanı tətbiq etməyi məqsədəuyğun hesab edirsə və yaxud həmin qayda-qanuna əsasən tətbiq edilməlidirsə, qətnamənin mətnində onun icra qaydası da müəyyənləşdirilməlidir ("Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 11.1-ci bəndi).

Məhkəmə mahiyyəti üzrə baxdığı mübahisənin yalnız müəyyən bir hissəsi üzrə işin icraatına qismən xitam verdikdə və ya iddia ərizəsini iddianın yalnız müəyyən bir hissəsi üzrə baxılmamış saxladıqda, bu ba-

rədə məhkəmənin gəldiyi nəticə qətnamənin nəticə hissəsində göstərilə bilməz. Çünki qətnamə işi mahiyyəti üzrə həll edən məhkəmə aktıdır və ona görə də işin mahiyyəti üzrə həll edilmədən yekunlaşdırılmasının nəticələrinin (işin icraatına xitam verilməsi, ərizənin baxılmamış saxlanılması və s.) qətnamənin nəticə hissəsində göstərilməsi yolverilməzdir. Bu məsələlər barəsində məhkəmə tərəfindən qərardad çıxarılır (MPM-in 258.1-ci, 260.1-ci, 262.1-ci və 263-cü maddələri)[1].

## VI FƏSİL

## Məhkəmə qətnamələrinin surətlərinin işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməsi

MPM-in 134.1.5-ci maddəsinə əsasən, birinci instansiya məhkəməsinin, apellyasiya və kassasiya məhkəmələrinin aktlarını məhkəmə işdə iştirak edən şəxslərə rəsmi qaydada verməlidir.

Mülki işlərə dair icraat üzrə qəbul edilən məhkəmə aktlarından yeganə olanıməhkəmə qərardadlarıdır ki, onun surətinin işdə iştirak edən şəxslərə **rəsmi qaydada verilməsi** MPM-də müstəqil norma kimi (maddə 266) nəzərdə tutulmuşdur.

Məhkəmə qətnaməsinin isə surətinin işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməsi halının MPM-də xüsusi norma kimi nəzərdə tutulması **yalnız qiyabi qətnaməyə məxsusdur**. Belə ki, MPM-in 243-cü maddəsi qiyabi qətnamə çıxarıldıqdan sonra 10 gündən gec olmayan müddətdə işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməsini müəyyən edir[2].

Bundan başqa ümümi olaraq birinci instansiya məhkəməsi tərəfindən qəbul olunan qətnamənin surətinin işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməsi MPM-in 227.3-cü maddəsində nəzərdə tutulmuşdur. Sö-

---

[1] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). **Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr).** Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhifə 394.

[2] Bu hal **Özbəkistan Respublikası**nın MPM-in 223-cü maddəsində nəzərdə tutulmuşdur (www. Lex.uz/Pages/GetAct.aspx?lact_id=186098).



**zügedən normaya görə, məhkəmənin qətnaməsi işdə iştirak edən şəxslərə tərtib edildikdən sonra 3 gün ərzində rəsmi qaydada verilməlidir.**

**Beləliklə,** qətnamənin işdə iştirak edən şəxslərə verilməsinin rəsmi qaydası MPM-in 227.3-cü və 243-cü maddələrində nəzərdə tutulmuşdur.

Ümumiyyətlə **məhkəmə qətnaməsinin surətlərinin işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməsi özlüyündə 3 qrupa ayrılır:**

1) **birbaşa təqdim etmə;**

2) **bilavasitə təqdim etmə;**

3) **elan etmə**[1].

Göstərilən hər üç halda aparılan hərəkətlər rəsmi qaydada həyata keçirilməlidir.

**Birbaşa təqdim etmə məhkəmə tərəfindən həyata keçirilir.** Belə ki, məhkəmə qətnamələri ya elan edildikdən dərhal sonra, ya da ki, tərəfin müraciəti əsasında məhkəmə işçiləri (məhkəmənin kargüzarlıq işçisi və s.) tərəfindən şəxsə verilməklə və bu barədə müvafiq qəbzə imza etdirməklə həyata keçirilir[2].

**Bilavasitə təqdim etmə üzərinə məhkəmə sənədlərinin çatdırılması və rəsmi qaydada verilməsi vəzifəsi qoyulmuş şəxslər vasitəsilə həyata keçirilir.** Bu şəxslər poçt idarələrinin işçiləri, iş üzrə tərəflər, məhkəmə işçiləri və s. şəxslər olmaqla bu vəzifəni müvafiq məhkəmə qətnaməsini verməyi təsdiq edən bildirişə (məsələn, poçt işçisi sifarişli xəbərnamənin sənədi alan şəxs qrafasında) imza etdirməklə həyata keçirməlidir.

Bilavasitə təqdim etmə zamanı MPM-in 135-ci və 136-cı maddələrinin tələbləri mütləq şəkildə nəzərə alınmalıdır.

MPM-ə müvafiq olaraq şikayət verilmənin müddətinin dəqiq müəyyən edilməsi üçün qətnamələr işdə iştirak edən şəxslərə və aidiyyəti olan digər şəxslərə rəsmi qaydada verilərkən, bu barədə məhkəməyə dərhal məlumat verilməlidir.

---

[1] Əlavə məlumat üçün bax: Paşa İbiş oğlu Səfərov. Mülki işlər üzrə məhkəmə qərardadları (nümunələrlə). Bakı, "Digesta" nəşriyyatı, 2012. Səhifə 33.

[2] AR Ədliyyə Nazirliyi Kollegiyasının 29 noyabr 2011-ci il tarixli, 3-N saylı qərarı ilə təsdiq edilmiş "Məhkəmələrdə kargüzarlığın aparılmasına dair" Təlimatın 38-ci əlavəsində mülki iş üzrə məhkəmə qəbzinin nümunəsi verilmişdir.

**Elan etmə əslində yalnız MPM-də məhkəmə qərardadlarına xas olan bir əlamətdir**[1]. Belə ki, MPM-in 268.2-ci maddəsinin tələbinə görə, qərardad ondan şikayət vermək hüququna malik olan şəxslərin yanında elan edilmişdirsə, şikayət vermə müddəti qərardadın elan olunduğu vaxtdan hesablanır[2].

Elan etmə məhkəmə iclas protokoluna qeyd etməklə həyata keçirilir.

Hesab edirik ki, gələcəkdə məhkəmə qətnaməsindən şikayət vermə müddətinin düzgün hesablanması üçün elan etmə məhkəmə qərardadları ilə yanaşı məhkəmə qətnamələrinə də şamil ediləcək və bu barədə MPM-ə müvafiq əlavələr olunacaqdır. Biz bu əlavə ilə bağlı aşağıdakı qaydada mətn təklif edirik.

**Maddə 360-1. Apellyasiya şikayəti verilmə müddətinin hesablanması**

**Məhkəmə qətnaməsi hissəvi şəkildə verilmişdirsə verildiyi andan, ondan şikayət vermək hüququna malik olan şəxslərin yanında elan edilmişdirsə, şikayət vermə müddəti qətnamənin elan olunduğu vaxtdan hesablanır**[3].

Ümumiyyətlə məhkəmə tərəfindən çıxarılan bütün **qətnamələrin surətinin işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyini təsdiq edən sənədlər (qəbz, məhkəmə iclasının protokolu və s.) iş materiallarına əlavə olunmalıdır.**

Qətnamənin surətinin rəsmi qaydada verilməsini təsdiq edən sənədin (qəbzin, məhkəmə iclas protokolunun və s.) iş materiallarına əlavə olunması həmin qətnamədən şikayət vermək üçün qanunla nəzərdə tutulacaq prosessual müddətin axımının başlanğıc müddətinin müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir.

---

[1] Bax: Paşa İbiş oğlu Səfərov. Mülki işlər üzrə məhkəmə qərardadları (nümunələrlə). Bakı, "Digesta" nəşriyyatı, 2012. Səhifə 33-34.

[2] Göstərilən hallar məhkəmə tərəfindən müstəqil akt şəklində tərtib olunan qərardadlara aid edilir.

[3] Bu mətnlə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin "**Biryukov Rusiyaya qarşı**" işi üzrə qəbul etdiyi qərarla tanış olmaq məsləhət görülür.



**Şikayət müddətinin başlanması qətnamənin rəsmi qaydada verilməsini nəzərdə tutan sənəddə göstərilən tarixdən (təqvimdən) sonrakı tarix (təqvim) hesab olunur (MPM-in 128.3-cü, 233-cü, 244-cü, 360-cı və s. maddələri)**[1].

## VII FƏSİL
## Mülki işlər üzrə məhkəmə qətnamələrinin qanuni qüvvəyə minməsi

AR müstəqillik qazandıqdan sonra beynəlxalq dövlətlər birliyinin tam hüquqlu üzvi kimi, özünün demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda, beynəlxalq hüququn ölkədaxili qanunvericilikdə tətbiqinin müsbət nəticəsi olaraq vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi və qorunması, qanunlarımızın və dövlətimizin qoşulduğu beynəlxalq münasibətlərdə insan hüquq və azadlıqlarının qorunmasına dair müddəaların həyata keçirilməsi sayəsində məhkəmə nəzarətinin yüksəldilməsi, məhkəmə-hüquq islahatı ilə əlaqədar qəbul edilmiş qanunlar, məhkəmə islahatları nəticəsində üçpilləli məhkəmə sisteminin yaradılması, habelə məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı müxtəlif qanunvericilik aktlarının qəbul edilməsi, fiziki və hüquqi şəxslərin hüquqlarının məhkəmə müdafiəsi imkanlarının daha da genişlənməsi sahəsində mühüm irəliləyişlər və nailiyyətlər əldə edib.

AR-in Konstitusiyasının 129-cu maddəsinə əsasən, **məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir**. AR adından çıxarılan və ədalət mühakiməsinin yekun aktı olan

---

[1] Bəzi müəlliflər hesab edirlər ki, müddətin başlanması həmin gündən hesab edilməlidir. Məsələn, hüquqşünas **B.Əsədov** hesab edir ki, məhkəmə qətnaməsindən apellyasiya şikayəti verilmə müddəti 1 ay müəyyən edilib. Apellyasiya şikayətinin verilmə müddətinin başlanğıcı qətnamənin təqdim edildiyi və yaxud alındığı gündən hesablanır (Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə 447.). **Hesab edirik ki, müəllifin bu münasibəti MPM-in 128.3-cü maddəsinin tələbi baxımından düzgün deyildir.** Belə halda müddətin başlanğıcı qətnamənin təqdim edildiyi (alındığı) gündən deyil, ondan sonra gələn gündən başlayacaqdır.

məhkəmə qətnaməsinin hüquqi, nəzəri, təcrübi cəhətdən düzgün tərtib edilməsi və onun hüquqi qüvvəsinin vaxtında alınmasına, habelə onun icrasına nəzarət vətəndaşların məhkəmə orqanlarına olan inamını artırır, onların hüquqi vasitələrlə tərbiyə olunmasına xidmət edir. Lakin bunun-la yanaşı, bəzən **prosessual hüquq normalarının pozulması**na da təsadüf olunur.

Son zamanlar məhkəmə təcrübəsində mübahisələndirilən hüquq normalarının tətbiqi ilə əlaqədar olaraq məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi müddəti və qaydası aktual mövzuya çevrilmişdir[1].

İşdə iştirak edən şəxslər işin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək və surət çıxarmaq, etirazlar vermək, sübutlar təqdim etmək və onların tədqiqində iştirak etmək, işdə iştirak edən digər şəxslərə, şahidlərə, ekspertlərə və mütəxəssislərə suallar vermək, vəsatətlər, o cümlədən də əlavə sübutların tələb edilməsi barədə vəsatətlər vermək, məhkəməyə şifahi və yazılı izahatlar vermək, məhkəmə prosesinin gedişi vaxtı ortaya çıxan bütün məsələlər barədə dəlillər gətirmək, işdə iştirak edən digər şəxslərin vəsatət və dəlillərinə etiraz etmək, məhkəmə qərarlarından şikayət etmək və mülki məhkəmə icraatı barədə qanunvericilikdə verilən digər prosessual hüquqlardan istifadə etmək hüququna malikdirlər (MPM-in 47.2-ci maddəsi).

Normativ hüquqi aktın sözügedən normasının məzmunundan müəyyən olunur ki, işdə iştirak edən şəxslərin məhkəmə qərarlarından şikayət etmək hüququ var. Məhz bunun üçün **məhkəmə qərarlarından şikayət vermə institutu məhkəmə qərarlarının qanuni qüvvəyə minməsi institutu ilə sıx əlaqədədir**.

"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsinin Plenumu Qərarının 16.1-ci bəndinə görə, məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən onun məcburilik və preyudisiallıq xüsusiyyətləri əmələ gəlir.

Həmçinin Qərarın 16.2-ci bəndinə əsasən, qətnamə qanuni qüvvəyə mindikdən sonra tərəflər və işdə iştirak edən digər şəxslər, habelə onların hüquq varisləri məhkəmədə eyni iddia tələblərini, eyni əsaslar üzrə yenidən irəli sürə bilməzlər, o cümlədən məhkəmə tərəfindən müəyyən

[1] Bax: Paşa Səfərov. Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi. "Paritet" qəzeti. 13-14 iyul 2010-cu il, №70 (1513). Səhifə 13.



edilmiş faktlarla və hüquq münasibətlərinə qarşı başqa prosesdə mübahisə edə bilməzlər.

Hüquqşünas **V.Mirkamal** hesab edir ki, məhkəmə aktlarının qanuni qüvvəsi dedikdə;

1) məhkəmə aktının qanuni qüvvəyə minməsi üçün qanunda nəzərdə tutulmuş müddətin tamam olması;

2) həmin aktın hər hansı dövlət və ya inzibati orqan tərəfindən ləğv edilməsi və ya dəyişdirilməsi imkanının aradan qalxması[1];

3) inzibati orqanlar və ya vəzifəli şəxslərin qanuni qüvvəyə minmiş məhkəmə aktına zidd olan qərarlar qəbul etməsinin yolverilməzliyi;

4) təqsirsizlik fərziyyəsinin aradan qaldırılması;

5) həmin mübahisə üzrə başqa işə baxılmasının yolverilməzliyi və s. anlaşılmalıdır[2].

MPM-də mülki işlər üzrə məhkəmə qətnamələrinin qanuni qüvvəyə minməsi ilə bağlı müxtəlif maddələr nəzərdə tutulmaqdadır ki, bu maddələr həm xüsusi, həm də ümumi xarakter daşıyır.

Birinci instansiya məhkəməsi tərəfindən çıxarılan məhkəmə qətnamələrinin qanuni qüvvəyə minməsi ilə bağlı MPM-in 233-cü, birinci instansiya məhkəməsi tərəfindən çıxarılan qiyabi məhkəmə qətnamələrinin qanuni qüvvəyə minməsi ilə bağlı MPM-in 252-ci (MPM-in 252-ci maddəsi MPM-in 233-cü maddəsində nəzərdə tutulmuş qaydaları müəyyən edir), apellyasiya instansiya məhkəməsi tərəfindən çıxarılan məhkəmə qətnamələrinin qanuni qüvvəyə minməsi ilə bağlı MPM-in 393-cü maddələrində nəzərdə tutulmuşdur[3].

Araşdırmamıza başlamazdan öncə həmin maddələrin tam mətnini olduğu kimi təqdim edirik:

**"Maddə 233. Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi**

**233.1. Məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, qəbul edildiyi gündən 1 ay keçdikdən sonra qanuni qüvvəyə minir.**

[1] Bu münasibəti düzgün hesab etmirik.
[2] Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə 19.
[3] Belə bir hal **Özbəkistan Respublikası**nın MPM-in 217-ci maddəsində də öz əksini tapıb (www. Lex.uz/Pages/GetAct.aspx?lact_id=186098).

233.2. Çıxarılmışdır.

233.3. Qətnamə qanuni qüvvəyə mindikdən sonra tərəflər və işdə iştirak edən digər şəxslər, habelə onların hüquq varisləri məhkəmədə eyni iddia tələblərini, eyni əsas üzrə yenidən irəli sürə bilməzlər, habelə məhkəmə tərəfindən müəyyən edilmiş faktlara və hüquq münasibətlərinə qarşı başqa prosesdə mübahisə edə bilməzlər.

233.4. Cavabdehdən vaxtaşırı ödəmələrin alınmasını qət edən qətnamə qanuni qüvvəyə mindikdən sonra, ödəmələrin miqdarını müəyyənləşdirən və ya onların davam etməsinə təsir edən hallar dəyişərsə, hər bir tərəf yeni iddia vermək yolu ilə ödəmələrin miqdarını və müddətlərini dəyişdirməyi tələb etməyə haqlıdır."

"Maddə 252. Qiyabi qətnamənin qanuni qüvvəyə minməsi

Qiyabi qətnamə bu Məcəllənin 233-cü maddəsində nəzərdə tutulmuş qaydalar əsasında qüvvəyə minir."

və

"Maddə 393. Apellyasiya instansiyası məhkəməsi qətnaməsinin qanuni qüvvəyə minməsi

Apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən şikayət verilməmişdirsə, qəbul edildiyi gündən 2 ay keçdikdən sonra qanuni qüvvəyə minir."

Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi müddəti 3 qrupa bölünür:

**a) 10 günlük müddət (məhkəmənin qiyabi qətnaməsi);**

**b) 1 aylıq müddət (birinci instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamələr);**

**c) 2 aylıq müddət (apellyasiya instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamələr)[1].**

[1] MPM əvvəllər 3 günlük müddət (apellyasiya instansiya məhkəməsinin seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi haqqında ərizə üzrə qətnaməsi) də müəyyən edirdi.



İlk öncə **məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi üçün nəzərdə tutulmuş müddət** barəsində araşdırma aparaq. MPM-in 233.1-ci maddəsinin tələbinə əsasən, məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, qəbul edildiyi gündən 1 ay keçdikdən sonra qanuni qüvvəyə minir. Həmçinin MPM-in 360-cı maddəsinə əsasən, apellyasiya şikayəti məhkəmə qətnaməsi rəsmi qaydada verildiyi gündən 1 ay müddətində verilə bilər. Göstərilən normada nəzərdə tutulan müddət əvvəlki qanunvericilikdə daha az nəzərdə tutulurdu. Belə ki, 01 mart 1965-ci il tarixdə qüvvəyə minmiş Azərbaycan SSR MPM-in 297-ci maddəsinə görə, kassasiya şikayəti və ya protesti, qətnamənin məhkəmə tərəfindən bütöv formada çıxarıldığı gündən on gün müddətində verilə bilərdi. On günlük müddətin bir aylıq müddət ilə əvəz olunması təbii ki, dövlət tərəfindən vətəndaşların hüquq və azadlıqlarının məhkəmə tərəfindən səmərəli qorunması, ədalətli məhkəmə araşdırması hüququnun məhkəmə sistemində daha geniş tətbiqinə xidmət edir[1].

İndi isə məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi üçün nəzərdə tutulmuş **müddətin hesablanması** (başlanması və bitməsi tarixi) qaydasına nəzər yetirək.

Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi üçün mühüm məsələlərdən biri müvafiq **prosessual müddətin axımının başlanma vaxtının düzgün müəyyən edilməsi** və bu müddətin tətbiqidir.

Yuxarıda göstərdiyimiz kimi MPM-in 233.1-ci maddəsinə görə, məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, qəbul edildiyi gündən 1 ay keçdikdən sonra qanuni qüvvəyə minir. Lakin bəzi hallarda konkret prossesual hərəkətlərin edilməsi üçün müddətin müəyyən edilməsi olduqca zərurətli olsa da, hətta qanunvericilik prosessual müddətin məhkəmə tərəfindən müəyyən edilməli olmasına dair müvafiq bir göstəriş təsbit etsədə, bu sahədə məhkəmələrdə kargüzarlığın aparılmasında müəyyən fərqlər meydana çıxır.

MPM-in 128.3-cü maddəsinə əsasən, illərlə, aylarla və ya günlərlə hesablanan prosessual müddətin axımı müddətin başlanğıcının təyin edildiyi təqvim tarixindən və ya hadisənin baş verməsindən sonrakı gündən başlanır. Beləliklə MPM-in 128.3-cü maddəsinin təhlilindən çıxış etdik-

[1] Əlavə məlumat üçün bax: Paşa Səfərov. Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi. "Paritet" qəzeti. 13-14 iyul 2010-cu il, №70 (1513). Səhifə 13.

də illərlə, aylarla, həftələrlə və günlərlə hesablanan prosessual müddətlərin axımının başlanğıcının həmin müddətin təyin edildiyi təqvim tarixindən sonrakı gündən və ya hadisənin baş verməsindən sonrakı gündən hesablanmalı olduğu aydın olur.

Bəzi hüquq ədəbiyyatlarında sözügedən maddədə göstərilən 1 aylıq müddətin hesablanması müxtəlif mövqedən yanaşılır. Belə ki, bir qrup hüquqşünasların fikrincə qanunvericilikdə nəzərdə tutulan 1 aylıq müddət qətnamənin qəbul edildiyi gündən başlayaraq növbəti ayın həmin günündə tamamlanır. Məhz hüquqşünas **B.Əsədov** belə fikirdədir. Müəllifin fikrincə MPM-in 129.3-cü maddəsinə müvafiq olaraq apellyasiya şikayəti vermə müddəti qətnamənin surəti təqdim edilən və yaxud alınan aydan sonra gələn ayın müvafiq günündə tamam olur. Məsələn, 5 dekabr 2002-ci ildə təqdim olunan qətnamədən apellyasiya şikayəti vermə müddəti 5 yanvar 2003-cü ildə bitəcək[1].

Hüquqşünas **F.Manafov** isə hesab edir ki, qətnamənin işdə iştirak edən şəxslərə tərtib edildikdən sonra 3 gün müddətində rəsmi qaydada verilməli olduğunu (MPM-in 227.3-cü maddəsi), müstəsna hallarda xüsusilə mürəkkəb işlər üzrə əsaslandırılmış qətnamənin tərtib edilməsinin 10 gün müddətinədək təxirə salınmasının mümkünlüyünü (MPM-in 227.2-ci maddəsi) və qətnamədən apellyasiya şikayətinin verilməsi üçün müəyyən edilmiş prosessual müddətin həmin qətnamənin rəsmi qaydada verildiyi gündən hesablandığını (MPM-in 360-cı maddəsi) nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, apellyasiya şikayətinin verilməsi üçün müəyyən edilmiş prosessual müddətin axımı qətnamənin qəbul olunmasından 1 ay müddət keçdikdən sonra da davam edir. Məsələn, martın 10-da çıxarılmış qətnamə işdə iştirak edən şəxslərə həmin ayın 13-də rəsmi qaydada verilmişdirsə, bu qətnamədən aprelin 14-dək apellyasiya şikayəti verilə bilər. Bu misalda qətnamənin qəbul edildiyi gündən 1 aylıq müddət aprelin 10-da başa çatdığı halda apellyasiya şikayətinin verilməsi üçün müəyyən olunan müddətin axımı aprelin 14-dək davam edir və s.[2].

---

[1] Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə 447.

[2] Bax: F.S.Manafov, Ə.H.Hüseynov, B.C.Kərimli (h.e.n). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin kommentariyası. II Bölmə. Birinci instansiya məhkəməsində icraat. I Yarımbölmə. İddia icraatı (149-284-cü maddələr). Bakı, "Digesta" nəşriyyatı, 2010. Səhifə 415-417.



Hüquqşünas **K.Abbasov** isə hesab edir ki, ...aylarla hesablanan müddətin birinci günü hansı təqvim gününə düşürsə, həmin müddətin sonuncu günü müvafiq ayın həmin təqvim günündən bir gün əvvəli günü sayılır (məsələn, 3 aylıq müddətin birinci günü 2001-ci il avqustun 4-sə, müddətin sonuncu günü 2001-ci il noyabrın 3-ü olacaq)[1].

Hesab edirik ki, 1 aylıq müddətin sona yetməsi qətnamənin qəbul edildiyi gündən başlayaraq növbəti ayın müvafiq günündən sonrakı günü tamamlanması daha düzgündür. Misal üçün, birinci instansiya məhkəməsinin qətnaməsi 03 noyabr 2009-cu il tarixdə qəbul edilmişsə və həmin tarixdə tərəflərə verilmişdirsə, ondan nəzərdə tutulan şikayət vermə müddəti 04 noyabr 2009-cu il tarixdə sona çatır. Belə ki, burada məhkəmə qətnaməsindən şikayət vermə müddəti 03 noyabr 2009-cu il tarixdən deyil, 04 noyabr 2009-cu il tarixdən hesablanır.

**Nəzəri və təcrübi cəhətdən müəyyən olunur ki, həm qanunla, həm də məhkəmə tərəfindən prosessual hərəkətlərin edilməsi üçün müddətlər üç üsulla müəyyən edilir:**

**a) hökmən baş verməli hadisə göstərilməklə;**

**b) dəqiq təqvim tarixi ilə;**

**c) hərəkətin edilə biləcəyi vaxt dövrü ilə.**

Məlumat üçün bildiririk ki, göstərilən bütün üsullar qüvvədə olan MPM-də kifayət qədər öz əksini tapmışdır.

Daha sonra məhkəmə **qətnaməsinin qanuni qüvvəyə minməsi üçün nəzərdə tutulmuş müddətin tətbiq edilməsinə** dair müvafiq araşdırma aparaq.

Bir daha vurğulayırıq ki, qanunvericiliyin tələbinə əsasən, məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, qəbul edildiyi gündən 1 ay keçdikdən sonra qanuni qüvvəyə minir. Həmçinin, MPM-in 360-cı maddəsinə əsasən, apellyasiya şikayəti məhkəmə qətnaməsi rəsmi qaydada verildiyi gündən 1 ay müddətində verilə bilər.

Bundan başqa, məhkəmə qətnaməsinin işdə iştirak edən şəxslərə tərtib edildikdən sonra 3 gün ərzində rəsmi qaydada verilməsi MPM-in 227.3-cü maddəsinə nəzərdə tutulub.

---

[1] Bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin elmi-praktik kommentariyası. Bakı, "Patronat-S" şirkəti, 2003-cü il. Səhifə 173.

**Şəxsə məhkəmə qətnaməsini rəsmi qaydada verildiyi gündən onun yuxarı instansiya məhkəməsinin müdafiə hüququndan yararlanması ilə bağlı şikayət vermək üçün nəzərdə tutulan müddəti başlanır**[1].

Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsində MPM-in 233.1-ci və 360-cı maddələrinin təhlili müxtəlif fikirlərlə qarşı-qarşıya dayanır. Bəzi hallarda konkret prosessual hərəkətlərin edilməsi üçün hərəkətin müəyyən edilməsi zərurəti olsa da, qanunvericilik prosessual hərəkətin məhkəmə tərəfindən nə vaxt həyata keçirməsinə dair kifayət qədər göstəriş təsbit etməmişdir. Bu səbəbdən də, müəyyən qrup müəlliflərin münasibətinə görə şəxsin məhkəmə qətnaməsindən şikayət vermək üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətinin başa çatmaması qətnamənin qanuni qüvvəyə minməsini təsdiq etmir və qətnamə yalnız şəxsin ondan şikayət vermə müddətinin sona çatmasından sonra qanuni qüvvəyə minir. Belə ki, məhkəmə qətnaməsindən apellyasiya və kassasiya şikayəti verilməsi müddəti proses iştirakçılarının hərəkətləri üçün qanunla müəyyən edilmiş müddətlərə aiddir. Əslində məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi qanunvericilikdə nəzərdə tutulan 1 aylıq müddətin başa çatmasından sonra mümkün olur. Bu, şəxsin apellyasiya şikayəti vermək hüququnu əsla məhdudlaşdırmır.

Beləliklə, şəxsin şikayət vermə müddətinin bitməsindən asılı olmayaraq məhkəmə qətnaməsi 1 aylıq müddət başa çatdıqdan sonra qanuni qüvvəyə minir və müvafiq olaraq icra hərəkətləri aprılır. MPM-in 234-cü maddəsinə əsasən, qətnamə qanuni qüvvəyə mindikdən sonra icra edilir. "İcra vərəqəsinin verilməsi və icrası ilə əlaqədar məhkəmə təcrübəsinin bəzi məsələləri barədə" AR Ali Məhkəməsinin Plenimunun 14 yanvar 2003-cü il tarixli, 1 nömrəli Qərarı ilə qərara almışdır ki, birinci instansiya məhkəmələti tərəfindən baxılan və apellyasiya şikayəti verilməyən işlər üzrə icra vərəqələri qətnamə qanuni qüvvəyə mindikdən sonra həmin məhkəmələr tərəfindən verilir.

Göstərilən hal şəxsin məhkəmə qətnaməsinin təkzib edilməzliyi halına riayət edilməsi deyil (qətnamənin təkzib edilməzliyi dedikdə, ondan apellyasiya və yaxud kassasiya şikayəti vermə imkanının tükənməsi və

[1] Bax: Paşa Səfərov. Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi. "Paritet" qəzeti. 13-14 iyul 2010-cu il/№70 (1513). Səhifə 13; www.anl.az/down/meqale/paritet/2010/iyul/128113.html.



ona apellyasiya və yaxud kassasiya qaydasında baxılmasının qeyri-mümkün olması anlaşılır).

"AR-in məhkəmələrində kargüzarlığın aparılmasına dair" Təlimata əsasən, məhkəmədə iştirak edən şəxslər və nümayəndələr iş üzrə icraat zamanı öz ünvanlarını dəyişdirmələri barədə məhkəməyə məlumat verməlidirlər. Belə məlumat olmadıqda isə məhkəmə bildirişləri məhkəməyə məlum olan axırıncı ünvana çatdırılır və çağırılan şəxs artıq həmin ünvanda yaşamasa da, məhkəmə bildirişi rəsmi qaydada verilmiş hesab edilir. Çox təəssüf ki, məhkəmə qətnaməsinin şəxsə rəsmi qaydada təqdim olunması göstərilsə də, MPM-in 134.1-ci maddəsinə əsasən, məhkəmə işdə iştirak edən şəxslərə sənədləri rəsmi qaydada verilməsi siyahısına məhkəmə qətnaməsinin adı göstərilməmişdir.

Bundan başqa məhkəmə qətnaməsinin alınmamasına, yaxud alınmamasının səbəblərinə dair MPM-də heç bir müddəa nəzərdə tutulmamışdur. Qanunda müəyyən edilən hallar nəzərdə tutulsaydı mövcud vəziyyətdə məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsində heç bir çətinlik yaranmazdır.

Məsələyə müxtəlif mövqedən yanaşdığımız halda müəyyən fikir ayrılığına səbəb olan hallara aydınlıq gətirək. Qeyd etdiyimiz kimi bir qrup müəlliflər hesab edirlər ki, qanunvericilikdə nəzərdə tutulan şikayət vermə müddəti şəxsin qətnaməni aldığı andan başlayır və məhkəmə qətnaməsi yalnız şəxsin həmin müddətdə şikayət vermədiyi andan sonra qüvvəyə minir. Bəs məhkəmə qətnaməsini məlumat üçün tərəfə göndərən hakimin məktubu şəxsə çatdırılması poçt xidməti tərəfindən mümkün olmaması (məsələn, şəxsin uzun müddət AR hüdudlarından kənarda yaşaması, şəxsin ünvanını dəyişməsi və sair) necə? Bu anda ortaya başqa bir məsələ çıxır. Belə ki, şəxsin məhkəmə qətnaməsini rəsmi almaması və həmin qətnamədən şikayət verməsi müddətinin ötürülməməsindən sonra məhkəmə qətnaməsi necə qüvvəyə minməliddir? Bu, özlüyündə məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsini böyük çətinliklə üzüzə qoyur. Həmçinin bu hal iddiaçı (ərizəçi) tərəfin hüquqlarını məhdudlaşdıraraq, onun məhkəməyə müraciət hüququnu qismən pozur. "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında" Konvensiyanın 6-cı maddəsinə əsasən, hər kəs. onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil qərəzsiz məhkəməvasitəsi

ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir[1]. Bu mövqedən çıxış edən Avropa İnsan Hüquqları Məhkəməsi, **"Hornsbi Yunanıstana qarşı"** məhkəmə işində belə qənaətə gəldi ki, razılığa gələn dövlətlərin daxili hüquq sistemləri məcburi qüvvəyə malik yekun məhkəmə qərarının tərəflərdən birinin ziyanına olaraq icra olunmadan qalmasına yol versəydi, 6-cı maddə ilə təmin olunan məhkəməyə müraciət hüququ xəyali hüquq olardı[2].

Məhkəmə qətnaməsinin qüvvəyə minməsinin qarşısını alan, ondan **şikayət verilməsinə** dair qısa bir araşdırma aparmaq olduqca zəruridir.

Məhkəmə qətnaməsindən şikayət verilməsi, bu şikayətin məhkəmə qətnaməsinin qüvvəyə minməsinə təsir etməsi qanunvericilikdə müxtəlif dövrlərdə müxtəlif cür normalarda təsbit edilmişdir. Misal üçün, bir neçə normanı göstərək; 01 iyun 2000-ci il tarixdə qüvvəyə minmiş AR MPM-in 233.2-ci maddəsinə əsasən, apellyasiya şikayəti ilə ləğv edilməmiş qətnamə apellyasiya instansiyasının qərar qəbul etdiyi andan qanuni qüvvəyə minir. Həmçinin, MPM-in 360-cı maddəsinə əsasən, apellyasiya şikayəti məhkəmə qətnaməsi təqdim olunan (alınan) gündən 1 ay müddətində verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi qəbul edildiyi andan qanuni qüvvəyə minir (MPM-in 393-cü maddəsi). Kassasiya şikayəti apellyasiya instansiyası məhkəməsi tərəfindən qətnamə və qərardad qəbul edildikdən sonra 3 ay müddətində verilə bilər (MPM-in 405.1-ci maddəsi). Kassasiya instansiya məhkəməsinin qərarı qəbul edildiyi andan qüvvəyə minir (MPM-in 419.4-cü maddəsi).

26 may 2009-cu il tarixli "AR MPM-ə dəyişikliklər və əlavələr edilməsi haqqında" AR-in Qanununa əsasən, 233.2-ci maddə çıxarılmış, 360-cı maddədə "təqdim olunan (alınan)" sözləri "rəsmi qaydada verildiyi" sözləri ilə əvəz edilmiş, 393-cü maddə yeni redaksiyada "apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən şikayət verilməmişdirsə, qəbul edildiyi gündən 2 ay keçdikdən sonra qanuni qüvvəyə minir" kimi verilmişdir.

[1] Bax: Avropa İnsan Hüquqları Konvensiyası. 11 nömrəli Protokola uyğun olaraq düzəliş edilən mətn. Avropa Şurası Müqavilələr Seriyası (CE-TS) No.5. Səfihə 34.

[2] Bax: www.echr.coe.int/ECHR/Homepage_EN.



Beləliklə, şərh olunanları nəzərdən keçirərək hesab edirik ki, məhkəmə qətnaməsinin qəbul edildiyi gündən 1 ay keçməsi yalnız o halda onun qanuni qüvvəyə minməsi üçün əsasdır ki, qətnamədən apellyasiya şikayəti verilməsin. Əgər birinci instansiya məhkəməsinin qətnaməsindən apellyasiya şikayəti verilmişdirsə və bu şikayət əsasında qətnamə ləğv olunmamışdırsa, yəni apellyasiya instansiyası məhkəməsi qətnaməni dəyişmədən, şikayəti isə təmin etmədən saxlamışdırsa, apellyasiya instansiyası məhkəməsinin bu barədə müvafiq qərar qəbul etdiyi andan deyil birinci instansiya məhkəməsinin qətnaməsinin qanuni qüvvəyə minməsi üçün nəzərdə tutulmuş 1 aylıq müddətin sona çatması ilə qüvvəyə minir. Eyni hal apellyasiya instansiya məhkəməsinin qətnaməsi üçün də nəzərdə tutlmalı və tətbiq edilməlidir.

Onu da qeyd etmək lazımdır ki, məhkəmə qətnaməsi qanuni qüvvəyə minməsi ilə əlaqədar təkzibedilməzlik və müstəsnalıq kimi hüquqi xassəyə malik olur[1].

**Son olaraq bildirmək istəyirik ki, maraqlı tərəfin məhkəmə qətnaməsindən şikayət vermək müddətinin bitməsindən asılı olmayaraq qanunvericiliklə nəzərdə tutulmuş 1 ay (apellyasiya instansiya məhkəməsinin qətnaməsi üçün bu müddət 2 ay nəzərdə tutulur) müddət ərzində məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə o qanuni qüvvəyə minməli və müvafiq olaraq icraya yönəldilməlidir.**

Birinci instansiya məhkəməsinin qətnaməsindən apellyasiya şikayəti verildiyi halda onun hansı müddətdə qanuni qüvvəyə minməsi xüsusi əhəmiyyətə malikdir. Belə ki, apellyasiya instansiya məhkəməsi tərəfindən birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanıldıqda və yaxud qismən dəyişdirildikdə həmin qətnamə onu dəyişdirilmədən saxlamış və ya qismən dəyişdirmiş apellyasiya instansiya məhkəməsinin müvafiq qətnaməsinin qanuni qüvvəyə minməsi ilə eyni zamanda **qanuni qüvvəyə minir** (MPM-in 393-cü maddəsi).

Həmçinin apellyasiya instansiya məhkəməsinin qətnaməsindən kassasiya şikayəti verildiyi halda onun hansı müddətdə qanuni qüvvəyə minməsi də xüsusi əhəmiyyətə malikdir. Belə ki, kassasiya instansiya məhkəməsi tərəfindən apellyasiya instansiya məhkəməsinin qətnaməsi də-

[1] Bax: Paşa Səfərov. Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi. "Paritet" qəzeti. 13-14 iyul 2010-cu il/№70 (1513). Səhifə 13.

yişdirilmədən saxlanıldıqda və yaxud qismən dəyişdirildikdə həmin qətnamə onu dəyişdirilmədən saxlamış və ya qismən dəyişdirmiş kassasiya instansiya məhkəməsinin müvafiq qərarının qəbul edildiyi andan **qanuni qüvvəyə minir** (MPM-in 419-cu maddəsi).

Əgər birinci instansiya məhkəməsinin qətnaməsindən verilmiş apellyasiya şikayətindən imtina edilməsi ilə bağlı apellyasiya instansiya məhkəməsi tərəfindən apellyasiya icraatına xitam verildikdə, birinci instansiya məhkəməsinin qətnaməsi apellyasiya icraatına xitam verilməsi barədə qərardadın qüvvəyə minməsi ilə eyni vaxtda **qanuni qüvvəyə minir** (MPM-in 369-cu maddəsi).

Habelə apellyasiya instansiya məhkəməsinin qətnaməsindən verilmiş apellyasiya şikayətindən imtina edilməsi ilə bağlı kassasiya instansiya məhkəməsi tərəfindən kassasiya icraatına xitam verildikdə, apellyasiya instansiya məhkəməsinin qətnaməsi kassasiya icraatına xitam verilməsi barədə qərarın qəbul edildiyi andan **qanuni qüvvəyə minir** (MPM-in 410-cu maddəsi).

## VIII FƏSİL
## Mülki işlər üzrə məhkəmə qətnamə formalarının şərti nümunələri

Biz birinci və apellyasiya instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamə formalarından bir neçəsini şərti formada oxucuların diqqətinə çatdırırıq. Məqsədimiz hakimiyyətin əsas növü olan məhkəmə hakimiyyətinin səmərəli inkişafında və bu inkişafdan gələcəkdə müdafiə üçün məhkəməyə müraciət etmiş şəxsin yararlanmasına azacıq olsa da xidmət etməkdir. Qeyd edirik ki, bu qətnamə nümunələri müəllifin nəzəri və təcrübi biliyinin, eyni zamanda şəxsi hüquq düşüncəsinin məhsulu olub normativ hüquqi aktlara istinadən tərtib olunmuşdur. Ümid edirik ki, bu qətnamə nümunələri insan hüquq və azadlıqlarının müdafiəsinin, müdafiə üçün məhkəməyə müraciət hüququnun, qanun və məhkəmə qarşısında bərabərlik, ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi, məhkəmə baxışının aşkarlığı və sair prinsiplərin təminatına qismən olsa da xidmət etmiş olacaqdır.



**Hissəvi Qətnamə** Giriş hissə

12 aprel 2013-cü il, Bakı şəhəri

AR
Bakı şəhəri Yasamal Rayon Məhkəməsi

hakim Səmədov Qalib Səməd oğlunun,
məhkəmə iclas katibi Əmirov Qədim Əmir oğlunun,
iddiaçı (qarşılıqlı iddia üzrə cavabdeh) Əliyev Əli Nahidi oğlunun,
cavabdeh (qarşılıqlı iddia üzrə iddiaçı) Məmmədova Pakizə Məmməd qızının və onun nümayəndəsi Qasımov Sabit Ənvər oğlunun,
cavabdeh (qarşılıqlı iddia üzrə maraqlı şəxs) Həsənov Əli Məmmədrza oğlunun,
cavabdeh Ağayev Mürvət Əbdül oğlunun,
müstəqil tələb irəli sürməyən üçüncü şəxs (həm ilkin, həm də qarşılıqlı iddia üzrə maraqlı şəxs) AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinin nümayəndəsi Həsənov Qara Tahir oğlunun,
maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontorunun nümayəndəsi Məmmədova Gülnar Əhməd qızının,
maraqlı şəxs Həsənova Gülbahar Rza qızının iştirakı ilə,

iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı vərəsəlik şəhadətnaməsinin qismən etibarsız hesab edilməsi, alqı-satqı müqaviləsinin ləğv edilməsi, payın yenidən müəyyən edilməsi və bölüşdürülməsi, şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi tələbinə dair iddia ərizəsinə,

iddiaçı Məmmədova Pakizə Məmməd qızının cavabdeh Əliyev Əli Nahid oğluna, maraqlı şəxs Həsənov Əli Məmmədrza oğluna, maraqlı şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə və maraqlı şəxs

Həsənova Gülbahar Rza qızına qarşı şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi və payın artırılması tələbinə dair qarşılıqlı iddia ərizəsinə açıq məhkəmə iclasında baxıldı.

İş üzrə iddiaçının (qarşılıqlı iddia üzrə cavabdehin), cavabdehin (qarşılıqlı iddia üzrə iddiaçının) və onun nümayəndəsinin, cavabdehin (qarşılıqlı iddia üzrə maraqlı şəxsin), cavabdehin, müstəqil tələb irəli sürməyən üçüncü şəxsin (həm iddia, həm də qarşılıqlı iddia üzrə maraqlı şəxsin), maraqlı şəxsin və maraqlı şəxsin nümayəndəsinin izahatlarını və çıxışlarını, şahidlərin ifadələrini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, məhkəmə

**Müəyyən etdi:**

**Təsviri hissə**

**Tələb:**

İddiaçı Əliyev Əli Nahid oğlu cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı vərəsəlik şəhadətnaməsinin qismən etibarsız hesab edilməsi, alqı-satqı müqaviləsinin ləğv edilməsi, payın yenidən müəyyən edilməsi və bölüşdürülməsi, şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi tələbinə dair iddia ərizəsi ilə 05 yanvar 2013-cü il tarixdə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə (bundan sonra sadəcə - məhkəmə) müraciət etmiş və onun müraciəti əsasında məhkəmədə 2(004)-13/2013 saylı mülki iş açılmışdır.

Məhkəmənin hazırlıq iclasında cavabdeh Məmmədova Pakizə Məmməd qızı cavabdeh qismində Əliyev Əli Nahid oğluna, maraqlı şəxs qismində Həsənov Əli Məmmədrza oğluna, maraqlı şəxs qismində AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə və maraqlı şəxs qismində Həsənova Gülbahar Rza qızına qarşı şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi və payın artırılması tələbinə dair qarşılıqlı iddia ərizəsi ilə məhkəməyə müraciət etmiş və məhkəmənin 19 yanvar 2013-cü il tarixli qərardadı ilə qarşılıqlı iddia ərizəsi icraata qəbul edilmişdir.

...



**Cavabdehin izahatı (etirazları və ya mülahizələri):**

...

**Əsaslandırıcı hissə:**

**İşin məhkəmə tərəfindən müəyyən edilən halları:**

...

**İşin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər:**

...

İddiaçı tələbinin hüquqi əsası kimi AR MM-in 1133-cü, 1134-cü, 1137-ci, 1159-cu, AR MPM-in 217-ci, 218-ci, 220-ci, Əsas İnsan Hüquq və Azadlıqlarının Müdafiəsinə dair Konvensiyanın 6-cı maddələrinə istinad etmişdir.

Qarşılıqlı iddia üzrə iddiaçı isə MM-in 1137-ci və 1159-cu maddələrinə və AR Konstitusiya Məhkəməsi Plenumunun 20 oktyabr 2011-ci il tarixli Qərarına istinad etmişdir.

...

**Məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və normativ-hüquqi aktlar (cavabdeh tərəfindən iddia tələbi etiraf edildikdə qətnamənin əsaslandırıcı hissəsində yalnız iddianın etiraf edilməsi və onun məhkəmə tərəfindən qəbul edilməsi):**

...

Məhkəmə iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı vərəsəlik şəhadətnaməsinin qismən etibarsız hesab edilməsi, alqı-satqı müqaviləsinin ləğv edilməsi, payın yenidən müəyyən edilməsi və bölüşdürülməsi, şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi tələbinə dair iddia ərizəsi üzrə MM-in 1133-cü, 1134-cü, 1137-ci, və 1159-cu maddələrini, MPM-in

149-cu, 151-ci, 217-ci, 218-ci və 220-ci maddələrini rəhbər tutaraq hesab edir ki, iddia tələbi qismən təmin edilməli, iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı vərəsəlik şəhadətnaməsinin qismən etibarsız hesab edilməsi və alqı-satqı müqaviləsinin ləğv edilməsi, payın yenidən müəyyən edilməsi və bölüşdürülməsi hissədə təmin, şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi tələbi hissəsində rədd edilməlidir.

...

Məhkəmə iddiaçı Məmmədova Pakizə Məmməd qızının cavabdeh Əliyev Əli Nahid oğluna, maraqlı şəxs Həsənov Əli Məmmədrza oğluna, maraqlı şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə və maraqlı şəxs Həsənova Gülbahar Rza qızına qarşı şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi və payın artırılması tələbinə dair qarşılıqlı iddia ərizəsi üzrə MM-in 1133-cü, 1134-cü, 1137-ci, və 1159-cu maddələrini, MPM-in 155-ci, 156-cı, 217-ci, 218-ci və 220-ci maddələrini rəhbər tutaraq hesab edir ki, iddia tələbi bütövlükdə rədd edilməlidir.

Məhkəmə xərclərinin bölüşdürülməsi məsələsi ilə bağlı məhkəmə MPM-in 107-ci, 108-ci, 112-ci, 119-cu və 220-ci maddələrinə istinad edərək belə bir nəticəyə gəlir ki, ilkin iddia tələbi qismən təmin edildiyindən iddia ərizəsi üzrə ödənilmiş 10 (on) manat dövlət rüsumunun 5 (beş) manatı iddiaçıya (Əliyev Əli Nahid oğluna), 5 (beş) manatı isə cavabdehə (Məmmədova Pakizə Məmməd qızına) aid edilməli, qarşılıqlı iddia tələbi rədd edildiyindən qarşılıqlı iddia ərizəsi üzrə ödənilmiş 10 (on) manat dövlət rüsumu cavabdehə (Məmmədova Pakizə Məmməd qızına) aid edilməlidir.

Beləliklə məhkəmə ilkin iddia və qarşılıqlı iddia tələbi üzrə aşağıdakı nəticəyə gəlir:

- İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı vərəsəlik şəhadətnaməsinin qismən etibarsız hesab edilməsi, alqı-satqı müqaviləsinin ləğv edilməsi, payın yenidən müəyyən edilməsi və bölüşdürülməsi, şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi tələbinə dair iddia tələbi qismən təmin edilməli;

- İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı vərəsəlik şəhadətnaməsinin qismən etibarsız hesab edilməsi və alqı-satqı müqaviləsinin ləğv edilməsi, payın yenidən müəyyən edilməsi və bölüşdürülməsi hissədə təmin edilməli;

- Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoru tərəfindən cavabdeh Məmmədova Pakizə Məmməd qızına verilmiş 11 noyabr 2011-ci il tarixli, Ə-87/11saylı vərəsəlik şəhadətnaməsi ləğv edilməli;

- Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə 203, 43 saylı evə dair 12 may 2012-ci il tarixli, Ə-1325/2012 saylı alqı-satqı müqaviləsi ləğv edilməli;

- Miras qoyan Əbdülrəhmanov Məmmədrza Balakişi oğlundan miras qalmış Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə 203, 43 saylı evin ½ hissəsi Əliyev Əli Nahid oğlunun, ½ hissəsi isə Məmmədova Pakizə Məmməd qızının payı hesab olunmalı;

- İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi tələbi rədd edilməli;

- Qarşılıqlı iddia üzrə İddiaçı Məmmədova Pakizə Məmməd qızının cavabdeh Əliyev Əli Nahid oğluna, maraqlı şəxs Həsənov Əli Məmmədrza oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri

Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə və maraqlı şəxs Həsənova Gülbahar Rza qızına qarşı şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi və payın artırılması tələbinə dair qarşılıqlı iddia tələbi rədd edilməli;

- İlkin iddia tələbi qismən təmin edildiyindən iddia ərizəsi üzrə ödənilmiş 10 (on) manat dövlət rüsumunun 5 (beş) manatı iddiaçıya (Əliyev Əli Nahid oğluna), 5 (beş) manatı isə cavabdehə (Məmmədova Pakizə Məmməd qızına), qarşılıqlı iddia tələbi rədd edildiyindən qarşılıqlı iddia ərizəsi üzrə ödənilmiş 10 (on) manat dövlət rüsumu cavabdehə (Məmmədova Pakizə Məmməd qızına) aid edilməli;

Cavabdeh Məmmədova Pakizə Məmməd qızından 10 (on) manat məbləğində dövlət rüsumu alınaraq iddiaçı Əliyev Əli Nahid oğluna ödənilməlidir.

...

AR Konstitusiyasının 130-cu maddəsinin V və IX hissələrini, MPM-in 216-cı, 217-ci, 218-ci, 219-cu və 220-ci maddələrini rəhbər tutaraq, məhkəmə

**Qət etdi:**

**Nəticə hissə**

**İiddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin gəldiyi nəticə:**

İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı vərəsəlik şəhadətnaməsinin qismən etibarsız hesab edilməsi, alqı-satqı müqaviləsinin ləğv edilməsi, payın yenidən müəyyən edilməsi və bölüşdürülməsi, şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi tələbinə dair iddia tələbi qismən təmin edilsin.

İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs



Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı vərəsəlik şəhadətnaməsinin qismən etibarsız hesab edilməsi və alqı-satqı müqaviləsinin ləğv edilməsi, payın yenidən müəyyən edilməsi və bölüşdürülməsi hissədə təmin edilsin.

Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoru tərəfindən cavabdeh Məmmədova Pakizə Məmməd qızına verilmiş 11 noyabr 2011-ci il tarixli, Ə-87/11saylı vərəsəlik şəhadətnaməsi ləğv edilsin.

Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə 203, 43 saylı evə dair 12 may 2012-ci il tarixli, Ə-1325/2012 saylı alqı-satqı müqaviləsi ləğv edilsin.

Miras qoyan Əbdülrəhmanov Məmmədrza Balakişi oğlundan miras qalmış Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə 203, 43 saylı evin ½ hissəsi Əliyev Əli Nahid oğlunun, ½ hissəsi isə Məmmədova Pakizə Məmməd qızının payı hesab olunsun.

İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına, cavabdeh Həsənov Əli Məmmədrza oğluna, cavabdeh Ağayev Mürvət Əbdül oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə, maraqlı şəxs Bakı şəhəri 5 saylı Dövlət Notariat Kontoruna qarşı şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi tələbi rədd edilsin.

Qarşılıqlı iddia üzrə İddiaçı Məmmədova Pakizə Məmməd qızının cavabdeh Əliyev Əli Nahid oğluna, maraqlı şəxs Həsənov Əli Məmmədrza oğluna, müstəqil tələb irəli sürməyən üçüncü şəxs AR Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhəri Ərazi İdarəsinə və maraqlı şəxs Həsənova Gülbahar Rza qızına qarşı şəxsin ləyaqətsiz vərəsə hesab edilməsi və payın artırılması tələbinə dair qarşılıqlı iddia tələbi rədd edilsin.

**Məhkəmə xərclərinin bölüşdürülməsi:**

İlkin iddia tələbi qismən təmin edildiyindən iddia ərizəsi üzrə ödənilmiş 10 (on) manat dövlət rüsumunun 5 (beş) manatı iddiaçıya (Əliyev Əli Nahid oğluna), 5 (beş) manatı isə cavabdehə (Məmmədova Pakizə Məmməd qızına), qarşılıqlı iddia tələbi rədd edildiyindən qarşılıqlı iddia ərizəsi üzrə ödənilmiş 10 (on) manat dövlət rüsumu cavabdehə (Məmmədova Pakizə Məmməd qızına) aid edilsin.

Cavabdeh Məmmədova Pakizə Məmməd qızından 10 (on) manat məbləğində dövlət rüsumu alınaraq iddiaçı Əliyev Əli Nahid oğluna ödənilsin.

**Qətnamədən şikayət vermə müddəti və qaydası:**

Qətnamədən tərəfə rəsmi qaydada təqdim edildikdən sonra 1 (bir) ay müddətində Bakı şəhəri Yasamal Rayon Məhkəməsi vasitəsilə Bakı Apellyasiya Məhkəməsinin Mülki İşlər üzrə Kollegiyasına apellyasiya şikayəti verilə bilər.

**hakim**
**Qalib Səmədov** **İmza:**

**məhkəmə iclas katibi**
**Qədim Əmirov** **İmza:**

**Giriş hissə**

**Qətnamə**

13 may 2013-ci il, Bakı şəhəri

AR
Bakı şəhəri Yasamal Rayon Məhkəməsi

hakim Səmədov Qalib Səməd oğlunun,
məhkəmə iclas katibi Əmirov Qədim Əmir oğlunun,
iddiaçı Əliyev Əli Nahid oğlunun,
cavabdeh Məmmədova Pakizə Məmməd qızının iştirakı ilə,

iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia ərizəsinə üzrə mülki işə açıq məhkəmə iclasında baxıldı.

İş üzrə iddiaçının və cavabdehin izahatlarını və çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, məhkəmə

**Müəyyən etdi:**





**Tələb:**

İddiaçı Əliyev Əli Nahid oğlu cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia ərizəsi ilə 11 yanvar 2013-cü il tarixdə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə müraciət etmiş və onun müraciəti əsasında məhkəmədə 2(004)-13/2013 saylı mülki iş açılmışdır.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsi hakiminin 15 yanvar 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadı ilə, iddia ərizəsi AR MPM-in 151-ci maddəsinə uyğun olaraq mümkün hesab edilmiş və icraata götürülmüşdür.

Mülki iş üzrə 27 yanvar 2013-cü il tarixdə hazırlıq iclası keçirilmiş və məhkəmənin 27 yanvar 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadına əsasən, mülki iş üzrə MPM-in 171-ci maddəsinin tələblərinə uyğun olaraq 12 fevral 2013-cü il tarixə məhkəmə baxışı iclası təyin edilmişdir.

İddiaçı Əliyev Əli Nahid oğlu cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbi irəli sürərək göstərmişdir ki, o, 5 iyul 2004-cü il tarixdə cavabdeh ilə ailə həyatı qurmuş və bu nikahdan 11 noyabr 2005-ci il tarixdə Əliyev Qulu Əli oğlu anadan olmuşdur. Ailə münasibətləri ilk dövrlərdə yaxşı olsa da, lakin sonradan onlar arasında narazılıqlar yaranmağa başlamışdır. Bütün bu narazılıqların yekunu kimi ailə faktiki olaraq dağılmış və onun yenidən bərpası qeyri-mümkündür. Cavabdehə qarşı əmlak və qeyri əmlak tələbi yoxdur, azyaşlı uşağın anasının yanında qalmasına etiraz etmir və uşağın saxlanılması üçün məhkəmənin müəyyən edəcəyi məbləğdə aliment verməyə hazırdır.

**Cavabdehin izahatı (etirazları və ya mülahizələri):**

Məhkəmənin iş üzrə keçirdiyi 27 yanvar 2013-cü il tarixli hazırlıq iclasının vaxtı və yeri barəsində cavabdehə lazımi qaydada məlumat verilməyinə baxmayaraq, cavabdeh məhkəmənin hazırlıq iclasına gəlməmiş və MPM-in 139.2.9-cu maddəsinin tələbini yerinə yetirməyərək gəlməməsinin səbəbləri barəsində məhkəməyə hər hansı bir məlumat verməmiş, eyni zamanda MPM-in 185.5-ci maddəsinə uyğun olaraq

gəlməmənin səbəbləri barədə məhkəməyə hər hansı bir sübut təqdim etməmişdir.

Məhkəmə MPM-in 185.5-ci maddəsinin tələblərini rəhbər tutaraq hazırlıq iclasını cavabdehin iştirakı olmadan keçirilməsini mümkün hesab etmişdir.

12 fevral 2013-cü il tarixli məhkəmə baxışı iclasında iştirak edən cavabdeh ona qarşı irəli sürülmüş iddianı etiraf etməmiş və bildirmişdir ki, iddiaçının ailənin faktiki olaraq dağılması barədə irəli sürdüyü tələb əsassızdır. Onlar arasında bir neçə dəfə anlaşılmazlıq olmuş və tezliklə bu anlaşılmazlıq aradan qaldırılmışdır. Birgə nikahdan dünyaya gəlmiş uşağın gələcəkdə çətinliklərlə üzləşməməsi üçün ailənin dağılmasını istəmir.

Məhkəmə 12 fevral 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadı ilə, AM-in 20.2-ci maddəsinə uyğun olaraq tərəflərə barışıq üçün 3 ay vaxt verməklə məhkəmə baxış iclasını 13 may 2013-cü il tarixə təxirə salmışdır.

Həmçinin həmin qərardada əsasən, 11 noyabr 2005-ci ildə Bakı şəhərində anadan olmuş Əliyev Qulu Əli oğlunun saxlanılması üçün iddiaçı Əliyev Əli Nahid oğlundan hər ay qazancının ¼ hissəsi məbləğində aliment tutulub cavabdeh Məmmədova Pakizə Məmməd qızına verilməsi nəzərdə tutulmuşdur.

Hazırda məhkəmənin tərəflərə barışıq üçün verdiyi 3 ay müddət başa çatmış və tərəflər arasında barışığa dair hər hansı bir sübut (sənəd) məhkəməyə təqdim edilməmişdir.

Məhkəmə iclasında iddiaçı Əliyev Əli Nahid oğlu iddia tələbini müdafiə etdiyini, cavabdeh Məmmədova Pakizə Məmməd qızı isə iddianı etiraf etmədiyini təkrar bildirmişlər.

Həmçinin cavabdeh yazılı ərizə ilə məhkəməyə müraciət edərək həm iddia tələbini etiraf etmədiyini, həm də boşanma olacağı təqdirdə azyaşlı uşağın onun yanında qalmasını və uşağın saxlanılması üçün hər ay iddiaçıdan 200 manat aliment tutulmasını xahiş etmişdir.

**Əsaslandırıcı hissə**

**İşin məhkəmə tərəfindən müəyyən edilən halları:**

İddiaçı tərəfindən məhkəməyə təqdim olunmuş sübutlardan müəyyən olunur ki, Bakı şəhəri Yasamal Rayon Qeydiyyat Şöbəsinin verdiyi AZ



111111 saylı nikah haqqında şəhadətnamənin əslindən görünür ki, Əliyev Əli Nahid oğlu ilə Məmmədova Pakizə Məmməd qızı arasında 5 iyul 2004-cü il tarixdə nikah bağlanmış və bu barədə nikahın qeydiyyatı kitabında 1345 saylı, 5 iyul 2004-cü il tarixli qeyd aparılmışdır. Nikah bağlandıqdan sonra hər bir tərəf öz soyadında qalmışdır.

Bundan başqa iş materiallarında olan Bakı şəhəri Yasamal Rayon Qeydiyyat Şöbəsinin verdiyi AZ 222222 saylı doğum haqqında şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surətindən görünür ki, 11 noyabr 2005-ci il tarixdə Əliyev Qulu Əli oğlu anadan olmuş və bu barədə doğumun qeydiyyatı kitabında 2167 saylı, 11 noyabr 2005-ci il tarixli qeyd aparılmışdır. Şəhadətnamənin ata qrafasında Əliyev Əli Nahid oğlu, ana qrafasında isə Məmmədova Pakizə Məmməd qızı yazılmışdır.

İş materiallarına əlavə edilmiş 11 fevral 2013-cü il tarixli, 17/2013 saylı arayışdan müəyyən olunur ki, iddiaçı Yasamal rayon Su İdarəsində elektrik mantyoru vəzifəsində işləyir və onun aylıq əmək haqqı 350 (üç yüz əlli) manatdır.

**İşin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər:**

MPM-in 4.1-ci maddəsinə əsasən, bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

Məhkəmə həqiqətə nail olmaq üçün, işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Məhkəmə tərəflərə məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur və tərəflər qanunda nəzərdə tutulan hallar istisna edilməklə, iddianı etiraf edə və yaxud ondan imtina edə bilərlər (MPM-in 14.1-ci, 14.2-ci və 14.3-cü maddələri).

Məhkəmə işə baxarkən iş üzrə sübutları bilavasitə tədqiq etməyə, tərəflərin və üçüncü şəxslərin izahatlarını, şahidlərin ifadələrini, ekspertlərin rəylərini dinləməyə, yazılı sübutlarla tanış olmağa, maddi sübutları müayinə etməyə, səs yazılarına qulaq asmağa, videoyazılara baxmağa və işə baxılması ilə əlaqədar digər hərəkətləri etməyə borcludur (MPM-in 175.1-ci maddəsi).

Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir (MPM-in 77.1-ci maddəsi).

Həmçinin MPM-in 88-ci maddəsinə əsasən, məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

Lazımi sübutların əsli və ya lazımi qaydada təsdiq olunmuş surəti təqdim edilir. Əgər baxılan işə sənədin yalnız bir hissəsi aiddirsə, belə olan halda, bu sənəddən təsdiq olunmuş çıxarış təqdim edilir.

Sənədlərin əsli qanunlara və ya digər normativ hüquqi aktlara müvafiq olaraq, işin halları ancaq bu cür sənədlərlə təsdiq edildikdə və ya məhkəmənin tələbi ilə digər zəruri hallarda təqdim edilir (MPM-in 89.3-cü və 89.4-cü maddələri).

İşdə iştirak edən şəxslərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir.

Digər tərəf sübutları özündə saxlayıb məhkəmənin tələbi ilə təqdim etmədikdə, məhkəmə tərəflərin bildirdiyi məlumatlar əsasında iş üçün əhəmiyyətli olan halları müəyyən olunmuş hesab edə bilər (MPM-in 106.1-ci, 106.2-ci maddələri).

MPM-in 193-cü maddəsinə görə hakim işdə iştirak edən şəxslərin izahatlarını dinləyib onların mülahizəsini nəzərə alaraq, sübutların tədqiq edilməsinin ardıcıllığını müəyyən edir.

Məhkəmə iş materiallarında olan Bakı şəhəri Yasamal Rayon Qeydiyyat Şöbəsinin verdiyi AZ 111111 saylı nikah haqqında şəhadətnamənin əslini, Bakı şəhəri Yasamal Rayon Qeydiyyat Şöbəsinin verdiyi AZ 222222 saylı doğum haqqında şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surətini və 11 fevral 2013-cü il tarixli, 17/2013 saylı arayışı əsas sübut hesab etmişdir.



Eyni zamanda məhkəmə həm iddiaçının, həm də cavabdehin izahatlarını və çıxışlarını dinləyərək, onların bir-birinə qarşı olan münasibətini və məhkəmə iclasında özlərini aparmaları, həmçinin məhkəmə tərəfindən tərəflərə barışıq üçün verilmiş müddət ərzində barışmamalarını sübut yüklü hallar kimi qiymətləndirmişdir.

İddiaçı tələbinin hüquqi əsası kimi, AM-in 19-cu və 20-ci maddələrinə, həmçinin MPM-in 218-ci, və 220-ci maddələrinə istinad etmişdir.

Cavabdeh etirazının hüquqi əsası kimi hər hansı bir qanuna və yaxud normativ hüquqi akta əsaslanmamış və bu barədə məhkəməyə hər hansı bir məlumat verməmişdir. Sadəcə yazılı ərizə ilə iddianı qəbul etmədiyini, birgə nikahdan olan azyaşlı Əliyev Qulu Əli oğlunun onun yanında saxlanılmasını, onun saxlanılması üçün iddiaçı Əliyev Əli Nahid oğlundan hər ay 200 manat aliment tutulub ona ödənilməsini xahiş etmiş, iddiaçıya qarşı hər hansı əmlak və qeyri-əmlak tələbinin olmamasını bildirmişdir.

İddiaçı cavabdehin aliment tələbini qəbul etməmişdir.

**Məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və normativ-hüquqi aktlar (cavabdeh tərəfindən iddia tələbi etiraf edildikdə qətnamənin əsaslandırıcı hissəsində yalnız iddianın etiraf edilməsi və onun məhkəmə tərəfindən qəbul edilməsi göstərilə bilər):**

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin AR Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır (MPM-in 2.1-ci maddəsi).

MPM-in 2.2-ci maddəsinə əsasən, mülki məhkəmə icraatı qanunçuluğun və ictimai qaydanın bərqərar edilməsinə, vətəndaşların qanunlara dönmədən hörmət ruhunda tərbiyə edilməsinə rəvac verir.

Məhkəmə icraatı işə baxılan, ayrı-ayrı prosessual hərəkətlər həyata keçirilən və yaxud məhkəmə aktı icra edilən zaman qüvvədə olan mülki prosessual qanuna əsasən aparılır (MPM-in 3.1-ci maddəsi).

Mülki işlər və iqtisadi mübahisələr üzrə ədalət mühakiməsi yalnız məhkəməyə aiddir və məhkəmələr tərəfindən qanunla müəyyən olunmuş qaydada həyata keçirilir (MPM-in 6-cı maddəsi).

Ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir.

MPM ilə başqa hal nəzərdə tutulmayıbsa, məhkəmədə mübahisəyə işdə iştirak edən şəxslər çağırılıb dindirilmədikdə baxıla bilməz. İşdə iştirak edən şəxslər öz tələblərini əsaslandırdıqları dəlillər, sübutlar və hüquqi nəticələr barədə bir-birlərinə məlumat verməyə borcludur ki, digər tərəf bunlara qarşı özünün müdafiəsini təşkil edə bilsin.

Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz (MPM-in 9.1-ci, 9.2-ci və 9.3-cü maddələri).

MPM-in 13.1-ci maddəsinə görə, məhkəmə mübahisələri AR-in Konstitusiyasına, referendumla qəbul edilən hüquqi aktlara, qanunlara, AR prezidentinin fərmanlarına, AR Nazirlər Kabinetinin qərarlarına, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına, habelə AR-in tərəfdar olduğu beynəlxalq müqavilələrə əsasən həll edir.

Məhkəmə iddia tələbini və iş materiallarını araşdıraraq hesab edir ki, hazırki iddia tələbi ilə bağlı, AR AM-ə, MPM-ə istinad edilməklə kifayətlənmək və əsaslandırılmış qətnamə qəbul etmək mümkündür.

MPM-in 15.1-ci maddəsinə əsasən, məhkəmə məhkəmə aktlarını qətnamə, qərardad, qərar və əmr formasında qəbul edir.

AR-in məhkəmələri, MPM-ə və ya digər qanunlara müvafiq olaraq onların müdafiəsi məhkəmədən kənar digər qaydada həyata keçirilmirsə, pozulmuş və mübahisə edilən hüquq və azadlıqları müdafiə və təmin edir (MPM-in 24.1-ci maddəsi).

Ailə hüquqları məhkəmələr, bu məcəllədə nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti və digər dövlət orqanları tərəfindən qanunvericilikdə müəyyən olunmuş qayda müdafiə olunur (AM-in 7-ci maddəsi).

AR-da ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir.

Ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə



üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir (AM-in 1.2-ci və 1.3-cü maddələri).

AM-in 2.1-ci maddəsinə görə, AM nikahın bağlanması, nikaha xitam verilməsi və onun etibarsız sayılması qaydaları və şərtlərini müəyyən edir, ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar), eləcə də ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda və həddə başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, habelə valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəyə götürülməsi qaydalarını müəyyən edir.

AM-in 16-cı maddəsinə əsasən, nikaha xitam verilməsi müvafiq icra hakimiyyəti orqanı, AM-in 19-21-ci maddələrində nəzərdə tutulmuş hallarda isə məhkəmə tərəfindən həyata keçirilir.

AM-in 17.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olduqda və ya ər (arvad) nikahın pozulmasına razı olmadıqda nikah məhkəmə qaydasında pozulur (AM-in 19.1-ci maddəsi).

Ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının qeyri-mümkünlüyü məhkəmə tərəfindən müəyyən edildikdə, nikah məhkəmə qaydasında pozulur (AM-in 20.1-ci maddəsi).

Tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə ər-arvadın barışması üçün 3 ay müddət müəyyən etməklə işi təxirə sala bilər. Barışıq olmadıqda və ya onlar (onlardan biri) nikahın pozulmasında təkid etdikdə nikah pozulur (AM-in 20.2-ci maddəsi).

Tələblə bağlı məhkəmə qeyd edir ki, hazırda tərəflərin birgə ailə halında yaşaması qeyri-mümkündür və bu səbəbdən tərəflərin birgə ailə həyatına davam etmələri mümkünsüzdür.

Nikah məhkəmə qaydasında pozularkən, ər-arvad məhkəməyə yetkinlik yaşına çatmayan uşaqlarının kiminlə qaldığını, uşaqların və (və ya) ehtiyacı olan və əmək qabiliyyəti olmayan ərin (arvadın) saxlanması üçün vəsaitin ödənilmə qaydasını, bu vəsaitin miqdarını və ər-arvadın ümumi birgə mülkiyyətinin bölünməsini müəyyən edən saziş təqdim edə bilərlər (AM-in 22.1-ci maddəsi).

Bu Məcəllənin 22.1-ci maddəsində göstərilən məsələlər üzrə ər-arvad arasında saziş olmadıqda, eləcə də bu saziş uşaqların və ya tərəflərdən birinin marağını pozduqda, məhkəmə:

1) boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərindən hansının yanında qaldığını müəyyən etməli;

2) uşaqlar üçün alimentin hansı valideyndən və hansı miqdarda tutulduğunu müəyyən etməli;

3) ər-arvadın (onlardan birinin) tələbi ilə onların birgə mülkiyyətində olan əmlakın bölgüsünü aparmalı;

4) ərindən (arvadından) saxlanması üçün vəsait almaq hüququna malik olan arvadın (ərin) tələbi ilə ərdən (arvaddan) tutulmalı olan vəsaitin miqdarını müəyyən etməlidir (AM-in 22.2-ci maddəsi).

Məsələyə bu baxımdan yanaşaraq məhkəmə qeyd edir ki, tərəflər arasında bağlanmış hər hansı bir saziş məhkəməyə təqdim edilməmişdir. Bu səbəbdən məhkəmə aşağıdakı halları müəyyən edir:

Məhkəmə birgə nikahdan anadan olan azyaşlı Əliyev Qulu Əli oğlunun azyaşlı olmasını, onun hazırda anası (cavabdeh) Məmmədova Pakizə Məmməd qızının yanında qalmasının, bu barədə cavabdehin müraciətini və iddiaçının bu müraciətlə bağlı etirazının olmamasını nəzərə alaraq uşağın anasının yanında qalmasını mümkün hesab edir.

Aliment hissəsinə toxunan məhkəmə müəyyən edir ki, azyaşlı Əliyev Qulu Əli oğlunun anasının yanında qalmasını nəzərə alaraq onun atasından (iddiaçıdan) aliment tutulmalıdır.

18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar (AM-in 49.1-ci maddəsi).

Valideynlər uşaqlarını saxlamağa borcludurlar (AM-in 75.1-ci maddəsi).

AM-in 55.1-ci maddəsinə əsasən, uşaq öz valideynlərindən və ailənin digər üzvlərindən AM-in beşinci bölməsində müəyyən olunmuş qaydada və miqdarda vəsait almaq hüququna malikdir.

Aliment, pensiyalar, müavinətlər şəklində uşağa ödənilən məbləğ valideynlərin (onları əvəz edən şəxslərin) sərəncamına daxil olur, onlar tərəfindən uşaqların saxlanmasına, tərbiyəsinə və təhsilinə xərclənir (AM-in 55.2-ci maddəsi).



Valideynlər uşaqlarını saxlamadıqda uşaqların saxlanması üçün vəsait (aliment) valideynlərdən məhkəmə qaydasında tutulur (AM-in 75.4-cü maddəsi) .

Aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən hər ay aşağıdakı miqdarda aliment tutulur:

1) 1 uşağa görə-qazancın və (və ya) valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi;

2) 2 uşağa görə-qazancın (başqa gəlirlərin) üçdə bir hissəsi;

3) 3 və daha çox uşağa görə-qazancın (başqa gəlirlərin) yarısı (AM-in 76.1-ci maddəsi).

Məhkəmənin aliment tutulması barədə çıxardığı qətnamə qanuni qüvvəyə minənədək (uşaqlar üçün aliment tutularkən məhkəmənin aliment tutulması barədə qətnaməsi çıxarılanadək) məhkəmə MPM ilə nəzərdə tutulmuş qaydada alimentin müvəqqəti tutulmasını qət edə bilər.

Məhkəmə alimentin miqdarını müəyyən edərkən tərəflərin maddi və ailə vəziyyətini nəzərə almalıdır. Yetkinlik yaşına çatmayanlar üçün alimentin miqdarı AM-in 76-cı maddəsinə uyğun müəyyən edilir (AM-in 101.1-ci və 101.2-ci maddəsi).

Aliment məhkəməyə müraciət edildiyi vaxtdan tutulur (AM-in 100.2-ci maddəsi).

Məhkəmə iş materiallarına əlavə edilmiş 11 fevral 2013-cü il tarixli, 17/2013 saylı arayışdan müəyyən edir ki, iddiaçı Yasamal rayon Su İdarəsində elektrik mantyoru vəzifəsində işləyir və onun aylıq əmək haqqı 350 (üç yüz əlli) manat təşkil edir.

Cavabdehin azyaşlı uşağın saxlanılması üçün iddiaçıdan ayda 200 manat aliment tutulması tələbinə dair məhkəmə göstərir ki, cavabdehin bu tələbi əsassızdır. Belə ki, sabit pul məbləğində alimentin tutulması AM-in 78-ci maddəsi ilə həyata keçirilir. Lakin iddiaçının hazırda işləməsi və aylıq məvacib almasına dair arayışı əsas sübut hesab edən məhkəmə belə bir qənaətə gəlir ki, iddiaçının iş yeri olduğundan və aylıq məvacib aldığından ondan sabit pul məbləğində aliment tutula bilməz.

Alimentlə bağlı məhkəmə belə bir nəticəyə gəlir ki, AM-in 76.1.1-ci maddəsiə uyğun olaraq iddiaçıdan qazancının və başqa gəlirlərinin ¼ hissəsi miqdarında aliment tutulub cavabdehə verilməlidir.

Məhkəmə tərəflərin bir-birinə qarşı əmlak və qeyri-əmlak xarakterli tələblərinin olmadığını nəzərə alaraq onların əmlak münasibətlərinə münasibət bildirmir.

Həmçinin məhkəmə tərəflərin bir-birinə qarşı saxlanılması üçün vəsaitin tutulması tələbinin olmamasına əsasən, bu tələblə bağlı hər hansı mövqe də bildirmir.

Məhkəmə xərcləri dövlət rüsumundan və işə baxılması ilə əlaqədar olan məsrəflərdən ibarətdir (MPM-in 107-ci maddəsi).

Məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə münasib olaraq işdə iştirak edən şəxslərə aid edilir (MPM-in 119.1-ci maddəsi).

İddiaçı müəyyən olunmuş qaydada dövlət rüsumunu ödəməkdən azad edilmişsə, dövlət rüsumu iddianın təmin edilmiş hissəsinə münasib olaraq cavabdehdən tutularaq dövlət gəlirlərinə alınır (MPM-in 119.2-ci maddəsi).

İş materiallarında olan 5 yanvar 2013-cü il tarixli qəbzin əslindən müəyyən olunur ki, Əliyev Əli Nahid oğlu məhkəməyə iddia ərizəsi ilə müraciət etməsi üçün 20 (iyirmi) manat dövlət rüsumu ödəmişdir.

Məhkəmə xərclərinin bölüşdürülməsi məsələsi ilə bağlı məhkəmə MPM-in 107-ci, 108-ci, 112-ci, 119-cu və 220-ci maddələrinə istinad edərək belə bir nəticəyə gəlir ki, məhkəmə xərclərinin bölüşdürülməsi məsələsi ilə bağlı iddiaçı tərəfindən ödənilmiş 20 (iyirmi) manat məbləğində dövlət rüsumu, iddiaçının tələbi təmin olunduğundan və həmçinin iddiaçıdan aliment tutulduğundan həmin məhkəmə xərci iddiaçıya aid edilməlidir.

Beləliklə, yuxarıda göstərilənlərə əsasən, məhkəmə aşağıdakı nəticəyə gəlir:

- iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia ərizəsi təmin edilməli;
- Bakı şəhəri Yasamal Rayon Qeydiyyat Şöbəsinin verdiyi AZ 111111 saylı nikah haqqında şəhadətnaməsi ləğv edilməli və Əliyev Əli Nahid oğlu ilə cavabdeh Məmmədova Pakizə Məmməd qızı arasında bağlanmış nikah pozulmalı;
- nikah pozulduqdan sonra birgə nikahdan anadan olan azyaşlı Əliyev Qulu Əli oğlunun yaşayış yeri anası (cavabdeh) Məmmədova Pakizə Məmməd qızının yanı hesab edilməli;



- azyaşlı Əliyev Qulu Əli oğlunun saxlanılması üçün iddiaçıdan qazancının və başqa gəlirlərinin ¼ hissəsi miqdarında aliment tutulub cavabdehə verilməli;
- alimentin tutulma tarixi 11 yanvar 2013-cü ildən hesablanmalı;
- qətnamə qanuni qüvvəyə mindikdən sonra Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 fevral 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadının alimentin tutulmasına dair hissəsi ləğv edilməli;
- iddiaçı tərəfindən ödənilmiş 20 (iyirmi) manat məbləğində dövlət rüsumu, iddiaçının tələbi təmin olunduğuna və həmçinin iddiaçıdan aliment tutulduğundan həmin məhkəmə xərci iddiaçıya aid edilməlidir.

Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır (MPM-in 217.1-ci, 217.2-ci, 217.3-cü və 217.4-cü maddələri).

Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadığını müəyyən edir.

Hakim, işə əhəmiyyəti olan yeni halları aydınlaşdırmağı və ya əlavə sübutları tədqiq etməyi zəruri hesab edərsə, məhkəmə iclasının təzələnməsi haqqında qərardad çıxarır. İşə mahiyyəti üzrə baxılması başa çatdıqdan sonra hakim yenidən tərəflərin çıxışlarını dinləyir.

Hakim işdə iştirak edən şəxslərin verdiyi tələblər üzrə qətnamə çıxarır. Lakin hakim qanunda göstərilən müstəsna hallarda iddia tələblərindən kənara çıxa bilər (MPM-in 218.1-ci, 218.2-ci və 218.3-cü maddələri).

AR Konstitusiyasının 130-cu maddəsinin V və IX hissələrini, MPM-in 216-cı, 217-ci, 218-ci, 219-cu və 220-ci maddələrini rəhbər tutaraq, məhkəmə

**Qət etdi:**

Nəticə hissə

**İddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin gəldiyi nəticə:**

İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia ərizəsi təmin edilsin.

Bakı şəhəri Yasamal Rayon Qeydiyyat Şöbəsinin verdiyi AZ 111111 saylı nikah haqqında şəhadətnaməsi ləğv edilsin və Əliyev Əli Nahid oğlu ilə cavabdeh Məmmədova Pakizə Məmməd qızı arasında bağlanmış nikah pozulsun.

Nikah pozulduqdan sonra birgə nikahdan anadan olan azyaşlı Əliyev Qulu Əli oğlunun yaşayış yeri anası (cavabdeh) Məmmədova Pakizə Məmməd qızının yanı hesab edilsin.

Azyaşlı Əliyev Qulu Əli oğlunun saxlanılması üçün iddiaçıdan qazancının və başqa gəlirlərinin ¼ hissəsi miqdarında aliment tutulub cavabdehə verilsin.

Alimentin tutulma tarixi 11 yanvar 2013-cü ildən hesablansın.

Qətnamə qanuni qüvvəyə mindikdən sonra Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 fevral 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadının alimentin tutulmasına dair hissəsi ləğv edilsin.

**Məhkəmə xərclərinin bölüşdürülməsi:**

İddiaçı tərəfindən ödənilmiş 20 (iyirmi) manat məbləğində dövlət rüsumu, iddiaçının tələbi təmin olunduğuna və həmçinin iddiaçıdan aliment tutulduğundan həmin məhkəmə xərci iddiaçıya aid edilsin.

**Qətnamədən şikayət vermə müddəti və qaydası:**

Qətnamədən tərəfə rəsmi qaydada təqdim edildikdən sonra 1 (bir) ay müddətində Bakı şəhəri Yasamal Rayon Məhkəməsi vasitəsilə Bakı Apellyasiya Məhkəməsinin Mülki İşlər üzrə Kollegiyasına apellyasiya şikayəti verilə bilər.

**hakim**
**Qalib Səmədov**

**İmza:**

**məhkəmə iclas katibi**
**Qədim Əmirov**

**İmza:**



**Əlavə Qətnamə**

Giriş hissə

26 may 2013-ci il, Bakı şəhəri

AR
Bakı şəhəri Yasamal Rayon Məhkəməsi

hakim Səmədov Qalib Səməd oğlunun,
məhkəmə iclas katibi Əmirov Qədim Əmir oğlunun,
ərizəçi (iddiaçı) Əliyev Əli Nahid oğlunun,
maraqlı şəxs (cavabdeh) Məmmədova Pakizə Məmməd qızının iştirakı ilə,

iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia tələbinə dair 2(004)-13/2013 saylı mülki iş üzrə ərizəçi (iddiaçı) Əliyev Əli Nahid oğlunun əlavə qətnamə çıxarılmasına dair ərizəsinə açıq məhkəmə iclasında baxıldı.

İş üzrə ərizəçinin (iddiaçının) və maraqlı şəxsin (cavabdehin) izahatlarını və çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, məhkəmə

**Müəyyən etdi:**

Təsviri hissə

**Tələb:**

İddiaçı Əliyev Əli Nahid oğlu cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia ərizəsi ilə 11 yanvar 2013-cü il tarixdə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə müraciət etmiş və onun müraciəti əsasında məhkəmədə 2(004)-13/2013 saylı mülki iş açılmışdır.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsi hakiminin 15 yanvar 2013-cü il tarixli, 2(004)-2013/2013 saylı qərardadı ilə, iddia ərizəsi AR MPM-in 151-ci maddəsinə uyğun olaraq mümkün hesab edilmiş və icraata götürülmüşdür.

Mülki iş üzrə 27 yanvar 2013-cü il tarixdə hazırlıq iclası keçirilmiş və məhkəmənin 27 yanvar 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardına əsasən, mülki iş üzrə MPM-in 171-ci maddəsinin tələblərinə uyğun olaraq 12 fevral 2013-cü il tarixə məhkəmə baxışı iclası təyin edilmişdir.

Məhkəmə 12 fevral 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadı ilə, AM-in 20.2-ci maddəsinə uyğun olaraq tərəflərə barışıq üçün 3 ay vaxt verməklə məhkəmə baxış iclasını 13 may 2013-cü il tarixə təxirə salmışdır.

Həmçinin həmin qərardada əsasən, 11 noyabr 2005-ci ildə Bakı şəhərində anadan olmuş Əliyev Qulu Əli oğlunun saxlanılması üçün iddiaçı Əliyev Əli Nahid oğlundan hər ay qazancının ¼ hissəsi məbləğində aliment tutulub cavabdeh Məmmədova Pakizə Məmməd qızına verilməsi nəzərdə tutulmuşdur.

Məhkəmə baxış iclasının yekun nəticəsi kimi 13 may 2013-cü il tarixdə məhkəmə 2(004)-13/2013 saylı, 13 may 2013-cü il tarixli qətnamə qəbul etmişdir. Qətnaməyə görə məhkəmə aşağıdakı nəticəyə gəlmişdir:

- iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia ərizəsi təmin edilsin;
- Bakı şəhəri Yasamal Rayon Qeydiyyat Şöbəsinin verdiyi AZ 111111 saylı nikah haqqında şəhadətnaməsi ləğv edilsin və Əliyev Əli Nahid oğlu ilə cavabdeh Məmmədova Pakizə Məmməd qızı arasında bağlanmış nikah pozulsun;
- nikah pozulduqdan sonra birgə nikahdan anadan olan azyaşlı Əliyev Qulu Əli oğlunun yaşayış yeri anası (cavabdeh) Məmmədova Pakizə Məmməd qızının yanı hesab edilsin;
- azyaşlı Əliyev Qulu Əli oğlunun saxlanılması üçün iddiaçıdan qazancının və başqa gəlirlərinin ¼ hissəsi miqdarında aliment tutulub cavabdehə verilsin;
- alimentin tutulma tarixi 11 yanvar 2013-cü ildən hesablansın;
- Qətnamə qanuni qüvvəyə mindikdən sonra Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 fevral 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadının alimentin tutulmasına dair hissəsi ləğv edilsin.

15 may 2013-cü il tarixdə iddiaçı Əliyev Əli Nahid oğlu cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə



dair iddia ərizəsi üzrə 2(004)-13/2013 saylı mülki iş üzrə əlavə qətnamə çıxarılmasına dair ərizə ilə məhkəməyə müraciət etmiş və onun müraciəti əsasında 26 may 2013-cü il tarixə məhkəmə iclası təyin edilmişdir.

Ərizəçi (iddiaçı) Əliyev Əli Nahid oğlu maraqlı şəxs (cavabdeh) Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia tələbinə dair 2(004)-13/2013 saylı mülki iş üzrə əlavə qətnamə çıxarılmasına dair ərizə ilə məhkəməyə müraciət edərək göstərmişdir ki, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair 2(004)-13/2013 saylı qətnaməsində məhkəmə xərclərinin bölüşdürülməsi məsələsi məhkəmə tərəfindən həll edilməmiş qalmışdır. Həmin hissənin həll edilməsi vacibdir və bu səbəbdən məhkəmə əlavə qətnamə qəbul etməlidir.

**Cavabdehin izahatı (etirazları və ya mülahizələri):**

Məhkəmənin iş üzrə keçirdiyi 26 may 2013-cü il tarixli məhkəmə baxışı iclasında iştirak edən maraqlı şəxs (cavabdeh) ərizəçinin (iddiaçının) ərizəsini (vəsatətini) müdafiə etmiş və təmin olunmasını məhkəmədən xahiş etmişdir.

**Əsaslandırıcı hissə**

**İşin məhkəmə tərəfindən müəyyən edilən halları:**

İş materiallarında olan 05 yanvar 2013-cü il tarixli qəbzin əslindən müəyyən olunur ki, Əliyev Əli Nahid oğlu məhkəməyə iddia ərizəsi ilə müraciət etməsi üçün 20 (iyirmi) manat dövlət rüsumu ödəmişdir.

Bundan başqa Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia tələbinə dair 2(004)-13/2013 saylı qətnaməsinin əslindən müəyyən olunur ki, məhkəmə xərclərinin bölüşdürülməsi məsələsinə məhkəmə qətnaməsində toxunulmamışdır.

**İşin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər:**

MPM-in 4.1-ci maddəsinə əsasən, bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qo-

rumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

Məhkəmə həqiqətə nail olmaq üçün, işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Məhkəmə tərəflərə məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur və tərəflər qanunda nəzərdə tutulan hallar istisna edilməklə, iddianı etiraf edə və yaxud ondan imtina edə bilərlər (MPM-in 14.1-ci, 14.2-ci və 14.3-cü maddələri).

Məhkəmə işə baxarkən iş üzrə sübutları bilavasitə tədqiq etməyə, tərəflərin və üçüncü şəxslərin izahatlarını, şahidlərin ifadələrini, ekspertlərin rəylərini dinləməyə, yazılı sübutlarla tanış olmağa, maddi sübutları müayinə etməyə, səs yazılarına qulaq asmağa, videoyazılara baxmağa və işə baxılması ilə əlaqədar digər hərəkətləri etməyə borcludur (MPM-in 175.1-ci maddəsi).

Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir (MPM-in 77.1-ci maddəsi).

Həmçinin MPM-in 88-ci maddəsinə əsasən, məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

Lazımi sübutların əsli və ya lazımi qaydada təsdiq olunmuş surəti təqdim edilir. Əgər baxılan işə sənədin yalnız bir hissəsi aiddirsə, belə olan halda, bu sənəddən təsdiq olunmuş çıxarış təqdim edilir.

Sənədlərin əsli qanunlara və ya digər normativ hüquqi aktlara müvafiq olaraq, işin halları ancaq bu cür sənədlərlə təsdiq edildikdə və ya məhkəmənin tələbi ilə digər zəruri hallarda təqdim edilir (MPM-in 89.3-cü və 89.4-cü maddələri).

İşdə iştirak edən şəxslərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir.



Digər tərəf sübutları özündə saxlayıb məhkəmənin tələbi ilə təqdim etmədikdə, məhkəmə tərəflərin bildirdiyi məlumatlar əsasında iş üçün əhəmiyyətli olan halları müəyyən olunmuş hesab edə bilər (MPM-in 106.1-ci, 106.2-ci maddələri).

MPM-in 193-cü maddəsinə görə hakim işdə iştirak edən şəxslərin izahatlarını dinləyib onların mülahizəsini nəzərə alaraq, sübutların tədqiq edilməsinin ardıcıllığını müəyyən edir.

Məhkəmə iş materiallarında olan 5 yanvar 2013-cü il tarixli qəbzin əslini və Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia tələbinə dair 2(004)-13/2013 saylı qətnaməsini əsas sübut hesab etmişdir.

Eyni zamanda məhkəmə həm ərizəçinin (iddiaçının), həm də maraqlı şəxsin (cavabdehin) izahatlarını və çıxışlarını dinləyərək, maraqlı şəxsin (cavabdehin) ərizəni müdafiə etməsini sübut yüklü hallar kimi qiymətləndirmişdir.

Ərizəçi (iddiaçı) tələbinin hüquqi əsası kimi, MPM-in 107-ci, 119-cu və 229-ci maddələrinə istinad etmişdir.

Maraqlı şəxs (cavabdeh) ərizənin təmin olunmasına etiraz etməmişdir.

**Məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və normativ-hüquqi aktlar (cavabdeh tərəfindən iddia tələbi etiraf edildikdə qətnamənin əsaslandırıcı hissəsində yalnız iddianın etiraf edilməsi və onun məhkəmə tərəfindən qəbul edilməsi):**

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin AR Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır (MPM-in 2.1-ci maddəsi).

MPM-in 2.2-ci maddəsinə əsasən, mülki məhkəmə icraatı qanunçuluğun və ictimai qaydanın bərqərar edilməsinə, vətəndaşların qanunlara dönmədən hörmət ruhunda tərbiyə edilməsinə rəvac verir.

Məhkəmə icraatı işə baxılan, ayrı-ayrı prosessual hərəkətlər həyata keçirilən və yaxud məhkəmə aktı icra edilən zaman qüvvədə olan mülki prosessual qanuna əsasən aparılır (MPM-in 3.1-ci maddəsi).

Mülki işlər və iqtisadi mübahisələr üzrə ədalət mühakiməsi yalnız məhkəməyə aiddir və məhkəmələr tərəfindən qanunla müəyyən olunmuş qaydada həyata keçirilir (MPM-in 6-cı maddəsi).

Ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir.

MPM ilə başqa hal nəzərdə tutulmayıbsa, məhkəmədə mübahisəyə işdə iştirak edən şəxslər çağırılıb dindirilmədikdə baxıla bilməz. İşdə iştirak edən şəxslər öz tələblərini əsaslandırdıqları dəlillər, sübutlar və hüquqi nəticələr barədə bir-birlərinə məlumat verməyə borcludur ki, digər tərəf bunlara qarşı özünün müdafiəsini təşkil edə bilsin.

Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz (MPM-in 9.1-ci, 9.2-ci və 9.3-cü maddələri).

MPM-in 13.1-ci maddəsinə görə, məhkəmə mübahisələri AR-in Konstitusiyasına, referendumla qəbul edilən hüquqi aktlara, qanunlara, AR prezidentinin fərmanlarına, AR Nazirlər Kabinetinin qərarlarına, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına, habelə AR-in tərəfdar olduğu beynəlxalq müqavilələrə əsasən həll edir.

Məhkəmə iddia tələbini və iş materiallarını araşdıraraq hesab edir ki, hazırki iddia tələbi ilə bağlı, "Dövlət rüsumu haqqında" AR Qanununa və MPM-ə istinad edilməklə kifayətlənmək və əsaslandırılmış qətnamə qəbul etmək mümkündür.

MPM-in 15.1-ci maddəsinə əsasən, məhkəmə məhkəmə aktlarını qətnamə, qərardad, qərar və əmr formasında qəbul edir.

AR-in məhkəmələri, MPM-ə və ya digər qanunlara müvafiq olaraq onların müdafiəsi məhkəmədən kənar digər qaydada həyata keçirilmirsə, pozulmuş və mübahisə edilən hüquq və azadlıqları müdafiə və təmin edir (MPM-in 24.1-ci maddəsi).

"Dövlət rüsumu haqqında" Qanunun 8.4.9-cu maddəsinə əsasən, nikahın və təkrar nikahın ləğv olunması haqqında iddia ərizələrindən dövlət rüsumunun məbləği 20 manatdır.

Məhkəmə xərcləri dövlət rüsumundan və işə baxılması ilə əlaqədar olan məsrəflərdən ibarətdir (MPM-in 107-ci maddəsi).



Məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə münasib olaraq işdə iştirak edən şəxslərə aid edilir (MPM-in 119.1-ci maddəsi).

İddiaçı müəyyən olunmuş qaydada dövlət rüsumunu ödəməkdən azad edilmişsə, dövlət rüsumu iddianın təmin edilmiş hissəsinə münasib olaraq cavabdehdən tutularaq dövlət gəlirlərinə alınır (MPM-in 119.2-ci maddəsi).

Yuxarıda göstərilənlərə əsasən məhkəmə belə nəticəyə gəlir ki, hazırki ərizə təmin edilməli və iddiaçı tərəfindən ödənilmiş 20 (iyirmi) manat məbləğində dövlət rüsumu, iddiaçının tələbi təmin olunduğundan və həmçinin iddiaçıdan aliment tutulduğundan həmin məhkəmə xərci iddiaçıya aid edilməlidir.

Məhkəmə həmçinin hazırki ərizənin (vəsatətin) məhkəməyə verilməsi üçün nə "Dövlət rüsumu haqqında" Qanunda, nə də ki, MPM-də dövlət rüsumu nəzərdə tutmadığından, ərizə (vəsatət) üzrə hər hansı bir məhkəmə xərci müəyyən etmir.

İş üzrə qətnamə çıxarmış hakim, işdə iştirak edən şəxslərin ərizəsi ilə və ya onları xəbərdar edərək öz təşəbbüsü ilə aşağıdakı hallarda əlavə qətnamə çıxara bilər:

1) işdə iştirak edən şəxslər tələblərdən hər hansı biri üzrə sübutlar təqdim etmiş və izahatlar vermişlərsə, bu tələblər barədə qətnamə çıxarılmamışsa;

2) hüquq barədə məsələ həll etmiş hakim alınmalı məbləğin, verilməli əmlakın miqdarını, yaxud cavabdehin etməli olduğu hərəkətləri göstərməmişsə;

3) məhkəmə xərcləri haqqında məsələ hakim tərəfindən həll edilməmişsə (MPM-in 229.1-ci maddəsi).

Əlavə qətnamənin çıxarılması barədə məsələyə qətnamənin qanuni qüvvəyə minməsinə qədər baxıla bilər. Əlavə qətnamə məsələnin məhkəmə iclasında müzakirəsindən sonra məhkəmə tərəfindən çıxarılır. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi əlavə qətnamənin çıxarılması məsələsinə baxmağa mane olmur (MPM-in 229.2-ci maddəsi).

MPM-in 229.3-cü maddəsinə görə, əlavə qətnamə çıxarmaqdan imtina barədə qərardaddan və ya əlavə qətnamədən şikayət verilə bilər.

Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır (MPM-in 217.1-ci, 217.2-ci, 217.3-cü və 217.4-cü maddələri).

Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadığını müəyyən edir.

Hakim, işə əhəmiyyəti olan yeni halları aydınlaşdırmağı və ya əlavə sübutları tədqiq etməyi zəruri hesab edərsə, məhkəmə iclasının təzələnməsi haqqında qərardad çıxarır. İşə mahiyyəti üzrə baxılması başa çatdıqdan sonra hakim yenidən tərəflərin çıxışlarını dinləyir.

Hakim işdə iştirak edən şəxslərin verdiyi tələblər üzrə qətnamə çıxarır. Lakin hakim qanunda göstərilən müstəsna hallarda iddia tələblərindən kənara çıxa bilər (MPM-in 218.1-ci, 218.2-ci və 218.3-cü maddələri).

AR Konstitusiyasının 130-cu maddəsinin V və IX hissələrini, MPM-in 216-cı, 217-ci, 218-ci, 219-cu və 220-ci maddələrini rəhbər tutaraq, məhkəmə

### Qət etdi:

Nəticə hissə

**İddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin gəldiyi nəticə:**

İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı nikahın pozulması tələbinə dair iddia tələbinə dair 2(004)-2013/2013 saylı mülki iş üzrə ərizəçi (iddiaçı) Əliyev Əli Nahid oğlunun əlavə qətnamə çıxarılmasına dair ərizəsi təmin edilsin.

İddiaçı tərəfindən ödənilmiş 20 (iyirmi) manat məbləğində dövlət rüsumu, iddiaçının tələbi təmin olunduğuna və həmçinin iddiaçıdan aliment tutulduğundan həmin məhkəmə xərci iddiaçıya aid edilsin.



**Məhkəmə xərclərinin bölüşdürülməsi:**

Məhkəmə ərizə (vəsatət) üzrə məhkəmə xərci müəyyən etmir.

**Qətnamədən şikayət vermə müddəti və qaydası:**

Qətnamədən tərəfə rəsmi qaydada təqdim edildikdən sonra 1 (bir) ay müddətində Bakı şəhəri Yasamal Rayon Məhkəməsi vasitəsilə Bakı Apellyasiya Məhkəməsinin Mülki İşlər üzrə Kollegiyasına apellyasiya şikayəti verilə bilər.

**hakim**
**Qalib Səmədov** **İmza:**

**məhkəmə iclas katibi**
**Qədim Əmirov** **İmza:**

Giriş hissə

## Qiyabi Qətnamə

25 fevral 2013-cü il, Bakı şəhəri

AR
Bakı şəhəri Yasamal Rayon Məhkəməsi

hakim Səmədov Qalib Səməd oğlunun,
məhkəmə iclas katibi Əmirov Qədim Əmir oğlunun,
iddiaçı Təhməzov Tağı Əhliman oğlunun və onun nümayəndəsi Əliyev Əli Nahid oğlunun iştirakı ilə,
iddiaçı Təhməzov Tağı Əhliman oğlunun cavabdehlər Cəfərova Xatirə İslam qızına və Zamanova Aygül Səməd qızına qarşı dəymiş maddi və mənəvi ziyanın ödənilməsi tələbinə dair iddia ərizəsi üzrə mülki işə açıq məhkəmə iclasında baxıldı.

İş üzrə iddiaçının və onun nümayəndəsinin izahatını və çıxışını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, məhkəmə

### Müəyyən etdi:

**Tələb:**

İddiaçı Təhməzov Tağı Əhliman oğlu cavabdehlər Cəfərova Xatirə İslam qızına və Zamanova Aygül Səməd qızına qarşı dəymiş maddi və mənəvi ziyanın ödənilməsi tələbinə dair iddia ərizəsi iddia ərizəsi ilə 11 yanvar 2013-cü il tarixdə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə müraciət etmiş və onun müraciəti əsasında məhkəmədə 2(004)-13/2013 saylı mülki iş açılmışdır.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsi hakiminin 11 yanvar 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadı ilə, iddia ərizəsi AR MPM-in 151-ci maddəsinə uyğun olaraq mümkün hesab edilmiş və icraata götürülmüşdür.

Mülki iş üzrə 27 yanvar 2013-cü il tarixdə hazırlıq iclası keçirilmiş və məhkəmənin 27 yanvar 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadına əsasən, mülki iş üzrə MPM-in 171-ci maddəsinin tələblərinə uyğun olaraq 12 fevral 2013-cü il tarixə məhkəmə baxışı iclası təyin edilmişdir.

12 fevral 2013-cü il tarixli məhkəmə baxışı cavabdehlər Cəfərova Xatirə İslam qızının və Zamanova Aygül Səməd qızının məhkəmə iclasına gəlməməsi səbəbindən 25 fevral 2013-cü il tarixə təxirə salınmışdır.

İddiaçı Təhməzov Tağı Əhliman oğlu cavabdehlər Cəfərova Xatirə İslam qızına və Zamanova Aygül Səməd qızına qarşı dəymiş maddi və mənəvi ziyanın ödənilməsi tələbinə dair iddia tələbi ilə məhkəməyə müraciət edərək iddia ərizəsində göstərmişdir ki, o, 2011-ci ildə cavabdeh Cəfərova Xatirə İslam qızı ilə ona məxsus 90-ZZ-705 dövlət qeydiyyat nişanlı «Opel Vektra» markalı avtomaşını 7500 (yeddi min beş yüz) ABŞ dollarına almaq barədə razılığa gəlmişdir.

Həmin vaxt cavabdeh Cəfərova Xatirə İslam qızı ona bildirmişdi ki, maşın onun olsa da o həmin maşını yaxın rəfiqəsi digər cavabdeh Zamanova Aygül Səməd qızının adına qeydiyyata almış və maşın hazırda bankda girovdadır, maşına görə banka olan kredit borcu 5000 (beş min) ABŞ dolları təşkil edir.

O, razılaşdırılmış məbləğin 2500 (iki min beş yuz) ABŞ dollarını ona verməli, qalan pulu, yəni 5000 (beş min) ABŞ dollarını banka ödəyib bankı yüklülükdən çıxarmalı idi və bundan sonra onun adına maşına da-



ir baş etibarnamə veriləcək və ya cavabdeh Zamanova Aygül Səməd qızı maşını onun adına qeydiyyata salacaqdır.

O, cavabdehlərin dedikləri bu şərtlərlə razılaşaraq 2500 (iki min beş yüz) ABŞ dolları məbləğində pulu cavabdeh Cəfərova Xatirə İslam qızına vermiş və hər ay banka olan ödənişləri həyata keçirtmişdir. Banka olan borcu tam ödədikdən sonra 29 fevral 2010-cu il tarixdə bankın girovda olduğu «Kreditaqro» MM QBKT Abşeron filialından həmin maşının yüklülükdən azad edilməsi barədə məktub götürmüşdür. Lakin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsində (bundan sonra sadəcə - DYPİ) ona sonradan məlum olmuşdu ki, dəyərini ödədiyi maşın üzərinə Bakı şəhəri Nizami Rayon Məhkəməsinin bir neçə qərarı ilə həbs qoyulmuşdur. O, bununla maraqlandıqda isə ona məlum olmuşdu ki, aldığı maşın cavabdeh Zamanova Aygül Səməd qızının adına olduğu üçün onun bir neçə şəxsə borcu olmuş və bu səbəbdən də həmin borcun ödənilməsi maşının üzərinə yönəlmişdir. Bu səbəbdən də o, maşını adına qeydiyyata ala bilməmişdir. Bundan sonra o, dəfələrlə cavabdehlərə müraciət edərək bu məsələni yoluna qoymalarını, yaxud da maşına görə vermiş olduğu və banka ödədiyi pulları - 7500 (yeddi min beş yüz) ABŞ dolları məbləğində pulu ona qaytarmalarını xahiş etmiş, lakin cavabdehlər ona əhəmiyyət verməmişlər.

O, maşının alqı-satqısı barədə danışığı cavabdeh Zamanova Aygül Səməd qızı ilə apardığı və razılaşdırılmış məbləğin 2500 (iki min beş yüz) ABŞ dollarını ona şəxsən, qalan pulu isə onun göstərişi əsasında banka ödədiyi üçün maşının dəyərini, yəni 7500 ABŞ dolları məbləğində pulu ondan tələb edir.

Cavabdehlər maşını ona satarkən üzərlərinə götürmüş olduqları öhdəlikləri yerinə yetirməmiş, maşını adına qeydiyyata saldırmamış, cavabdeh Cəfərova Xatirə İslam qızının borcu ilə bağlı maşın üzərinə həbs qoyulduğu üçün bu mümkünsüz olmuşdur. Cavabdehlərin bu hərəkəti üzündən ona maddi və mənəvi ziyan dəymişdir. Belə ki, o, həm pulundan, həm də aldığı maşından məhrum olmuş, düşdüyü bu vəziyyət ona böyük mənəvi zərbə vurmuş, sarsıntı və əsəb keçirmişdir. Buna görə də bu hadisələr nəticəsində ona vurulmuş mənəvi ziyanı 1000 (min) manat məbləğində qiymətləndirir həmin pulun da 500 (beş yüz) manatını cavabdeh Cəfərova Xatirə İslam qızından, digər 500 (beş yüz) manatını isə cavabdeh Zamanova Aygül Səməd qızından tələb edir.

Göstərilənləri nəzərə alaraq cavabdeh Cəfərova Xatirə İslam qızından ona məxsus 90-ZZ-705 dövlət qeydiyyat nişanlı, «Opel Vektra» markalı avtomaşını almaq məqsədi ilə ödədiyi 7500 (yeddi min beş yüz) ABŞ dolları məbləğində pulun (2013-cü ildə Azərbaycan puluna məzənnəsi ilə) və ona vurulmuş mənəvi ziyan olaraq 500 (beş yüz) manat məbləğində pulun, digər cavabdeh Zamanova Aygül Səməd qızından ona vurulmuş 500 (beş yüz) manat məbləğində mənəvi ziyanın alınaraq ona verilməsi barədə qətnamə qət edilməsini məhkəmədən xahiş etmişdir.

**Cavabdehin izahatı (etirazları və ya mülahizələri):**

Məhkəmənin iş üzrə keçirdiyi 27 yanvar 2013-cü il tarixli hazırlıq iclasının vaxtı və yeri barəsində cavabdehlərə lazımi qaydada məlumat verilməyinə baxmayaraq, cavabdehlər məhkəmənin hazırlıq iclasına gəlməmiş və MPM-in 139.2.9-cu maddəsinin tələbini yerinə yetirməyərək gəlməməsinin səbəbləri barəsində məhkəməyə hər hansı bir məlumat verməmişdirlər. Eyni zamanda MPM-in 185.5-ci maddəsinə uyğun olaraq gəlməmənin səbəbləri barədə məhkəməyə hər hansı bir sübut təqdim edilməmişdir.

Məhkəmə MPM-in 185.5-ci maddəsinin tələblərini rəhbər tutaraq məhkəmə hazırlıq iclasını cavabdehlərin iştirakı olmadan keçirilməsini mümkün hesab etmişdir.

Məhkəmənin iş üzrə keçirdiyi 12 fevral 2013-cü il tarixli baxış iclasının vaxtı və yeri barəsində cavabdehlərə lazımi qaydada məlumat verilməyinə baxmayaraq, cavabdehlər məhkəmənin baxış iclasına gəlməmiş və MPM-in 139.2.9-cu maddəsinin tələbini yerinə yetirməyərək gəlməməsinin səbəbləri barəsində məhkəməyə hər hansı bir məlumat verməmişdirlər. Eyni zamanda MPM-in 185.5-ci maddəsinə uyğun olaraq gəlməmənin səbəbləri barədə məhkəməyə hər hansı bir sübut təqdim edilməmişdir.

Məhkəmə MPM-in 188-ci maddəsinin tələblərini rəhbər tutaraq məhkəmə baxış iclasını cavabdehlərin iştirakı olmadan keçirilməsini mümkün hesab etməmiş və məhkəmə baxış iclasını 25 fevral 2013-cü il tarixə təxirə salmışdır.

25 fevral 2013-cü il tarixə təyin edilmiş baxış iclasının vaxtı və yeri barəsində cavabdehlərə lazımi qaydada məlumat verilməyinə baxmayaraq, cavabdehlər məhkəmənin baxış iclasına gəlməmiş və MPM-in



139.2.9-cu maddəsinin tələbini yerinə yetirməyərək gəlməməsinin səbəbləri barəsində məhkəməyə hər hansı bir məlumat verməmişdirlər. Eyni zamanda MPM-in 185.5-ci maddəsinə uyğun olaraq gəlməmənin səbəbləri barədə məhkəməyə hər hansı bir sübut təqdim edilməmişdir.

Həmin tarixdə iddiaçı Təhməzov Tağı Əhliman oğlunun nümayəndəsi Əliyev Əli Nahid oğlu məhkəməyə ərizə təqdim edərək işə qiyabi icraat qaydasında baxılmasını xahiş etmişdir.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsi hakiminin 25 fevral 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadı ilə, iddia ərizəsi əyani icraatdan alınaraq qiyabi icraatda baxılması qərara alınmışdır.

**Əsaslandırıcı hissə**

**İşin məhkəmə tərəfindən müəyyən edilən halları:**

İddiaçı tərəfindən məhkəməyə təqdim olunmuş sübutlardan aşağıdakılar müəyyən olunur:

1. DYPİ-nin 03 iyun 2012-ci il tarixli, 15/Q-4551 saylı məktubundan müəyyən olunur ki, DYPİ-nin Qeydiyyat-İmtahan Şöbəsinin kompüter uçotuna görə 90-ZZ-705 dövlət qeydiyyat nişanlı "Opel Vectra" markalı avtomobil Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə 203, ev 43 ünvanda qeydiyyatda olan Cəfərova Xatirə İslam qızının adında 12.11.2007-ci ildən qeydiyyatdadır. Avtomobil "Creditaqro QBKT" Abşeron filialında (bundan sonra sadəcə - bank) girovdadır və etibarnamə əsasında Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə 203, ev 43 ünvanda qeydiyyatda olan 12 may 1978-ci il təvəllüdlü Zamanova Aygül Səməd qızı idarə edir.

2. Bankın g-Ab 211/13 saylı, 23 fevral 2013-cü il tarixli məktubdan müəyyən olunur ki, 12 noyabr 2007-ci il tarixli CAAbs 12915/07 nömrəli kredit müqaviləsinə əsasən Cəfərova Xatirə İslam qızı Bankdan götürdüyü kreditin qaytarılması üzrə öhdəliklərini tam icra etmişdir. Bununla əlaqədar görülmüş kreditin qaytarılmasının təmin edilməsi məqsədilə 12 noyabr 2007-ci il tarixli CAAbs 12915/07 nömrəli kredit müqaviləsinə əsasən ipotekaya qoyulmuş olan Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə 203, ev 43 ünvanında yaşayan Cəfərova Xatirə İslam qızına məxsus olan və aşağıda göstərilən minik avtomobili ipoteka ilə yüklülükdən azad edilməsi xahiş edilmişdir: 1. Şəxsi avtomobil: "Opel Vectra" minik markalı, 90-ZZ-705 qeydiyyat nişanlı, tip: sedan, buraxı-

lış ili: 1995, müh: 31052415, ban: WOL000087S1145958, rəngi – ağ olan minik avtomobili.

3. AB seriyalı, 111111 saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surətindən müəyyən olunur ki, "Opel Vectra" minik markalı, 90-ZZ-705 qeydiyyat nişanlı maşının sahibi Cəfərova Xatirə İslam qızıdır. Avtomaşın Bankda girovdadır.

4. ƏN-I seriyalı, 666666 etibarnamənin notarial qaydada təsdiq edilmiş surətindən müəyyən olunur ki, Cəfərova Xatirə İslam qızı AA seriyalı, 444444 nömrəli, B dərəcəli sürücülük vəsiqəsi olan Təhməzov Tağı Əhliman oğluna DYPİ tərəfindən 12 noyabr 2007-ci ildə verilmiş AB seriyalı, 777777 nömrəli qeydiyyat şəhadətnaməsi əsasında ona məxsus "Opel Vectra" minik markalı, mühərrik nömrəsi 31052415 olan, ban nömrəsi VVOL00008781145958 olan, buraxılış ili 1995 olan, 19-ZZ-705 qeydiyyat nişanlı nəqliyyat vasitəsini idarə etməyi etibar edir.

5. AB seriyalı, 555555 AR sürücülük vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surətindən müəyyən olunur ki, Təhməzov Tağı Əhliman oğluna 15 noyabr 2011-ci il tarixdə 10 il müddətinə "B" dərcəli sürücülük vəsiqəsi verilmişdir.

6. Cəfərova Xatirə İslam qızı tərəfindən yazılmış və imzalanmış əlyazmada göstərilmişdir: "Mən Cəfərova Xatirə İslam qızı, həqiqətən 90-ZZ-705 nömrəli maşını Təhməzov Tağı Əhliman oğluna satmışam. Bütün ödənişləri Təhməzov Tağı Əhliman oğlu edib. Ondan heç bir alacağım yoxdur. Cəfərova Xatirə İslam qızı. 23.02.2010."

7. Zamanova Aygül Səməd qızı tərəfindən yazılmış və imzalanmış əlyazmada göstərilmişdir: "Mən Zamanova Aygül Səməd qızı öz avtomobilimi "Opel Vektra" markalı, 90-ZZ-705 nömrəli maşını Təhməzov Tağı Əhliman oğluna 2500 ABŞ dollarına satdım. Onun mənə heç bir borcu yoxdur. İmza. 28.06.2011. Zamanova Aygül Səməd qızı."

**İşin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər:**

MPM-in 4.1-ci maddəsinə əsasən, bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.



Məhkəmə həqiqətə nail olmaq üçün, işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Məhkəmə tərəflərə məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur və tərəflər qanunda nəzərdə tutulan hallar istisna edilməklə, iddianı etiraf edə və yaxud ondan imtina edə bilərlər (MPM-in 14.1-ci, 14.2-ci və 14.3-cü maddələri).

Məhkəmə işə baxarkən iş üzrə sübutları bilavasitə tədqiq etməyə, tərəflərin və üçüncü şəxslərin izahatlarını, şahidlərin ifadələrini, ekspertlərin rəylərini dinləməyə, yazılı sübutlarla tanış olmağa, maddi sübutları müayinə etməyə, səs yazılarına qulaq asmağa, videoyazılara baxmağa və işə baxılması ilə əlaqədar digər hərəkətləri etməyə borcludur (MPM-in 175.1-ci maddəsi).

Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir (MPM-in 77.1-ci maddəsi).

Həmçinin MPM-in 88-ci maddəsinə əsasən, məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

Lazımi sübutların əsli və ya lazımi qaydada təsdiq olunmuş surəti təqdim edilir. Əgər baxılan işə sənədin yalnız bir hissəsi aiddirsə, belə olan halda, bu sənəddən təsdiq olunmuş çıxarış təqdim edilir.

Sənədlərin əsli qanunlara və ya digər normativ hüquqi aktlara müvafiq olaraq, işin halları ancaq bu cür sənədlərlə təsdiq edildikdə və ya məhkəmənin tələbi ilə digər zəruri hallarda təqdim edilir (MPM-in 89.3-cü və 89.4-cü maddələri).

İşdə iştirak edən şəxslərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir.

Digər tərəf sübutları özündə saxlayıb məhkəmənin tələbi ilə təqdim etmədikdə, məhkəmə tərəflərin bildirdiyi məlumatlar əsasında iş üçün

əhəmiyyətli olan halları müəyyən olunmuş hesab edə bilər (MPM-in 106.1-ci, 106.2-ci maddələri).

MPM-in 193-cü maddəsinə görə hakim işdə iştirak edən şəxslərin izahatlarını dinləyib onların mülahizəsini nəzərə alaraq, sübutların tədqiq edilməsinin ardıcıllığını müəyyən edir.

Məhkəmə iş materiallarında olan DYPİ-nin 03 iyun 2012-ci il tarixli, 15/Q-4551 saylı məktubunu, Bankın g-Ab 211/13 saylı, 23 fevral 2013-cü il tarixli məktubunu, AB seriyalı, 111111 saylı nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surətini, ƏN-1 seriyalı, 666666 etibarnamənin notarial qaydada təsdiq edilmiş surətini, AB seriyalı, 555555 AR sürücülük vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surətini, Cəfərova Xatirə İslam qızı və Zamanova Aygül Səməd qızı tərəfindən yazılmış və imzalanmış əlyazmaları əsas sübut hesab etmişdir.

Eyni zamanda məhkəmə iddiaçının, onun nümayəndəsinin izahatlarını və çıxışlarını sübut yüklü hallar kimi qiymətləndirmişdir.

İddiaçı tələbinin hüquqi əsası kimi, MM-in 1108.1-ci və 21–ci maddələrinə, həmçinin MPM-in 217-ci və 218–ci maddələrinə istinad etmişdir.

İddiaçının nümayəndəsi təmsil etdiyi şəxsin iddia tələbini müdafiə edərək, onun istinad etdiyi hüquqi normalara istinad etmiş və iddia tələbinin təmin olunmasını məhkəmədən xahiş etmişdir.

Cavabdehlər məhkəmə iclaslarında iştirak etmədiklərindən və iddiaya dair məhkəməyə hər hansı məlumat təqdim etmədiklərindən məhkəmə onların iddaya dair münasibətlərini müəyyən edə bilməmişdir.

**Məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və normativ-hüquqi aktlar (cavabdeh tərəfindən iddia tələbi etiraf edildikdə qətnamənin əsaslandırıcı hissəsində yalnız iddianın etiraf edilməsi və onun məhkəmə tərəfindən qəbul edilməsi göstərilə bilər):**

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin AR Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır (MPM-in 2.1-ci maddəsi).



MPM-in 2.2-ci maddəsinə əsasən, mülki məhkəmə icraatı qanunçuluğun və ictimai qaydanın bərqərar edilməsinə, vətəndaşların qanunlara dönmədən hörmət ruhunda tərbiyə edilməsinə rəvac verir.

Məhkəmə icraatı işə baxılan, ayrı-ayrı prosessual hərəkətlər həyata keçirilən və yaxud məhkəmə aktı icra edilən zaman qüvvədə olan mülki prosessual qanuna əsasən aparılır (MPM-in 3.1-ci maddəsi).

Mülki işlər və iqtisadi mübahisələr üzrə ədalət mühakiməsi yalnız məhkəməyə aiddir və məhkəmələr tərəfindən qanunla müəyyən olunmuş qaydada həyata keçirilir (MPM-in 6-cı maddəsi).

Ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir.

MPM ilə başqa hal nəzərdə tutulmayıbsa, məhkəmədə mübahisəyə işdə iştirak edən şəxslər çağırılıb dindirilmədikdə baxıla bilməz. İşdə iştirak edən şəxslər öz tələblərini əsaslandırdıqları dəlillər, sübutlar və hüquqi nəticələr barədə bir-birlərinə məlumat verməyə borcludur ki, digər tərəf bunlara qarşı özünün müdafiəsini təşkil edə bilsin.

Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz (MPM-in 9.1-ci, 9.2-ci və 9.3-cü maddələri).

MPM-in 13.1-ci maddəsinə görə, məhkəmə mübahisələri AR-in Konstitusiyasına, referendumla qəbul edilən hüquqi aktlara, qanunlara, AR prezidentinin fərmanlarına, AR Nazirlər Kabinetinin qərarlarına, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına, habelə AR-in tərəfdar olduğu beynəlxalq müqavilələrə əsasən həll edir.

Məhkəmə iddia tələbini və iş materiallarını araşdıraraq hesab edir ki, hazırki iddia tələbi ilə bağlı, "Dövlət rüsumu haqqında" AR Qanununa, MM-ə və MPM-ə istinad edilməklə kifayətlənmək və əsaslandırılmış qətnamə qəbul etmək mümkündür.

MPM-in 15.1-ci maddəsinə əsasən, məhkəmə məhkəmə aktlarını qətnamə, qərardad, qərar və əmr formasında qəbul edir.

AR-in məhkəmələri, MPM-ə və ya digər qanunlara müvafiq olaraq onların müdafiəsi məhkəmədən kənar digər qaydada həyata keçirilmir-

sə, pozulmuş və mübahisə edilən hüquq və azadlıqları müdafiə və təmin edir (MPM-in 24.1-ci maddəsi).

İclasın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş cavabdeh məhkəmə iclasına gəlmədikdə və gəlməməsinin səbəbləri barədə məlumat vermədikdə, iddiaçı buna etiraz etmədikdə, işə qiyabi icraat qaydasında baxıla bilər (MPM-in 238.1-ci maddəsi).

MPM-in 238.2-ci maddəsinə görə, işdə bir neçə cavabdeh iştirak etdikdə, məhkəmə iclasına bütün cavabdehlər gəlmədikdə işə qiyabi icraat qaydasında baxılması mümkündür.

Həmçinin MPM-in 238.3-cü maddəsinə görə, işdə cavabdehin lazımi qaydada xəbərdar edilməsi barədə məlumatlar olmalıdır.

İşə qiyabi baxılmasına iddiaçının razılığı yazılı formada olmalıdır (MPM-in 238.4-cü maddəsi).

MPM-in 238.5-ci maddəsinə əsasən, işə qiyabi icraat qaydasında baxılması barədə məhkəmə qərardad çıxarır.

MM-in 1108.1-ci maddəsinə əsasən, ətrafdakılar üçün yüksək təhlükə ilə bağlı fəaliyyəti (nəqliyyat vasitələrindən, mexanizmlərdən, yüksək gərginlikli elektrik enerjisindən, atom enerjisindən, partlayıcı maddələrdən, güclü təsir edən zəhərlərdən və i.a. istifadə edilməsi; tikinti fəaliyyətinin və onunla bağlı digər fəaliyyətin həyata keçirilməsi və s.) nəticəsində mülki hüquq pozuntusu törətmiş fiziki və hüquqi şəxslər yüksək təhlükə mənbəyinin vurduğu zərərin əvəzini ödəməyə borcludurlar, bu şərtlə ki, zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin qəsdi nəticəsində əmələ gəldiyini sübuta yetirməsinlər[1].

Məhkəmə iddia tələbinin cavabdehdən mənəvi ziyanın tutulmasına dair tələbi üzrə qeyd edir ki, MM-in 21.2-ci maddəsinə əsasən, zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

[1] Birinci instansiya məhkəməsi tərəfindən qəbul edilən 13 may 2013-cü il tarixli qətnamə nümunəsindən fərqli olaraq burada iddia tələbi ilə bağlı normativ hüquqi aktın yalnız bir normasına istinad olunmuşdur. Bununla oxuculara çatdırmaq istəyirik ki, məhkəmə qətnaməsinin qanuni və əsaslı olması üçün bir maddi norma da kifayət edir.



"AR MM-in 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" AR Konstitusiya Məhkəməsinin 31 may 2002-ci il tarixli Qərarında qeyd edilir ki, mənəvi zərər adətən vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri-əmlak zərəri olmaqla, iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir.

Zərər çəkən fiziki şəxsin mənəvi sarsıntı keçirməsi dedikdə, ona qarşı törədilən qanunsuz hərəkətin və ya hərəkətsizliyin şüurunda müəyyən mənfi psixi reaksiyaya səbəb olması, iztirab keçirməsi dedikdə isə onun sağlamlığının pozulması nəticəsində fiziki əzab çəkməsi anlaşılır.

Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərərçəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloji reaksiyaya səbəb olur. Mənəvi zərər vətəndaşların hüquqlarının pozulmasının müstəqil nəticəsidir. O həm vurulmuş əmlak zərəri ilə birlikdə, yaxud əmlak zərəri vurulmadığı hallarda kompensasiya edilir.

Beləliklə, məhkəmə iş üzrə müəyyən edilən hallara məcmu halında qiymət verərək hesab edir ki, iddia tələbinin maddi və mənəvi ziyana dair hissəsi təmin edilməli, cavabdehlərdən maddi ziyana görə 7500 (yeddi min beş yüz) ABŞ dolları, mənəvi zyana 1000 manat məbləğində vəsait alınıb iddiaçıya verilməlidir.

Məhkəmə xərcləri dövlət rüsumundan və işə baxılması ilə əlaqədar olan məsrəflərdən ibarətdir (MPM-in 107-ci maddəsi).

Məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə münasib olaraq işdə iştirak edən şəxslərə aid edilir (MPM-in 119.1-ci maddəsi).

İddiaçı müəyyən olunmuş qaydada dövlət rüsumunu ödəməkdən azad edilmişsə, dövlət rüsumu iddianın təmin edilmiş hissəsinə münasib olaraq cavabdehdən tutularaq dövlət gəlirlərinə alınır (MPM-in 119.2-ci maddəsi).

İş materiallarından göründüyü kimi, ilkin iddia üzrə iddiaçı 30 (otuz) manat məbləğində dövlət rüsumu ödəmişdir.

Məhkəmə, məhkəmə xərclərinin bölüşdürülməsi məsələsi ilə bağlı əsasən belə nəticəyə gəlir ki, hazırki iddia ərizəsi təmin edildiyindən id-

diaçı tərəfindən ödənilmiş 30 (otuz) manat məbləğində dövlət rüsumu cavabdehlərə aid edilməli və cavabdehlərdən tutularaq iddiaçıya ödənilməlidir.

Beləliklə, yuxarıda göstərilənlərə əsasən məhkəmə belə nəticəyə gəlir ki:

- iddiaçı Təhməzov Tağı Əhliman oğlunun cavabdehlər Cəfərova Xatirə İslam qızına və Zamanova Aygül Səməd qızına qarşı dəymiş maddi və mənəvi ziyanın ödənilməsi tələbinə dair iddia tələbi təmin edilməli;
- cavabdehlər Cəfərova Xatirə İslam qızından və Zamanova Aygül Səməd qızından müştərək qaydada maddi ziyana görə 7500 (yeddi min beş yüz) ABŞ dolları, mənəvi ziyana görə 1000 (min) manat tutulub iddiaçı Təhməzov Tağı Əhliman oğluna verilməli;
- iş üzrə ödənilmiş 30 (otuz) manat məbləğində dövlət rüsumu cavabdehlərə aid edilərək, cavabdehlərdən müştərək qaydada tutularaq iddiaçıya verilməlidir.

Qiyabi icraat qaydasında işə baxarkən hakim, tərəflərin təqdim etdiyi sübutların tədqiqi ilə kifayətlənir, onların dəlillərini və vəsatətlərini nəzərə alır və qiyabi adlanan qətnamə çıxarır.

Qətnaməni tərtib edərkən hakim MPM-in 16-cı fəslinin müddəalarını rəhbər tutur.

İşə qiyabi icraat qaydasında baxılarkən iddianın əsasları və ya predmeti dəyişdirilə və ya iddia tələblərinin məbləği artırıla bilməz.

İddiaçının tələbi əsaslı olduqda, məhkəmə onun iddiasını qiyabi qətnamə ilə təmin edir.

İddiaçının dəlilləri iddia tələblərini tamamilə və ya qismən təsdiq etməsə, məhkəmə iddianın və ya onun hissəsinin rədd olunmasına dair qətnamə çıxarır və belə qətnamə, cavabdehin gəlməməsinə baxmayaraq, qiyabi hesab edilmir (MPM-in 241.1-ci, 241.2-ci, 241.3-cü, 241.4-cü və 241.5-ci maddələri).

Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.



Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır (MPM-in 217.1-ci, 217.2-ci, 217.3-cü və 217.4-cü maddələri).

Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadığını müəyyən edir.

Hakim, işə əhəmiyyəti olan yeni halları aydınlaşdırmağı və ya əlavə sübutları tədqiq etməyi zəruri hesab edərsə, məhkəmə iclasının təzələnməsi haqqında qərardad çıxarır. İşə mahiyyəti üzrə baxılması başa çatdıqdan sonra hakim yenidən tərəflərin çıxışlarını dinləyir.

Hakim işdə iştirak edən şəxslərin verdiyi tələblər üzrə qətnamə çıxarır. Lakin hakim qanunda göstərilən müstəsna hallarda iddia tələblərindən kənara çıxa bilər (MPM-in 218.1-ci, 218.2-ci və 218.3-cü maddələri).

MPM-in 220.5-ci maddəsinə görə qətnamənin nəticə hissəsində iddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin hansı nəticəyə gəldiyi, məhkəmə xərclərinin bölüşdürülməsi, qətnamədən şikayət vermə müddəti və qaydası göstərilməlidir; işə qiyabi baxıldığı halda qətnamənin nəticə hissəsində cavabdehin qətnamənin ləğvi üçün ərizə vermə qaydası da əks olunmalıdır.

Qiyabi qətnamənin məzmunu bu fəslin və MPM-in 16-cı fəslinin qaydaları ilə müəyyən edilir. Qiyabi qətnamənin nəticə hissəsində qətnaməyə yenidən baxılması üçün ərizə vermə vaxtı və qaydası göstərilməlidir (MPM-in 242-ci maddəsi).

Cavabdeh qətnamənin ona rəsmi qaydada verilməsindən sonra 10 gün müddətində həmin qətnamənin ləğvi üçün qiyabi qətnaməni çıxartmış məhkəməyə ərizə verməyə haqlıdır (MPM-in 244-cü maddəsi).

AR Konstitusiyasının 130-cu maddəsinin V və IX hissələrini, MPM-in 216-cı, 217-ci, 218-ci, 219-cu və 220-ci maddələrini rəhbər tutaraq, məhkəmə

**Qət etdi:** **Nəticə hissə**

**İddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin gəldiyi nəticə:**

İddiaçı Təhməzov Tağı Əhliman oğlunun cavabdehlər Cəfərova Xatirə İslam qızına və Zamanova Aygül Səməd qızına qarşı dəymiş maddi və mənəvi ziyanın ödənilməsi tələbinə dair iddia tələbi təmin edilsin.

Cavabdehlər Cəfərova Xatirə İslam qızından və Zamanova Aygül Səməd qızından müştərək qaydada maddi ziyana görə 7500 (yeddi min beş yüz) ABŞ dolları (2013-cü ildə Azərbaycan puluna məzənnə ilə), mənəvi ziyana görə 1000 (min) manat tutulub iddiaçı Təhməzov Tağı Əhliman oğluna verilsin.

**Məhkəmə xərclərinin bölüşdürülməsi:**

İş üzrə ödənilmiş 30 (otuz) manat məbləğində dövlət rüsumu cavabdehlərə aid edilərək, cavabdehlərdən müştərək qaydada tutularaq iddiaçıya verilsin.

**Cavabdehin qətnamənin ləğvi üçün ərizə vermə qaydası:**

Cavabdehlər Cəfərova Xatirə İslam qızı və Zamanova Aygül Səməd qızı 10 (on) gün müddətində qətnamənin ləğvi üçün Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə müraciət edə bilərlər.

**Qətnamədən şikayət vermə müddəti və qaydası:**

Qətnamədən tərəfə rəsmi qaydada təqdim edildikdən sonra 1 (bir) ay müddətində Bakı şəhəri Yasamal Rayon Məhkəməsi vasitəsilə Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasına apellyasiya şikayəti verilə bilər.

**hakim**
**Qalib Səmədov** — **İmza:**

**məhkəmə iclas katibi**
**Qədim Əmirov** — **İmza:**



**Qətnamə** — Giriş hissə

12 iyun 2013-ci il, Bakı şəhəri

AR
Bakı Apellyasiya Məhkəməsi

hakimlər Səmədov Qalib Səməd oğlunun (sədr), Əliyev Səməd Maarif oğlunun (məruzəçi hakim) və Həmidova Minayə Məmməd qızının,
məhkəmə iclas katibi Əmirov Qədim Əmir oğlunun,
iddiaçı Əliyev Əli Nahid oğlunun,
cavabdeh (şikayət verən şəxs) Məmmədova Pakizə Məmməd qızının nümayəndəsi Hadıyev Samir Həsən oğlunun iştirakı ilə,

iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı ləyaqətsiz vərəsə hesab edilmə tələbinə dair iddia ərizəsi üzrə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsindən cavabdeh Məmmədova Pakizə Məmməd qızının apellyasiya şikayətinə qapalı məhkəmə iclasında baxıldı.

İş üzrə iddiaçının və cavabdehin nümayəndəsinin izahatlarını və çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, məhkəmə

**Müəyyən etdi:** — **Təsviri hissə**

**Tələb:**

İddiaçı Əliyev Əli Nahid oğlu cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı ləyaqətsiz vərəsə hesab edilmə tələbinə dair iddia ərizəsi ilə 11 mart 2013-cü il tarixdə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə (bundan sonra sadəcə - birinci instansiya məhkəməsi) müraciət etmiş və onun müraciəti əsasında məhkəmədə 2(004)-13/2013 saylı mülki iş açılmışdır.

Müraciət onunla əsaslanmışdır ki, mərhum oğlu Əliyev Maqsud Əli oğlu 31 avqust 2002-ci ildə Məmmədova Pakizə Məmməd qızı ilə nikahlarını rəsmiləşdirirək evlənmişlər. Birgə nikahdan uşaqları olmamışdır. Nikahdan sonar onlar şəxsi vəsaiti hesabına oğluna aldığı evdə ya-

şamışlar. Cavabdeh Məmmədova Pakizə Məmməd qızı ilə oğlunun münasibətləri axır vaxtlar korlanmışdır. Mübahisələri ev üstündə olurdu. Hətta üç il əvvəl o da bildirişdir ki, əgər "yola getmirsinizsə, evdən çıx get, boşanın". O zaman da cavabdeh bildirmişdir ki, o, bu evdən heç yana gedən deyildir. Özünün (cavabdehin) dediyi kimi də axır 3 ildə ər-arvad münasibətləri olmamışdır. 04 aprel 2010-cu il tarixdə cavabdeh oğlu Əliyev Maqsud Əli oğlunu bıçaqla vuraraq qəsdən öldürmüşdür. 04 aprel 2010-cu il tarixdə Yasamal rayon qeydiyyat şöbəsi tərəfindən ona ölüm haqqında şəhadətnamə verilmişdir. Cavabdehin törətdiyi əmələ görə cinayət məsuliyyətinə cəlb edilmiş və Ağır cinayətlərə dair işlər üzrə AR Məhkəməsinin 23 iyul 2010-cu il tarixli hokmü ilə AR-in CM-nin 120.1-ci maddəsi ilə təqsirli bilinib 10 (on) il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşdur. Hesab edir ki, oğlunu qəsdən öldürən şəxs onun vərəsəsi ola bilməz.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsi hakiminin 13 mart 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadı ilə, iddia ərizəsi AR MPM-in 151-ci maddəsinə uyğun olaraq mümkün hesab edilmiş və icraata götürülmüşdür.

Mülki iş üzrə 27 mart 2013-cü il tarixdə hazırlıq iclası keçirilmiş və məhkəmənin 27 mart 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qərardadına əsasən, mülki iş üzrə MPM-in 171-ci maddəsinin tələblərinə uyğun olaraq 12 aprel 2013-cü il tarixə məhkəmə baxışı iclası təyin edilmişdir.

Məhkəmə baxış iclasının yekun məticəsi kimi Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsi ilə iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı ləyaqətsiz vərəsə hesab edilmə tələbinə dair iddia tələbi təmin edilmişdir.

İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı ləyaqətsiz vərəsə hesab edilmə tələbinə dair iddia ərizəsi üzrə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsindən cavabdeh Məmmədova Pakizə Məmməd qızı apellyasiya şikayəti vermişdir.

Apellyasiya şikayəti onun əsaslandırılmışdır ki, onun hüquqazidd əməli vərəsəlik məsələsi ilə əlaqədar olmayan başqa motivə görə, ərinin mütəmadi olaraq evə içkili vəziyyətdə gəlməsi, ictimai-faydalı əməklə məşğul olmaması və nəhayət, hadisə günü onuu zorlamağa cəhd göstərdiyi üçün aralarında baş vermiş mübahisə zamanı və sonuncunun özünü müdafiə etməsi nəticəsində baş vermişdir. Hesab edir ki, qəsd formasında hərəkət başqa motivə görə edildiyindən və mirasın açılmasının tezləşməsinə, miras əmlakın arzu olunan qaydada bölgüsünə nail edilməsinə yönəlmədiyindən göstərilən əməl müdafiə etdiyi şəxsi ləyaqətsiz vərəsə kateqoriyasına aid etmək üçün əsas ola bilməz. Şəxs yalnız özünün vərəsəliyə çağırılmasına imkan yaratmaq və kömək etmək niyyəti ilə miras qoyanı öldürdükdə ləyaqətsiz vərəsə kimi tanına bilər.

Apellyasiya şikayəti birinci instansiya məhkəməsi tərəfindən MPM-in 364-cü maddəsinin tələbi baxımından mümkün hesab edilmiş və mülki işlə baxılması üçün Bakı Apellyasiya Məhkəməsinin Mülki İşlər üzrə Kollegiyasına (bundan sonra sadəcə - apellyasiya instansiya məhkəməsi) göndərilmişdir.

Apellyasiya instansiya məhkəməsi MPM-in 366-cı maddəsinin tələblərinə uyğun olaraq 27 may 2013-cü il tarixli, 2(002)-167/2013 saylı qərardadı ilə apellyasiya şikayətini mümkün hesab edərək icraata götürmüş və iş üzrə 12 iyun 2013-cü il tarixə baxış iclası təyin etmişdir.

Məhkəmənin 12 iyun 2013-cü il tarixli, 2(002)-167/2013 saylı qərardadına əsasən, məhkəmə iclasının qapalı keçirilməsi müəyyən edilmişdir.

Göstərilən tarixdə iddiaçı məhkəmə tərkibinə daxil olan hakim Həmidova Minayə Məmməd qızına MPM-in 19-cu və 20-ci maddəsinin tələblərinə uyğun olaraq etiraz təqdim etmişdir.

Məhkəmənin 12 iyun 2013-cü il tarixli, 2(002)-167/2013 saylı qərardadına görə iddiaçının ərizəsi rədd edilmiş və məhkəmə iclası davam etdirilmişdir.

Məhkəmə iclasında cavabdeh Məmmədova Pakizə Məmməd qızının nümayəndəsi Hadıyev Samir Həsən oğlu apellyasiya şikayətini müdafiə edərək təmin olunmasını məhkəmədən xahiş etmişdir.

**Cavabdehin (maraqlı şəxsin) izahatı (etirazları və ya mülahizələri):**

İddiaçı Əliyev Əli Nahid oğlu yazılı formada apelllyasiya şikayətinə etiraz təqdim etmiş və göstərmişdir ki, apellyasiya şikayəti tam əsassızdır ona görə ki, cavabdehin cinayət əməlini hansı məqsədlə törətməsindən asılı olmayaraq, məhz onun hüquqazidd hərəkəti nəticəsində miras

qoyan ölmüş və mirasın açılması tezləşmişdir. Bu səbəbdən Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsi tam əsaslıdır və dəyişdirilmədən saxlanılmalıdır.

**Əsaslandırıcı hissə**

**İşin məhkəmə tərəfindən müəyyən edilən halları:**

İş materiallarında olan notariat qaydasında təsdiq olunmuş Bakı şəhər Ərazi İdarəsinin 09 noyabr 2000-ci il tarixli FM seriyalı 0083363 nömrəli qeydiyyat vəsiqəsindən görünür ki, Bakı şəhəri, Şərifzadə küçəsi 203, ev 43-də yerləşən ikiotaqlı ümumi sahəsi 44,0 kv metr, yaşayış sahəsi 28,7 kv metr olan 43 nömrəli fərdi yaşayış evi Əliyev Maqsud Əli oğlunun adına xüsusi mülkiyyət kimi hüquqi qeydiyyatdan keçirilmiş və bu barədə 46 saylı reyestr kitabında 6948-ci vərəqində 30/23120 nömrə ilə qeyd edilmişdir.

Notariat qaydasında təsdiq olunmuş II-AZ seriyalı 027938 nömrəli nikahın bağlanması haqqında şəhadətnamənin surətindən müəyyən olunur ki, Əliyev Maqsud Əli oğlu və Məmmədova Pakizə Məmməd qızı 31 avqust 2002-ci ildə nikahlarını rəsmiləşdirmiş və bu barədə nikahın bağlanması haqqında akt qeydləri kitabında 509 nömrə ilə qeyd edilmişdir. Nikah bağlandıqdan sonar hər bir tərəf öz soyadında qalmışdır

İş materiallarına əlavə edilmiş Ağır cinayətlərə dair işlər üzrə AR Məhkəməsinin 23 iyul 2010-cu il tarixli qanuni qüvvəyə minmiş hökmü ilə Məmmədova Pakizə Məmməd qızı AR CM-in 120.1-ci maddəsi ilə təqsirli bilinib 10 (on) il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşdur. Hökmə əsasən Məmmədova Pakizə Məmməd qızı 4 aprel 2010-cu ildə saat 02:30-da yaşadığı Bakı şəhəri, Şərifzadə küçəsi 203, ev 43-də əri Əliyev Maqsud Əli oğlu ilə (mütəmadi evə içkili gəlməsi, ictimai faydalı əməklə məşğul olmaması, maddi cəhətdən köməklik göstərilməməsi) ailə-məişət münasibətləri zəminində dalaşaraq aralarında baş vermiş mübahisə zamanı onu qəsdən həyatdan məhrum etmək məqsədi ilə mətbəxdən götürdüyü bıçaqla vuraraq döş qəfəsinin sol ön səthindən daxilə keçib ürəyin zirvəsini zədələyərək sağlamlığa ağır zərər vuran xəsarət yetirməklə qəsdən öldürmüşdür.

Notariat qaydasında təsdiq olunmuş AZ-I seriyalı 416877 nömrəli ölüm haqqında şəhadətnamədən müəyyən olunur ki, Əliyev Maqsud Əli



oğlu 4 aprel 2010-cu ildə ölmüşdür və bu barədə ölüm haqqında akt qeydləri kitabında 16 apreı 2010-cu ildə 509 nömrə ilə qeyd edilmişdir.

İş materiaalarında olan Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsi ilə iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı ləyaqətsiz vərəsə hesab edilmə tələbinə dair iddia tələbi təmin edilmişdir.

**İşin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər:**

MPM-in 4.1-ci maddəsinə əsasən, bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

Məhkəmə həqiqətə nail olmaq üçün, işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Məhkəmə tərəflərə məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur və tərəflər qanunda nəzərdə tutulan hallar istisna edilməklə, iddianı etiraf edə və yaxud ondan imtina edə bilərlər (MPM-in 14.1-ci, 14.2-ci və 14.3-cü maddələri).

Məhkəmə işə baxarkən iş üzrə sübutları bilavasitə tədqiq etməyə, tərəflərin və üçüncü şəxslərin izahatlarını, şahidlərin ifadələrini, ekspertlərin rəylərini dinləməyə, yazılı sübutlarla tanış olmağa, maddi sübutları müayinə etməyə, səs yazılarına qulaq asmağa, videoyazılara baxmağa və işə baxılması ilə əlaqədar digər hərəkətləri etməyə borcludur (MPM-in 175.1-ci maddəsi).

Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir (MPM-in 77.1-ci maddəsi).

Həmçinin MPM-in 88-ci maddəsinə əsasən, məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tət-

biq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

Lazımi sübutların əsli və ya lazımi qaydada təsdiq olunmuş surəti təqdim edilir. Əgər baxılan işə sənədin yalnız bir hissəsi aiddirsə, belə olan halda, bu sənəddən təsdiq olunmuş çıxarış təqdim edilir.

Sənədlərin əsli qanunlara və ya digər normativ hüquqi aktlara müvafiq olaraq, işin halları ancaq bu cür sənədlərlə təsdiq edildikdə və ya məhkəmənin tələbi ilə digər zəruri hallarda təqdim edilir (MPM-in 89.3-cü və 89.4-cü maddələri).

İşdə iştirak edən şəxslərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir.

Digər tərəf sübutları özündə saxlayıb məhkəmənin tələbi ilə təqdim etmədikdə, məhkəmə tərəflərin bildirdiyi məlumatlar əsasında iş üçün əhəmiyyətli olan halları müəyyən olunmuş hesab edə bilər (MPM-in 106.1-ci, 106.2-ci maddələri).

MPM-in 193-cü maddəsinə görə hakim işdə iştirak edən şəxslərin izahatlarını dinləyib onların mülahizəsini nəzərə alaraq, sübutların tədqiq edilməsinin ardıcıllığını müəyyən edir.

Məhkəmə iş materiallarında olan Bakı şəhər Ərazi İdarəsinin 09 noyabr 2000-ci il tarixli FM seriyalı 0083363 nömrəli qeydiyyat vəsiqəsinin, II-AZ seriyalı 027938 nömrəli nikahın bağlanması haqqında şəhadətnamənin, Ağır cinayətlərə dair işlər üzrə AR Məhkəməsinin 23 iyul 2010-cu il tarixli qanuni qüvvəyə minmiş hökmünün, AZ-I seriyalı 416877 nömrəli ölüm haqqında şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surətini, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsini əsas sübut hesab etmişdir.

Eyni zamanda məhkəmə apellyasiya şikayətini, apellyasiya şikayətinə etirazı, həm iddiaçının, həm də cavabdehin nümayəndəsinin izahatlarını və çıxışlarını sübut yüklü hallar kimi qiymətləndirmişdir.

Cavabdeh apellyasiya şikayətinin hüquqi əsası kimi MM-in 1137-ci maddəsinə istinad etmişdir.

İddiaçı etirazının hüquqi əsası kimi MM-in 1137-ci maddəsinə istinad etmişdir.



**Məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və normativ-hüquqi aktlar (cavabdeh tərəfindən iddia tələbi etiraf edildikdə qətnamənin əsaslandırıcı hissəsində yalnız iddianın etiraf edilməsi və onun məhkəmə tərəfindən qəbul edilməsi):**

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin AR Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır (MPM-in 2.1-ci maddəsi).

MPM-in 2.2-ci maddəsinə əsasən, mülki məhkəmə icraatı qanunçuluğun və ictimai qaydanın bərqərar edilməsinə, vətəndaşların qanunlara dönmədən hörmət ruhunda tərbiyə edilməsinə rəvac verir.

Məhkəmə icraatı işə baxılan, ayrı-ayrı prosessual hərəkətlər həyata keçirilən və yaxud məhkəmə aktı icra edilən zaman qüvvədə olan mülki prosessual qanuna əsasən aparılır (MPM-in 3.1-ci maddəsi).

Mülki işlər və iqtisadi mübahisələr üzrə ədalət mühakiməsi yalnız məhkəməyə aiddir və məhkəmələr tərəfindən qanunla müəyyən olunmuş qaydada həyata keçirilir (MPM-in 6-cı maddəsi).

Ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir.

MPM ilə başqa hal nəzərdə tutulmayıbsa, məhkəmədə mübahisəyə işdə iştirak edən şəxslər çağırılıb dindirilmədikdə baxıla bilməz. İşdə iştirak edən şəxslər öz tələblərini əsaslandırdıqları dəlillər, sübutlar və hüquqi nəticələr barədə bir-birlərinə məlumat verməyə borcludur ki, digər tərəf bunlara qarşı özünün müdafiəsini təşkil edə bilsin.

Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz (MPM-in 9.1-ci, 9.2-ci və 9.3-cü maddələri).

MPM-in 13.1-ci maddəsinə görə, məhkəmə mübahisələri AR-in Konstitusiyasına, referendumla qəbul edilən hüquqi aktlara, qanunlara, AR prezidentinin fərmanlarına, AR Nazirlər Kabinetinin qərarlarına, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına, habelə AR-in tərəfdar olduğu beynəlxalq müqavilələrə əsasən həll edir.

Məhkəmə iddia tələbini və iş materiallarını araşdıraraq hesab edir ki, hazırki iddia tələbi ilə bağlı, "Dövlət rüsumu haqqında" AR Qanununa MM-ə və MPM-ə istinad edilməklə kifayətlənmək və əsaslandırılmış qətnamə qəbul etmək mümkündür.

Beləliklə, məhkəmə hesab edir ki, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilməli, iş üzrə yeni qətnamə çıxarılaraq iddia ərizəsi rədd edilməlidir. Belə ki, birinci instansiya məhkəməsi öz qətnaməsində nəzərdə tutmuşdur ki, məhkəmə cavabdehin miras qoyan barəsində edilən hüquqazidd hərəkətin motivi haqqında, yəni miras əmlaka yiyələnmək məqsədi olmadan törətməsi barədə dəlilinə tənqidi yanaşır və qeyd edir ki, miras qoyanın ölümünə səbəb olan qəsdən cinayət etməkdə təqsirli bilinən şəxs mirası ələ keçirmək məqsədi ilə və ya başqa niyyətlə hərəkət etməsindən asılı olmayaraq həmişə və bütün hallarda vərəsəlikdən kənarlaşdırılmalıdır. Cavabdeh miras qoyanı öldürməklə onun vərəsəliyə çağırılmasına və ya miras payının artmasına maneçilik etmişdir.

Həmçinin Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsində göstərilmişdir ki, cavabdeh etirazda göstərdiyi dəlilləri təsdiq edən sübutları məhkəməyə təqdim etməmişdir.

Məhkəmə hesab edir ki, cavabdehin miras qoyan barəsində edilən hüquqazidd hərəkəti miras əmlaka yiyələnmək məqsədi olmadan törədilmişdir ki, bu da MM-in 1137-ci maddəsinin əhatə dairəsinə düşmür.

Eyni zamanda cavabdehin hüquqazidd hərəkətinin miras əmlaka yiyələnmək məqsədi olmadan törədilməsi iş materiallarında olan Ağır cinayətlərə dair işlər üzrə AR Məhkəməsinin 23 iyul 2010-cu il tarixli qanuni qüvvəyə minmiş hökmü ilə sübuta yetirilmişdir.

MPM-in 82.4-cü maddəsinə əsasən, cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü bu hərəkətlərin olub-olmaması və bu hərəkətlərin kim tərəfindən edilməsi məsələlərində mülki işə baxan məhkəmə və ya hakim üçün məcburidir.

Məhkəmə ikinci halda apellyasiya şikayəti verilmiş qətnamədə nəzərdə tutulan cavabdeh etirazda göstərdiyi dəlilləri təsdiq edən sübutları məhkəməyə təqdim etməməsi fikrinə də tənqidi yanaşaraq hesab edir ki, cavabdehin iddia ərizəsinə təqdim etdiyi yazılı etirazda göstərilən halları yenidən sübutuna ehtiyac qalmamışdır. Belə ki, həmin hallar Ağır cinayətlərə dair işlər üzrə AR Məhkəməsinin 23 iyul 2010-cu il tarixli qanuni qüvvəyə minmiş hökmü ilə öz təsdiqini tapmışdır.



MPM-in 15.1-ci maddəsinə əsasən, məhkəmə məhkəmə aktlarını qətnamə, qərardad, qərar və əmr formasında qəbul edir.

AR-in məhkəmələri, MPM-ə və ya digər qanunlara müvafiq olaraq onların müdafiəsi məhkəmədən kənar digər qaydada həyata keçirilmirsə, pozulmuş və mübahisə edilən hüquq və azadlıqları müdafiə və təmin edir (MPM-in 24.1-ci maddəsi).

Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir (MM-in 1133.1-ci maddəsi).

Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır (MM-in 1133.2-ci maddəsi).

MM-in 1134.1-ci maddəsinə görə, qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilərlər.

Həmçinin MM-in 1137-ci maddəsinə əsasən, miras qoyanın son iradəsini həyata keçirməsinə qəsdən manеə törətmiş və bununla da özünün və ya özünə yaxın şəxslərin vərəsəliyə çağırılmasına və ya miras paylarının artırılmasına kömək göstərmiş, yaxud vəsiyyət edənin vəsiyyətnamədə ifadə edilmiş son iradəsinə qarşı qəsdən cinayət və ya digər əxlaqsız hərəkət törətmiş şəxs (ləyaqətsiz vərəsə) nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə ola bilməz, bu şərtlə ki, həmin hallar məhkəmə tərəfindən təsdiq edilsin.

Şəxsin ləyaqətsiz vərəsə sayılması barəsində iddianı maraqlı şəxslər həmin şəxsin mirasa sahibliyə başladığı andan beş il ərzində irəli sürməlidirlər (MM-in 1143-cü maddəsi).

Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

Mirasa ümumi mülkiyyətdən ölənə çatası pay, əmlakın naturada bölünməsi mümkün olmadıqda isə bu əmlakın dəyəri daxildir (MM-in 1151.1-ci və 1151.2-ci maddələri).

MM-in 1159.1.1-ci maddəsinə əsasən, birinci növbədə - ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) qanun üzrə vərəsəlik zamanı bərabər pay hüquqlu vərəsələr sayılırlar:

Apellyasiya instansiyası məhkəməsi:

1. qətnaməni dəyişmədən, apellyasiya şikayətini isə təmin etmədən saxlaya bilər;
2. qətnaməni tamamilə və ya qismən ləğv edə bilər və birinci instansiya məhkəməsində müəyyən edilmiş hallar və ya əlavə təqdim olunmuş sübutlar əsasında yeni qətnamə qəbul edə bilər;
3. qətnaməni dəyişdirə bilər;
4. qətnaməni tamamilə və ya qismən ləğv edə bilər, iş üzrə icraata xitam verə və yaxud ərizəni baxılmamış saxlaya bilər (MM-in 384.0-cı maddəsi).

Məhkəmə qətnaməsinin apellyasiya qaydasında ləğv edilməsi üçün əsaslar aşağıdakılardır:

1. maddi hüquq normalarının və ya prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi;
2. məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halların aydınlaşdırılmaması;
3. birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş, iş üçün əhəmiyyəti olan halların sübut edilməməsi;
4. birinci instansiya məhkəməsinin qətnamədə göstərilmiş nəticələrinin işin hallarına uyğun gəlməməsi (MM-in 385.1-ci maddəsi).

MM-in 386-cı maddəsinə əsasən, maddi hüquq normaları o halda pozulmuş və ya düzgün tətbiq olunmamış hesab edilir ki, birinci instansiya məhkəməsi hüququn tətbiq edilməsində səhv buraxsın, tətbiq edilməli olan qanunu və ya digər normativ hüquqi aktı tətbiq etməsin, yaxud qanunu səhv təfsir etsin.

Məhkəmə hesab edir ki, mübahisə ilə bağlı birinci instansiya məhkəməsi tərəfindən qanun səhv təfsir edilmişdir. Belə ki, cavabdehin miras qoyanı qəsdən öldürməsi hadisəsi mirasın açılmasının tezləşdirməsinə xidmət etmiş olsa da əslində MM-in 1137-ci maddəsinin tələbi altına düşmür.

Məhkəmə xərcləri dövlət rüsumundan və işə baxılması ilə əlaqədar olan məsrəflərdən ibarətdir (MPM-in 107-ci maddəsi).



Məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə münasib olaraq işdə iştirak edən şəxslərə aid edilir (MPM-in 119.1-ci maddəsi).

İddiaçı müəyyən olunmuş qaydada dövlət rüsumunu ödəməkdən azad edilmişsə, dövlət rüsumu iddianın təmin edilmiş hissəsinə münasib olaraq cavabdehdən tutularaq dövlət gəlirlərinə alınır (MPM-in 119.2-ci maddəsi).

İş materiallarından göründüyü kimi, ilkin iddia üzrə iddiaçı 5 (beş) manat məbləğində dövlət rüsumu ödəmişdir.

Həmçinin birinci instansiya məhkəməsindən apellyasiya şikayəti vermək üçün cavabdeh tərəfindən 6 (altı) manat dövlət rüsumu ödənilmişdir.

Məhkəmə, məhkəmə xərclərinin bölüşdürülməsi məsələsi ilə bağlı əsasən belə nəticəyə gəlir ki, iddiaçı tərəfindən ödənilmiş 5 (beş) manat məbləğində dövlət rüsumu və cavabdeh tərəfindən ödənilmiş 6 (altı) manat apellyasiya şikayəti üzrə dövlət rüsumu iddiaçının tələbi rədd olunduğundan iddiaçıya aid edilməli, iddiaçı Əliyev Əli Nahid oğlundan ödənilmiş ödənilmiş 6 (altı) manat apellyasiya şikayəti üzrə dövlət rüsumu alınaraq cavabdeh Məmmədova Pakizə Məmməd qızına ödənilməlidir.

Beləliklə, yuxarıda göstərilənlərə əsasən məhkəmə belə nəticəyə gəlir ki:

- iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı ləyaqətsiz vərəsə hesab edilmə tələbinə dair iddia ərizəsi üzrə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsindən cavabdeh Məmmədova Pakizə Məmməd qızının apellyasiya şikayəti təmin edilməli;
- Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsi ləğv edilməli və iş üzrə yeni qətnamə qəbul edilməli;
- iddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı ləyaqətsiz vərəsə hesab edilmə tələbinə dair iddia tələbi rədd edilməli;
- iddiaçı tərəfindən ödənilmiş 5 (beş) manat məbləğində dövlət rüsumu, və cavabdeh tərəfindən ödənilmiş 6 (altı) manat apellyasiya şikayəti üzrə dövlət rüsumu iddiaçının tələbi rədd olunduğuna iddiaçıya aid edilməli;

- iddiaçı Əliyev Əli Nahid oğlundan ödənilmiş 6 (altı) manat apellyasiya şikayəti üzrə dövlət rüsumu alınaraq cavabdeh Məmmədova Pakizə Məmməd qızına ödənilməlidir.

Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.

Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır (MPM-in 217.1-ci, 217.2-ci, 217.3-cü və 217.4-cü maddələri).

Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadığını müəyyən edir.

Hakim, işə əhəmiyyəti olan yeni halları aydınlaşdırmağı və ya əlavə sübutları tədqiq etməyi zəruri hesab edərsə, məhkəmə iclasının təzələnməsi haqqında qərardad çıxarır. İşə mahiyyəti üzrə baxılması başa çatdıqdan sonra hakim yenidən tərəflərin çıxışlarını dinləyir.

Hakim işdə iştirak edən şəxslərin verdiyi tələblər üzrə qətnamə çıxarır. Lakin hakim qanunda göstərilən müstəsna hallarda iddia tələblərindən kənara çıxa bilər (MPM-in 218.1-ci, 218.2-ci və 218.3-cü maddələri).

AR Konstitusiyasının 130-cu maddəsinin V və IX hissələrini, MPM-in 216-cı, 217-ci, 218-ci, 219-cu, 220-ci və 392-ci maddələrini rəhbər tutaraq, məhkəmə

**Qət etdi:**

**Nəticə hissə**

**İddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin gəldiyi nəticə:**

İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı ləyaqətsiz vərəsə hesab edilmə tələbinə dair iddia ərizəsi üzrə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-



cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsindən cavabdeh Məmmədova Pakizə Məmməd qızının apellyasiya şikayəti təmin edilsin.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 12 aprel 2013-cü il tarixli, 2(004)-13/2013 saylı qətnaməsi ləğv edilsin və iş üzrə yeni qətnamə qəbul edilsin.

İddiaçı Əliyev Əli Nahid oğlunun cavabdeh Məmmədova Pakizə Məmməd qızına qarşı ləyaqətsiz vərəsə hesab edilmə tələbinə dair iddia tələbi rədd edilsin.

**Məhkəmə xərclərinin bölüşdürülməsi:**

İddiaçı tərəfindən ödənilmiş 5 (beş) manat məbləğində dövlət rüsumu, və cavabdeh tərəfindən ödənilmiş 6 (altı) manat apellyasiya şikayəti üzrə dövlət rüsumu iddiaçının tələbi rədd olunduğundan iddiaçıya aid edilsin.

İddiaçı Əliyev Əli Nahid oğlundan ödənilmiş 6 (altı) manat apellyasiya şikayəti üzrə dövlət rüsumu alınaraq cavabdeh Məmmədova Pakizə Məmməd qızına ödənilsin.

**Qətnamədən şikayət vermə müddəti və qaydası:**

Qətnamədən tərəfə rəsmi qaydada təqdim edildikdən sonra 2 (iki) ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsilə AR Ali Məhkəməsinin Mülki Kollegiyasına kassasiya şikayəti verilə bilər.

**hakim (sədrlik edən)**
**Qalib Səmədov** İmza:

**hakim (məruzəçi)**
**Səməd Əliyev** İmza:

**hakim**
**Minayə Həmidova** İmza:

**məhkəmə iclas katibi**
**Qədim Əmirov** İmza:

Qətnamənin tam mətni hazır olandan sonra hakim Səməd Əliyevin ölməsi səbəbindən onun yerinə məhkəmə tərkibinin digər hakimi Minayə Həmidova imza etmişdir.

Hakim Səməd Əliyevin ölüm haqqında şəhadətnaməsi iş materiallarına əlavə edilmişdir[1].

**hakim (sədrlik edən)**
**Qalib Səmədov** **İmza:**

---

[1] Təəssüflər olsun ki, məhkəmə qətnaməsini qəbul etmiş hakimin sonradan onu imzalamaq imkanının olmaması (məsələn, vəfat etməsi, ağır xəstəliyə tutulması və s.) səbəbindən qətnamənin imzalanması məsələsi qanunvericilikdə nəzərdə tutulmamışdır. Lakin bəzi xarici ölkələrin, o cümlədən Türkiyə Respublikasının MPM-də bu hal aşağıdakı kimi müəyyən edilmişdir:

"Qət edilən nəticə yoxlanıldıqdan sonra əsaslı qərarı imzalamadan hakim ölərsə və ya hər hansı bir səbəblə imza edə bilməz hala düşərsə, yeni hakim, yoxlanılan nəticəyə uyğun olaraq hazırlanan əsaslı qərarı şəxsən yazaraq imzalayır. Kollegiyal məhkəmələrdə belə bir vəziyyətin həyata keçməsi halında, nəticə digər hakimlər tərəfindən imzalanır və sədrlik edən və ya ən təcrübəli hakim tərəfindən, nəticənin altına digər hakimin imza etməməsinin səbəbi yazılaraq imza olunur.".

Hesab edirik ki, belə bir qaydanın bizim MPM-də nəzərdə tutulması olduqca vacibdir və gələcəkdə bu hal səlahiyyətli orqanlar tərəfindən mütləq nəzərə alınacaqdır.



**"Məhkəmə qətnaməsi haqqında"**

**AR Ali Məhkəməsi Plenumunun**

## QƏRARI

24 noyabr 2005-ci il №4 Bakı şəhəri

AR-da məhkəmə-hüquq islahatlarının aparılması gedişində qəbul olunmuş AR-in MPM-də mülki prosessual qanunvericilik yeni normalarla zənginləşdirilmişdir. Bu normalar məhkəmə quruluşu sistemindəki dəyişikliklərlə yanaşı, mübahisələrin həllinə çəkişmə prinsipi hərtərəfli tətbiq etməklə yeni yanaşma tərzini özündə əks etdirir.

Dövlət adından çıxarılan və ədalət mühakiməsinin yekun aktı olan məhkəmə qətnaməsinin hüquqi, nəzəri, təcrübi cəhətdən düzgün tərtib edilməsi vətəndaşların məhkəmə orqanlarına olan inamını artırır, onların hüquqi vasitələrlə tərbiyə olunmasına xidmət edir.

AR-in dünyaya hərtərəfli inteqrasiyası. Yuxarı məhkəmə orqanlarının qərarlarının dərc olunması və dünyada yayılması məhkəmə sənədlərinin tərtibinə diqqətin daha da artırılmasını tələb edir.

Mülki və iqtisadi mübahisələr üzrə qəbul dilmiş məhkəmə qətnamələrinin öyrənilməsi göstərir ki, məhkəmələr tərəfindən qəbul edilən bəzi qətnamələr qanuni və əsaslı olmur, iddialar mahiyyəti üzrə düzgün həll olunmur, yaxud qətnamələrin tərkibi mülki-prosessual qanunvericiliyin tələblərinə cavab vermir. Bu da öz növbəsində qətnamələrin yuxarı instansiya məhkəmələri tərəfindən ləğv edilməsinə və ya dəyişdirilməsinə səbəb olur.

Məhkəmə qətnamələrinin keyfiyyətini və tərtibi qaydalarını daha da yaxşılaşdırmaq məqsədilə AR Ali Məhkəməsinin Plenumu

## QƏRARA ALIR:

1. Məhkəmə qətnaməsi mülki və iqtisadi mübahisələrdən irəli gələn işlər üzrə ədalət mühakiməsinin yekun aktı olduğu üçün onun qəbul edilməsi ilə mübahisəli hüquq münasibətlərində müəyyənlik yaranmalı,

pozulmuş və mübahisə edilən hüquqların və qanunla qorunan mənafelərin real bərpası təmin olunmalıdır.

2.1. Məhkəmələrin diqqəti AR MPM-nin 217-ci maddəsinə əsasən qətnamənin qanuni və əsaslı tərtib olunması zəruriliyinə cəlb edilsin.

2.2. Məhkəmə qətnaməsi maddi və prosessual hüquq normalarına dəqiq əməl edilməklə qəbul edldikdə qanuni hesab edilir. AR MPM-nin 134-cü maddəsinə müvafiq olaraq mübahisə edilən münasibəti tənzimləyən hüquq norması olmadıqda, məhkəmə oxşar münasibətləri tənzimləyən hüquq normalarını tətbiq edir. Belə normalar da olmadıqda, məhkəmə Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinə, presedent hüququna, mülki qanunvericiliyin prinsiplərinə istinad etməklə qətnamə qəbul etməyə haqlıdır.

2.3. AR Konstitusiyasının 151-ci maddəsinə müvafiq olraq AR Qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (AR Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) AR-in tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

2.4. Qətnamə o vaxt əsaslı hesab edilir ki, onda baxılan iş üçün əhəmiyyətli olan, qanunun tələblərinə uyğun olaraq işə aid edilən və mötəbər sübutlarla təsdiq olunan faktlar əks etdirilmiş olsun, məhkəmənin iş üzrə müəyyən edilən faktlardan irəli gələn qəti nəticəsi onda şərh edilsin, habelə qətnamədə göstərilən hallar işin materiallarına uyğun olsun.

2.5. Məhkəmələr nəzərə almalıdırlar ki, AR Konstitusiyasının 149-cu maddəsinin VII hissəsinə görə fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ-hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Plenum izah edir ki, AR MM-in 7.3-cü maddəsinə əsasən mülki hüquq subyektlərinə ziyan vurarsa və ya onların vəziyyətini pisləşdirərsə mülki qanunvericiliyin geriyə qüvvəsi ola bilməz.

3.1. Məhkəmələrə izah edilsin ki, AR MPM-nin 217.4-cü maddəsində təsbit edilmiş bilavasitəlik prinsipi nəzərə alınmaqla qətnamə yalnız məhkəmə iclasında tədqiq edilmiş sübutlara əsaslanmalıdır.

3.2. Qətnamədə AR MPM-də göstərilən qaydalarda araşdırılmayan məlumatlara istinad edilməsinə yol verilmir.

3.3. AR MPM-nin 103.1-ci maddəsinə əsasən digər sübutlar kimi ekspert rəyinin də əvvəlcədən müəyyən edilmiş heç bir məcburi qüvvəsi



yoxdur. Ona görə ekspert rəyində digər sübutlarla bərabər qiymət verilməli, ekspert rəyinin məhkəmə tərəfindən qəbul edilib-edilməməsi səbəbləri qətnamədə öz əksini tapmalıdır.

3.4. İşdə bir neçə ekspert rəyi olduqda, məhkəmə qətnamədə onların hər birinin qəbul edilməsi və ya rədd edilməsi səbəblərini göstərməlidir.

3.5. MPM-nin 218.3-cü maddəsinə əsasən hakim (məhkəmə tərkibi) işdə iştirak edən şəxslərin verdiyi tələblə üzrə qətnamə çıxarır. Lakin hakim (məhkəmə tərkibi) qanunda göstərilən müstəsna hallarda iddia tələblərindən kənara çıxa bilər. Bu zaman hakim qətnamədə istinad etdiyi qanunu göstərməli və müstəsnalığın nədən ibarət olmasını əsaslandırmalıdır.

4. AR MPM-nin 82.4-cü maddəsinə əsasən cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü bu hərəkətlərin olub-olmaması və bu hərəkətin kim tərəfindən edilməsi məsələsində mülki işə baxan məhkəmə üçün məcburidir. Buna görə də, cinayət işində meydana gələn ziyanın ödənilməsi barədə mülki işə baxan məhkəmə öz qətnaməsində cavabdehlik təqsirlilik məsələsinə qiymət verə bilməz. İddianın təmin olunması barədə qətnamədə hökmlə bərabər, qət edilmiş məbləğ haqqında işdə olan və ya təqdim olunan digər sübutlara da istinad edilməlidir.

5. Məhkəmə qətnaməsi savadlı, hüquqi cəhətdən düzgün tərtib edilməli, onda anlaşılmayan ifadələr yazılmamalı, hüquqi ifadələr yerində və dəqiq işlədilməlidir.

6.1. Qətnamənin məzmunu giriş, təsviri, əsaslandırıcı və nəticə hissələrindən ibarət olub, həmin ardıcıllıqla AR MPM-nin 220-ci maddəsində göstərilən məlumatları əks etdirməlidir.

6.2. Qətnamənin əsaslandırıcı hissəsinə xüsusi diqqət verilməlidir. Qətnamənin həmin hissəsində işin məhkəmə tərəfindən müəyyən olunmuş halları, məhkəmənin nəticələrini əsaslandırdığı sübutlar, bu və ya digər sübutları rədd və ya qəbul etmək üçün istinad etdiyi dəlillər, rəhbər tutduğu qanunlar və ya digər normativ aktlar göstərilməlidir.

6.3. Məhkəmə qətnaməsinin əsaslandırıcı hissəsində sübutlar əlaqəli şəkildə şərh edilməli, bu və ya digər sübutun qəbul edilib-edilməməsinin səbəbləri orada aydın izah edilməlidir.

6.4. Məhkəmələr nəzərə almalıdırlar ki, qanunvericiliklə müəyyən edilmiş prosessual qaydaların pozulması ilə əldə edilmiş sübutlar məhkəmə qətnaməsinin əsasını təşkil edə bilməz.

6.5. Qətnamənin əsaslandırıcı hissəsində məhkəmənin mübahisə edilən hüquq münasibəti barədə gəldiyi nəticə üçün əsas götürdüyü maddi hüquq normaları, istinad etdiyi qanun və y digər normativ aktın adı, maddəsi, abzası, bəndi, zəruri hallarda məsələlər barədə qərarları da göstərilməlidir.

6.6. İddiaçı məhkəmə iclasında iddianın predmetini və yaxud əsasını dəyişdirdikdə, iddianın həcmini artırıb-azaltdıqda, cavabdeh iddianı tam və ya qismən etiraf etdikdə bu barədə qətnamədə qeyd edilməli, məhkəmənin bununla razılaşıb-razılaşmamasının səbəbləri qətnamənin əsaslandırıcı hissəsində şərh edilməlidir.

6.7. Məhkəmələr izah edilsin ki, işə qiyabi icraat qaydasında baxıldıqda iddianın predmeti və ya əsası dəyişdirilə, iddia tələblərinin məbləği artırıla bilməz.

6.8. Qətnamənin nəticə hissəsi imperativ formada yazılmalı, baxılan iş üzrı tərəflərin hüquq və vəzifələrini dəqiq müəyyən etməlidir.

6.9. Məhkəmə qətnaməsinin nəticə hissəsində ümumi müddəalarla yanaşı, ayrı-ayrı kateqoriyalı işlər üzrə xüsusi müddəalar da əks olunmalıdır. Məsələn: şərəf və ləyaqətin müdafiəsi ilə əlaqədar işlər üzrə məhkəmə qətnaməsində vətəndaşların şərəf və ləyaqətini ləkələyən və həqiqətə uyğun olmayan məlumatların təkzib edilmə üsulu: sağlamlığa vurulmuş ziyanın ödənilməsi barədə işlər üzrə qətnamədə tutulmalı ziyanın dəqiq miqdarı, ödəniş məbləğləri; əmlakın həbsdən azad edilməsi barədə iddia təmin edildikdə qətnamədə hansı əmlakın iddiaçıya məxsus olması və həbsdən azad edilməsi; atalığın etirafı kimi faktının müəyyən edilməsi işləri üzrə atalığım müəyyən edilməsi barədə aktın VVADQ orqanlarında qeydiyyatı üçün zəruri olan məlumatlar (soyad, ad, ata-ana adı, doğulduğu gün, ay, il və yer, daimi yaşayış yeri) göstərilməlidir.

6.10. Əqd məhkəmə tərəfindən ləğv edildikdə və ya etibarsız hesab edildikdə qətnamənin nəticə hissəsində əqdin iştirakçılarının əqd üzrə aldıqlarını eyni vaxtda geri qaytarmalı olmaları və yaxud qətnamənin hər iki tərəf üçün eyni vaxtda icra edilməli olması göstərilməlidir. Tərəflərin əvvəlki vəziyyətə qaytarılması üçüncü şəxslərin hərəkətləri ilə əlaqədar olduqda qətnamədə bu məsələ də həll edilməlidir.



6.11. Cavabdeh müəyyən edilmiş vaxt ərzində qətnaməni icra etməsə, məhkəmə zəruri hesab etdikdə iddiaçının cavabdehdən zəruri xərcləri almaqla həmin hərəkətləri cavabdehin hesabına etməyə haqlı olmasını qətnamədə göstərə bilər.

6.12. İşə qiyabi icraat qaydasında baxıldıqda qəbul edilən qətnamə "qiyabi qətnamə" adlandırılmalı, qətnamənin nəticə hissəsində qətnaməyə yenidən baxılması üçün ərizənin verilməsi vaxtı və qaydası qeyd edilməlidir.

6.13. Bir qayda olaraq, məhkəmə qətnaməsi həmin işə baxılması qurtardıqdan dərhal sonra tərtib edilməlidir. Müstəsna hallarda, xüsusilə mürəkkəb işlər üzrə əsaslandırılmış qətnamənin tərtib edilməsi 10 gün müddətinədək başa çatdırılmalıdır. Məsələn, işdə bir neçə iddiaçı və cavabdeh olduqda, tədqiq edilən sübutların həcmi böyük olduqda və s.

7. Apellyasiya instansiyası məhkəməsi şikayəti təmin etmədikdə və ya birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirdikdə hansı dəlillərə əsasən şikayətin təmin edilmədiyini və yaxud qətnamənin dəyişdirildiyini göstərməyə borcludur.

8.1. İşdən qarşılıqlı iddia verildikdə qətnamənin əsaslandırıcı hissəsində həm ilkin, həm də qarşılıqlı iddia ayrı-ayrılıqda əsaslandırılmalı və qətnamənin nəticə hissəsində hər bir iddianın hansı qaydada həll olunması aydın göstərilməlidir. Bir icraata bir neçə tələb birləşdirildikdə və yaxın işdə müstəqil tələb irəli sürən 3-cü şəxslər iştirak etdikdə qətnamənin nəticə hissəsində bütün tələblər üzrə qərar qəbul edilməlidir.

8.2. Məhkəmə bir neçə cavabdeh barədə qətnamə çıxardıqda, cavabdehlərin hər birinin qətnaməni hansı hissədə yerinə yetirməli olmasını və ya onların məsuliyyətlərinin müştərək olmasını göstərməlidir.

9.1. İddia tələbi qismən təmin edildikdə qətnamədə əvvəl iddianın təmin olunan hissəsi, sonra isə təmin olunmayan hissəsi əsaslandırılmalı, qətnamənin nəticə hissəsində iddianın kimin haqqında hansı hissəsində təmin və yaxud rədd olunması konkretləşdirilməlidir.

9.2. Əmək tələbi barədə iddialar təmin olunduqda gələcəkdə qətnamənin icrasının müəyyənliyini və mümkünlüyünü təmin etmək məqsədilə qət edilən əşyaların hər birinin ayrı-ayrılıqda dəyəri və qət olunan əmlakın cavabdehdən naturada alınası mümkün olmadığı hallarda həmin əmlakın dəyərinin pulla ödənilməsi də qətnamədə həll olunmalıdır.

9.3. Pul vəsaitlərinin tutulması haqqında iddia təmin edilərkən, qətnamədə əsas borc, ziyan, dəbbə pulu (cərimə, pensiya) ayrı-ayrılıqda müəyyən edilməli, həm də alınmalı olan ümumi məbləğ hesablanmalıdır.

10. Qətnamədə alınması və yaxud ödənilməsi müəyyən eidlən məbləğlər AR-in milli pul vahidi ilə ifadə olunmalıdır. Əgər iddia tələbi xarici valyuta ilə göstərilərsə, alınan və ya ödənilən məbləğin qətnamənin icra olunduğu günə olan manat məzənnəsi ilə hesablanması göstərilməlidir.

11.1. Məhkəmələrə izah edilsin ki, məhkəmə tərəfindən qətnamənin icra qaydası qanunun tələbindən və işin hallarından asılı olaraq müəyyən olunur. Əgər məhkəmə öz qətnaməsinin icrası üçün bu və ya digər qaydanı tətbiq etməyi məqsədəuyğun hesab edirsə və yaxud həmin qayda-qanuna əsasən tətbiq edilməlidirsə, qətnamənin mətnində onun icra qaydası da müəyyənləşdirilməlidir.

11.2. Məhkəmələrin diqqətinə çatdırılsın ki, dərhal icra olunma hallar (AR MPM-nin 235-ci maddəsi) istisna olmaqla, qətnamə qanunu qüvvəyə mindikdən sonra icra edilir. Digər hallarda qətnamənin dərhal icrası məqsədə müvafiq hesab edildikdə məhkəmə bunu öz qətnaməsində əsaslandırmalıdır.

11.3. Qətnamə yuxarı instansiya məhkəməsi tərəfindən ləğv edildikdə və yaxud dəyişdirildikdə AR MPM-nin 235.3-cü maddəsinə müvafiq olaraq hakim qətnamənin dönüşü məsələsini həll edə bilər.

12. Məhkəmələr nəzərə almalıdırlar ki, qətnamənin icrasına möhlət verilməsi və ya onun hissə-hissə icra edilməsi, qətnamənin icra üsulunun və qaydasının dəyişdirilməsi müstəsna hal olub, qətnamənin icrası üçün çətinlik törədən və yaxud borclu üçün yaranmış əlverişsiz hallarda tətbiq oluna bilər. Məhkəmələr bu məsələləri həll etdikdə təkcə borclunun deyil, tələbkarın mənafeyini də nəzərə almalıdırlar.

13.1. Məhkəmə qəbul etdiyi qətnaməni elan etdikdən sonra mahiyyətini dəyişmədən onda olan yanlışlıqları və açıq hesab səhvlərini düzəldə bilər.

13.2. Düzəlişlər etmək məsələsi iclasın vaxtı və yeri haqqında işdə iştirak edən şəxslər xəbərdar edilməklə məhkəmə iclasında həll edilir.

13.3. Qətnamədəki yanlışlıqların və hesab səhvlərinin düzəldilməsi üçün AR MPM-də müddət müəyyən edilmədiyinə görə həmin məsələlər qətnamə icra edilənədək istənilən vaxt qaldırıla bilər.



14. Qətnamə aydın və dəqiq olmadıqda, həmçinin ziddiyyətli olduqda, işi həll etmiş hakim (məhkəmə tərkibi) qətnamənin məzmununu dəyişdirmədən onu izah etməyə haqlıdır. Qətnaməni izah etmək yolu ilə onun dəyişdirilməsinə və yaxın onda məhkəmə baxışının predmeti olmayan məsələlərin həll edilməsinə yol verilmir.

15.1. Əlavə qətnamənin çıxarılmasına yalnız AR MPM-nin 229-cu maddəsində müəyyən edilmiş hallarda yol verilir. Bu halların siyahısı qətidir və genişləndirilə bilməz.

15.2. Qeyd etmək lazımdır ki, əlavə qətnamənin çıxarılması barədə məsələyə əsas qətnamə qanuni qüvvəyə minənə kimi baxıla bilər. məhkəmə baxışında müəyyən edilməmiş hallar barədə əlavə qətnamənin çıxarılmasına yol verilmir.

15.3. Əlavə qətnamənin çıxarılması mülki mühakimə icraatının ümumi qaydalarına əsasən həyata keçirilir.

15.4. Əlavə qətnamənin çıxarılmasından imtina olunması maraqlı şəxsi eyni tələblə ümumi qaydada məhkəməyə müraciət etmək hüququndan məhrum etmir.

16.1. Məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdə onun məcburilik və preyudisiallıq xüsusiyyətləri əmələ gəlir.

16.2. Qətnamə qanuni qüvvəyə mindikdən sonra tərəflər və işdə iştirak edən digər şəxslər, habelə onların hüquq varisləri məhkəmədə eyni iddia tələblərini, eyni əsaslar üzrə yenidən irəli sürə bilməzlər, o cümlədən məhkəmə tərəfindən müəyyən edilmiş faktlarla və hüquq münasibətlərinə qarşı başqa prosesdə mübahisə edə bilməzlər.

17. Kassasiya və apellyasiya instansiya məhkəmələri aşağı instansiya məhkəmələrinin qətnamələrindən şikayətlərə baxdıqda qəbul etdikləri aktlarda verilən şikayətlərin dəlillərinə müfəssəl hüquqi qiymət verməlidirlər.

18. Bu qərarın qəbul edilməsi ilə əlaqədar AR Ali Məhkəməsi Plenumunun "Məhkəmə qətnaməsi haqqında" 11 iyul 1997-ci il tarixli 2 saylı qərarı qüvvədən düşmüş hesab edilsin.

**Paşa İbiş oğlu Səfərovun**
müəllifi olduğu kitablar:

1."Ləyaqətsiz vərəsə hüququ". Bakı, "Digesta" nəşriyyatı, 2012. 132 səhifə.

2. "Borclunun əmlakı üzərinə həbs qoyulması ("İcra haqqında" AR Qanununun 50-ci maddəsinin elmi-nəzəri kommentariyası)". Bakı, "Digesta" nəşriyyatı, 2012. 152 səhifə.

3. ""İcra məmurları haqqında" AR Qanununun kommentariyası". Bakı, "Digesta" nəşriyyatı, 2012. 152 səhifə.

4. ""İcra haqqında" AR Qanununun kommentariyası" (E.Quliyevlə birlikdə). Bakı, "Digesta" nəşriyyatı, 2013. 400 səhifə.

5. "Mülki işlər üzrə məhkəmə qətnamələri (nümunələrlə)". Bakı, "Digesta" nəşriyyatı, 2012. 152 səhifə.

6. "İnzibati xətalara dair işlər üzrə məhkəmə aktları (nümunələrlə)". Bakı, "Digesta" nəşriyyatı, 2012. 152 səhifə.



**Mündəricat:**

**I FƏSİL**
**Ümumi müddəalar** ........ 5
**II FƏSİL**
**Qətnamənin çıxarılması və elan edilməsi** ........ 14
**III FƏSİL**
**Qətnamənin qanuniliyi və əsaslığı** ........ 25
**IV FƏSİL**
**Qətnamə çıxarıldıqda həll edilən məsələlər** ........ 30
**V FƏSİL**
**Qətnamənin tərtib olunması və məzmunu** ........ 43
**VI FƏSİL**
**Məhkəmə qətnamələrinin surətlərinin işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməsi** ........ 72
**VII FƏSİL**
**Mülki işlər üzrə məhkəmə qətnamələrinin qanuni qüvvəyə minməsi** ........ 75
**VIII FƏSİL**
**Mülki işlər üzrə məhkəmə qətnamə formalarının şərti nümunələri** ........ 86

Birinci instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamələr: ........ 87
**1. Hissəvi qətnamə** ........ 94
**2. Qətnamə** ........ 107
**3. Əlavə qətnamə** ........ 115
**4. Qiyabi qətnamə**
Apellyasiya instansiya məhkəməsi tərəfindən qəbul edilən qətnamə: ........ 125
**1. Qətnamə**

**"Məhkəmə qətnaməsi haqqında" AR Ali Məhkəməsi Plenumunun 24 noyabr 2005-ci il tarixli Qərarı** ........ 143

**Paşa Səfərov**
**(Paşa İbiş oğlu Səfərov)**

**Mülki islər üzrə məhkəmə qətnamələri**
**(nümunələrlə)**

Korrektor: Sahib Səfərov
Kompüter tərtibatçısı: Atlaz Muradova

Çapa imzalanmısdır: 4 iyul 2013-cü il
Formatı: 60x84 1/16
Mətbəə kağızı № 1
Fiziki çap vərəqi: 9,5
Tirajı: 100
Qiymәti: 8,00 manat

**«OL» MMC**
AZ 1009, Bakı, Azərbaycan, M.İbrahimov 43.

P.S.L.L

PASHA SAFAROVS LAW LIBERARY

ISBN 978-9952-484-44-1

9 789952 484441